


# HEYDƏR ƏLİYEV VƏ MÜASİR AZƏRBAYCAN TƏHSİLİ

*Heydər Əliyev - 103*

# Heydər Əliyev və müasir Azərbaycan təhsili

*Vəsait ADPU-nun Məktəbəqədər təhsil fakültəsinin 3 dekabr 2025-ci il tarixli Elmi Şurasının qərarı ilə çap olunur (pr № 4).*

**Bakı – 2026**

*Ümumilli Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunur*

**Tərtib edən:** *Müseyib İlyasov*
*Pedaqogika elmləri doktoru, professor.*
*Əməkdar müəllim*

**Elmi redaktoru:** *Ramiz Əliyev*
*Psixologiya elmləri doktoru, professor.*
*Əməkdar müəllim*

**Rəyçilər:** **Nailə Hüseynova**
*Pedaqogika elmləri doktoru, dosent*

*Şəhla Əliyeva*
*Pedaqogika elmləri doktoru, professor.*
*Əməkdar müəllim*

**Heydər Əliyev və müasir Azərbaycan təhsili. Bakı: ADPU, 2026, 154 səh.**



**Mündəricat**

**On söz (prof.Asəf Zamanov)**.....4
**Əliyev R.İ.** Milli ideologiyanın formalaşmasında və təhsilin inkişafında Heydər Əliyevin rolu .....7
**İlyasov M.İ.** Ulu öndər və gənclərin milli-mənəvi tərbiyə məsələləri.....15
**Hüseynova N. T.** Heydər Əliyev və təhsilin inkişaf strategiyası.....32
**Əliyeva Ş.Q.** Heydər Əliyevin milli təhsil siyasəti.....38
**Heydərova S.N** "Heydər Əliyev və Azərbaycanda təhsil quruculuğu.....45
**Baxışova Ş.A.** Uşaqların ən böyük himayədarı.....54
**Hüseynov E.A.** Heydər Əliyev və xalq təhsili.....65
**Həsənova P.M.** Heydər Əliyev irsində multukultural dəyərlər və pedaqoji prosesdə onun nəzərə alınması.....82
**Əfəndiyeva Ü.A.** Heydər Əliyev – siyasi liderin psixoloji portreti.....100
**Rəhimova Q.V.** Milli-mənəvi dəyərlərimizin qorunmasında Heydər Əliyevin xidmətləri.....114
**Ağayeva T.H.** Xalqa həsr olunmuş ömür.....124
**Əzizov Q.Q.** Azərbaycanda multikulturalizm və tolerant münasibətlərin formalaşmasında Heydər Əliyevin xidmətləri.....131
**Əlixanova G.H.** Müdriklik simvolumuz - dahi lider Heydər Əliyev.....143

## ÖN SÖZ

Ümummilli lider Heydər Əliyevin anadan olmasınının 89-cu il dönümü və Heydər Əliyev Fondunun fəaliyyətə başlamasının 8 illiyi münasibətilə 10 may 2012-ci il tarixdə keçirilən təntənəli mərasimdə Azərbaycan Respublikasının Prezident Cənab İlham Əliyev demişdir: "Biz bütün sahələrdə bugünki Azərbaycan reallıqlarında Heydər Əliyevin izini görürük. Güclü və möhkəm təməl, milli dəyərlər üzərində müasir dövlətin qurulması Heydər Əliyev siyasətinin əsas istiqamətlərdən biridir. Onun təşəbbüsü ilə dövlətimizin ideololji əsasları formalaşdırlmışdır. Azərbaycançlıq məfkurəsini cəmiyyətə təqdim edən məhz Heydər Əliyev olmuşdur. Bu gün azərbaycançlıq fəlsəfəsi bizim əsas ideoloji dayaqlarımızdan biridir".

Heydər Əliyev istər şəxsiyyəti, şəxsi keyfiyyətləri, istərsə də əvəzsiz fəaliyyəti ilə Azərbaycanın suverenliyinin və müstəqilliyinin rəmzidir. O, demokratik, hüquqi, dünyəvi, müstəqil dövlətin – Azərbaycan dövlətinin möhkəm təməlini qoydu və onu qoruyub saxlamağın, inkişaf etdirib gücləndirməyin strategiyasını hazırladı. Heydər Əliyev siyasi lider, dövlət başçısı kimi humanist ideyaların, təfəkkür tərzinin, demokratiyanın tərəfdarı,bunların Azərbaycanda praktik tətbiqinin yaradıcısı olmuşdur.

Ulu öndər insanda həqiqətə, ədalətə, eyni zamanda ləyaqətə üstünlük verirdi və özü hər zaman bunlara əməl etməyə çalışırdı. Ən böyük amalı isə xalqa, Azərbaycan dövlətinə xidmət etmək, Azərbaycanın dövlətçiliyinin, müstəqilliyinin keşiyində bir vətəndaş, bir prezident kimi dayanmaq olmuşdur. "Əgər kimsə Azərbaycanın dövlətçiliyinə xəyanət edəcəksə, mən son damla qanıma qədər mübarizə aparacağam," – söyləmişdir.

Heydər Əliyev ana dilimizə, adət-ənənələrimizə böyük dəyər verirdi. Deyirdi ki, bizim milli – mənəvi dəyərimiz ana



dilimizdir, bizim adət-ənənələrimizdir. Gərək elə olsun ki, hər bir vətəndaş öz ana dilinə görə milli qürur hissi keçirsin, azərbaycanlı olması ilə fəxr etsin. Ulu öndər azərbaycanlı olsa da, rus dilli olması ilə fəxr edənləri, qınayırdı. Bildirirdi ki, beləiəri bizim sıralarımızdan çıxarılmalıdır. "Hər bir azərbaycanlı rus dilini, ingilis dilini, başqa dilləri mükəmməl bilərək, ondan istifadə edirsə, bu öz doğma dilinə diqqətini və hörmətini azaltmamalıdır".

Azərbaycan xalqına, dövlətinə sonsuz sevgisi Heydər Əliyevə sanki əlavə güc, qüvvət verirdi. 1997-2000-ci illərdə ABŞ-ın Azərbaycandakı səfiri olmuş Stenli Eskudero deyirdi: "Heydər Əliyev tükənməz enerji mənbəyi, möcüzə idi."

Heydər Əliyev istər 1969-1983-cü illərdə Azərbaycan KP MK-nın I katibi olduğu vaxtlarda, istəsə də 1993-2003-cü illərdə Azərbaycan Respublikasının Prezidenti olduğu vaxtlarda elmin, təhsilin inkişafına xüsusilə mütərəqqi təcrübənin öyrənilməsinə böyük əhəmiyyət verirdi. Bunun üçün şərait yaradır, elmi müəssisələr qarşısında ciddi məsələlər qoyurdu. Eyni zamanda tapşırırdı ki, Azrərbaycanda olan müsbət təcrübə ümumiləşdirilsin və yayılsın.

Tarixi şəxsiyyət, böyük ideoloq və strateq, ictimai-siyasi xadim, zəngin mədəniyyət daşıyıcısı, təmiz əxlaq nümünəsi, azərbaycancılıq etalonu ulu öndər Heydər Əliyev haqqında çox deyilir və yazılır. Onun haqqında nəinki şairlər, yazıçılar, sənət adamları, hətta məşhur dövlət xadimləri və siyasi xadimlər heyranlıqla fikir söyləmiş, yazmışlar. İllər keçdikcə onun haqında, Azərbaycan xalqı və dövləti qarşısında gördüyü işlər barədə hələ çox yazılacaq, tədqiqaqtlar aparılacaqdır.

Təqdim olunan bu vəsaitdə ulu öndərin gəncliyimizin təhsili, tərbiyəsi, vətəndaşlığı, vətənpərvərliyi ilə bağlı bu gün də aktual olan fikirləri pedaqoji baxımdan dəyərləndirilir.

Heydər Əliyev haqqında görkəmli şəxsiyyətlərin dedikləri ilə yanaşı, özünün düşüncələri, fəaliyyəti, dövlət,

dövlətçilik, xalq barədə söylədiyi fikirlər xüsusilə əhəmiyyətlidir:

"Mənim həyatımın mənası xalqa xidmət etməkdir." "Azərbaycan xalqını bütün varlığım qədər sevirəm." "Mən daim çalışacam və heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonraki hissəsini, harada olursa olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm." - kimi fikirləri bu baxımdan çox dəyərlidir.

Heydər Əliyev hələ sağlığında söylədiyi, arzu etdiyi bir çox işləri yerinə yetirdi. Azərbaycanı bir dövlət kimi məhv olmaqdan xilas etdi, müstəqillik təmin olundu, ölkədə sabitlik, əmin-amanlıq təmin olundu. Lakin arzu edilən və görüləsi işlərinin çoxu hələ qalmışdı. Onların yerinə yetirilmə proqramı Heydər Əliyev tərəfindən işlənmişdi. Təbii ki, hamısını yerinə yetirmək qeyri-mümkün idi. Bu işlərin həyata keçirilməsinə zaman lazım idi. Onları da - "Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim" - sözünü qürurla deyən Cənab Prezident İlham Əliyev yerinə yetirdi. 2020-ci ildə cəmi 44 gün davam edən və qələbəmizlə başa çatan Vətən müharibəsi, 2023-cü ildə 24 saatdan da az bir vaxtda həyata keçirilən antiterror əməliyyatı ilə Azərbaycanın ərazı bütövlüyünün tam təmin olunması bunun nəticəsi oldu.

**Asəf Zamanov**
*ADPU-nun Elm və innovasiyalar üzrə prorektoru, f.r.e.d., professor.*



***Ramiz Əliyev***
*Psixologiya elmləri doktoru,*
*Professor.*
*Əməkdar müəllim*

## MİLLİ İDEOLOGİYANIN FORMALAŞMASINDA VƏ TƏHSİLİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN ROLU

Siyasi liderlərin, dövlət xadimlərinin həyat yolu, fəaliyyəti ilk növbədə baş verən ictimai-tarixi, siyasi hadisələrdə, ölkənin, xalqın həyatında köklü dəyişikliyə səbəb ola biləcək proseslərdə iştirak etməsi, hadisələrin istiqamətini hansı səmtə yönəltməsi ilə ölçülür. İnsanı yalnız təbii istedadı deyil, ictimai, siyasi proseslərdə, cəmiyyət həyatında iştirakı, lazımi anda onun həlli yolunda gördüyü işlər siyasi liderə, tarixi şəxsiyyətə çevirir.

Görkəmli siyasi xadimlərin fəaliyyətindən bəhs edərkən minimum iki başlıca cəhəti önə çəkirlər: 1) onu digər siyasi xadimlərlə müqayisə edir, fərqli cəhətlərini qeyd edir; 2) xalq onu necə qəbul edir, onların şüuruna necə təsir göstərir. Başqa sözlə, siyasi liderin şəxsi keyfiyyətləri və fəaliyyəti başlıca meyar kimi götürülür.

Heydər Əliyevin şəxsi keyfiyyətləri və fəaliyyəti barədə görkəmli dövlət və siyasi xadimlərin söylədiklərini aşağıdakı kimi ümumiləşdirmək olar: çeviklik, manevr edə bilmək, düzlük, qətiyyətlilik, daim dövlətin və xalqın mənafeyini üstün tutmaq, sadəlik, hadisələrin inkişaf istiqamətini qabaqcadan görə bilmək, onu lazımi məcraya yönəltmək və s. Heydər Əliyevi xarakterizə edərkən ilk növbədə onun xalqla ünsiyyətə girə bilmək, lazımi məqamda məsuliyyəti öz üzərinə götürmək, böhran vəziyyətindən çıxmaq üçün çevik və düzgün qərar qəbul etmək, xalqa verdiyi sözə əməl etmək keyfiyyətlərinə diqqət yetirirlər. Bütün bu keyfiyyətləri ilə Heydər Əliyev hər

zaman xalqın inandığı, ümid etdiyi və arxasında durduğu siyasi lider, dövlət xadimi olmuşdur.

Xalqla onun öz dilində danışmağı, auditoriyanın əhval-ruhiyyəsini düzgün tutmağı, onların istəklərini, problemlərin həlli yollarını Heydər Əliyev kimi demək olar ki, heç kim bacarmırdı. Hətta ən ağır vaxtlarda belə Heydər Əliyevin çıxışları, müraciətləri xalqda qürur hissi yaradır, insanlara güc və qüvvət verirdi. O, kütlənin istədiyini, arzularını kütlənin özünə təlqin etməyi peşəkarcasına bacarırdı.

Heydər Əliyevin fəaliyyəti tarixi şəraitin tələblərindən irəli gələn, reallığa əsaslanan fəallıq idi. Reallığa, tarixi şəraitə uyğun olaraq verdiyi qərarlar prosesə yox, nəticəyə əsaslanırdı.

Hələ ötən əsrin 60-cı illərinin ortalarında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildən sədr vəzifəsində çalışdığı dövrlərdə milli şüurun da-şıyıcıları olan yaradıcı şəxsləri qorumaqla xalqın milli şüurunun oyanmasına onların təsir edəcəyinə inanırdı. Həmin şəxslər özləri də sonralar etiraf edirdilər ki, hansısa "gizli bir əl" onları qoruyurdu. Bu, iki baxımdan əhəmiyyətli idi: a)həmin insanlar həbs olunmur, sağ qalır, fəaliyyətlərini davam etdirir; b)onların milli şüurun oyanması ilə bağlı ideyaları cəmiyyət içərisində yayılırdı. Nəticədə onların sırası genişlənir, insanlarda özünəinam formalaşırdı.

1969-cu il iyul plenumunda Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçilir. Bundan sonra Heydər Əliyevin öz ideyalarını həyata keçirmək imka-nları genişlənir. Lakin o, bu ideyaları necə həyata keçirmək barədə ciddi düşünür, optimal yollar axtarır. Baş verə biləcək müqavimət-lərin neytrallaşdırılması, qarşı- sının alınması yollarını dəqiq müəyyənləşdirirdi. İlk baxışda onun gördüyü işlərin bəziləri sadə, asan, bəlkə də az əhəmiyyətli olması təəssüratı yaradırdı. Lakin illər, onilliklər keçdikdən sonra onların lazımlılığı, xalqın milli şüuruna təsir etdiyi məlum olurdu. Ümumiyyətlə,



Heydər Əliyevin bir siyasi xadim kimi irəli sürdüyü, həyata keçirdiyi ideyaları həmin vaxt nəinki sadə adamlar, hətta ona qarşı cıxa biləcək dövlət xadimləri də görə bilmirdilər. Heydər Əliyevin dərin məntiqi, siyasi iradəsi, şəxsi nüfuzu qarşısında onlar çox vaxt aciz qalırdılar.

1970-ci ildə N.Nərimanovun anadan olmasının 100 illiyi qeyd olunmalı idi. Heydər Əliyev bu yubileyin sadəcə keçiril-məsini yox, onun ciddi bir hadisəyə çevrilməsini istəyirdi. İki il müddətində görülən işlərin nəticəsində Bakıda N.Nərimanovun heykəli ucaldıldı. Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadəyə heykəl qoyuldu. Hüsen Cavidin nəşi uzaq Sibir çöllərindən doğma torpağına gətirildi. Bunlar sadəcə bu insanların ruhlarının şad olması naminə görülən işlər deyildi, bunlar xalqın milli şüurunun dirçəldilməsi üçün vasitə idi.

Atatürkün dediyi sözlər Heydər Əliyev şəxsiyyətinin böyüklüyünün dərk olunması baxımdan maraqlıdır: "Ən böyük şəxsiyyətlər özündən çox mənsub olduğu xalqı düşünən, onun xoşbəxtliyi yolunda lazım gəlsə həyatını verməyə hazır olan insanlardır".

Heydər Əliyevi fərqləndirən cəhətlərdən biri də ondan ibarət idi ki, vacib, mütərəqqi hesab etdiyi işləri həm də praktikada tətbiq etməyi bacarması idi.

Hələ MK-nın birinci katibi olduğu vaxtlarda uzaq-görənliklə bilirdi ki, respublikaya yüksək ixtisaslı həbiçi kadrlar lazımdır. Hər cür maneələrə, xüsusilə ermənilərin maneçiliyinə baxmayaraq bu ehtiyacı ödəmək üçün Bakıda Naxçıvanski adına Hərbi məktəb yaradıldı. Ulu öndərin bu uzaqgörənliyinin müsbət nəticəsi müstəqillik illərində xüsusilə özünü göstərdi.

Ötən əsrin 70-ci illərində Heydər Əliyevin hakimiyyətə gəlməsilə Azərbaycrbaycan Respublikasında, cəmiyyət həyatında bir silkələnmə, oyanma dövrü başladı. Həyat və fəaliyyətin bütün sahələrində, o cümlədən elm və təhsil sahəsində də bir canlanma, sürətli inkişaf mərhələsi başladı.

İqtisadiyyat, kənd təsərrüfatı, tikinti, sənaye və digər sahələrlə yanaşı bu elm və təhsildə də özünü gös-tərdi. Bunun isə bir sıra obyektiv və subyektiv səbəbləri vardı. İttifaq miqyasında cəmiyyət həyatında bir "yumşalma", insanların, təşkilatların müəyyən qədər sərbəst fikir bildirməsi başlanmışdı. Bununla yanaşı, ruslaşdırma siyasəti, rus dilinin dövlət dili kimi qəbul olunması müttəfiq respublikaları narahat edirdi. Məhz bu dövrdə Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin təşəbbüsü və sədrliyi ilə qəbul edilən "Azərbaycan Respublikasının Konstitusiyası"nda Azərbaycan dilinin Azərbaycan Respublikasının dövlət dili kimi qəbul olunması vaxtında, zəruri, son dərəcə faydalı bir addım idi. Bu, həm Azərbaycan dilinin statusunu yüksəldir, həm də insanların inamını artırır, əqidəsini möhkəmləndirirdi .

Sənaye sahələrinin genişləndirilməsi böyük şəhərlərin sayının artmasına imkan verirdi. Azərbaycan aqrar respublika olmaqdan sənaye respublikası olmağa keçirdi. Mədəniyyət, incəsənət sahəsində yeni-yeni uğurlar qazanılırdı. Artıq Azərbaycanı, onun lideri Heydər Əliyevi nəinki ittifaqda, hətta onun hüdudlarından kə- narda tanımağa başlayırdılar.

Əlbəttə bütün bu uğurlar, bu inkişaf yüksək ixtisaslı kadrların hazırlanmasını tələb edirdi. Yüksək ixtisaslı kadrların hazırlanmasını isə yalnız respublikanın ali məktəblərinin gücü ilə təmin etmək mümkün deyildi. Ən layiqli, hazırlıqlı gənclərin respublikadan kənarda təhsil almaları zərurəti yarandı. Növbəti belə zərurət respublikamız müstəqillik əldə edəndən sonra, Heydər Əliyevin ölkə Prezidenti olduğu dövrdə özünü göstərdi. 27 avqust 1997-ci ildə Ümummilli lider Heydər Əliyevin Azərbaycanın və xarici ölkələrin ali məktəblərinə qəbul olunmuş tələbələrin valideynləri və bir qrupu ilə görüşü zamanı dedikləri azərbaycanlıların xaricdə təhsil almalarının nə dərəcədə zəruri olduğunu bir daha göstərir: " Biz 1970-ci ildən başlayaraq Azərbaycandan gənclərin keçmiş Sovetlər İttifaqının ən böyük universitetlərinə, ali məktəblərinə



oxumağa göndərilməsinə nail olduq. Mənim xatirimdədir, 70-ci illərin sonunda ildə 800-900 nəfər və 80-ci illərin əvvəllərində ildə 1000-1400 nəfərə qədər gənclərimiz respublikamızdan kənardakı ali məktəblərə göndərilirdi. Bunun böyük əhəmiyyəti var idi. İndi biz bunun müsbət nəticələrini görürük".

Heydər Əliyev təhsil almağa gedən gənclərin qarşısında vacib bir məsələni də qoyurdu. Göstərirdi ki, onlar heç vaxt unutmamalıdırlar ki, Azərbaycan Respublikasını, Azərbaycan xalqını təmsil edirlər. Bunun üçün yaxşı oxumalı, bilik qazanmalı, nümunəvi davranmalıdırlar.

Milli ideologiya, vətəndaşlıq mövqeyi, milli dövlətçilik ideologiyası ilə bağlı Heydər Əliyev kursunu onun özü çox dəqiqliklə ifadə etmişdir.

Dövlətçilik hər bir şəxsin qəlbində olmalıdır. Hər bir vətəndaş gərək ölkəsi- nin böyük siyasəti haqqıda düşünsün, kiçik mənfəətləri, maraqları haqqında düşün- məsin.

Heydər Əliyev təkcə nəzəri fikirlər söyləmir, onu özünün şəxsi nümunəsində, fəailiyyətində sübut edirdi. O, 1987-ci ilin oktyabrında Sov.İKP MK-nın baş katibi Mixail Qorbaçovun və Siyasi Büronun yeritdiyi siyasi kursa etiraz əlaməti olaraq, tutduğu vəzifədən istefa vermişdir. 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı cinayətə qiymət vermək, onu dünya ictimaiyyətinə çatdırmaq üçün öz həyatını təhlükə qarşısında qoyaraq oğlu İlham Əliyevlə birlikdə Azərbaycanın Moskvadakı nümayəndəliyinə gələrək bəyanatla çıxış etmiş, cinayətin təşkilatçılarının və icraçılarının cəzalandırılmasını tələb etmişdir. Dağlıq Qarabağda yaranmış vəziyyətlə bağlı SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə etiraz əlaməti olaraq, 1991-ci ilin iyulunda Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk etmişdir. Hələ SSRİ-nin mövcud olduğu bir dövrdə belə bir addımın atılması kifayət qədər risqli bir addım idi və böyük cəsarət tələb edirdi. Azərbaycan Respublikasının Prezidenti seçiləndən bir neçə gün sonra televiziya ilə xalqa müraciət edən Heydər Əliyev deyirdi:"Biz

yeni dünya qururuq, hamımız əl-ələ verib suveren ölkəmizi inkişaf etdirməliyik. Bütün fikrimiz, əməlimiz, münasibətlərimiz bu vəzifəyə xidmətə yönəldilməlidir" Heydər Əliyev gənclərə tövsiyyə edirdi ki, milli və ümumbəşəri dəyərlərdən faydalansınlar, onlara ehtiramla yanaşsınlar. Göstərdi ki, insan xeyirə nə qədər çox yaxınlaşsa, şərdən o qədər uzaq olar.

"Heydər Əliyev Azərbaycan xalqına inanır, bütün tədbirlərdə ona arxalanırdı. İnsanlar ona inanır, insan örnəyi kimi qəbul edirdi. Əxlaq saflığının nümunəsi hesab olunurdu. O, insanlıq sərrafı kimi tanınmışdı" (3, s. 141).

Heydər Əliyev zəngin, dərin, xeyirli elmi-nəzəri irs yaratdı. Bir insan, bir siyasi xadim, bir dövlət başçısı kimi şərəfli ömür yaşadı. Hər bir insanın bəlli ömür yolu olur. Lakin elə insanlar olur ki, onların ömür tarixçəsi yaşadığı illərlə ölçülmür. Onların həyatları özlərindən sonra onilliklər, yüzilliklər boyunca yaşayır. Heydər Əliyev ideyaları, şəxsiyyəti bir ideal, bir nümunə kimi davam edir, yaşayır.

Vaxtilə Heydər Əliyev oğlu İlham Əliyev haqqında deyirdi: "Mən ona özüm qədər inanıram". Həyat sübut etdi ki, Heydər Əliyev həmişəki kimi yanılmayıb. İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti kimi Heydər Əliyev kursunu ləyaqətlə davam və inkişaf etdirir. Onun rəhbərliyi ilə Azərbaycan Respublikası yüksək sürətlə inkişaf edir, dünya dövlətləri, onların rəhbərləri tərəfindən qəbul edilir, onunla hesablaşırlar.

Heydər Əliyevi xoşbəxt ailə başçısı, xoşbəxt siyasi lider və dövlət başçısı hesab etmək olar. Oğlu - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev atasının siyasi kursunu uğurla davam etdirir. Vaxtilə Heydər Əliyevin arzuladıqları artıq reallıqdır. Heydər Əliyev xarici səfərlərində xəritə üzərində Azərbaycanı, onun ərazisi olan Dağlıq Qarabağı göstərir, Azərbaycanın haqq işini, haqq səsini çətinliklə onlara çatdıra bilirdisə, indi Azərbaycan söz sahibidir. Azərbaycan iki il müddətində BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü



kimi dünyanın problemlərinin həll olunmasında iştirak etmişdir.

Vaxtilə Heydər Əliyev Türkiyə və Azərbaycan münasibətlərindən bəhs edərkən "Bir millət, iki dövlət" söyləyirdi. İndi Türkiyənin iştirak edə bilmədiyi bir sıra tədbirlərdə Azərbaycan Respublikasının Prezidenti söyləyir: "Burada Türkiyə dövləti iştirak etmir, amma qarşınızda mən varam, Azərbaycan Respublikası var".

Doğrudan da qürur duyulmalıdır. Azərbaycan Avroviziyada qalib gələndə iştirakçılarımız iki bayraq - Türkiyənin və Azərbaycanın bayraqlarını dalğalandırırdılar.

İndi Avropa da, dünya da Azərbaycanı yaxşı tanıyır. İndi onlarla Beynəlxalq Forumlar Azərbaycanda keçirilir. Azərbaycan I Avropa Oyunlarına ev sahibliyi edir. Doğrudan da möhtəşəmdir, sevindiricidir.

Heydər Əliyevin fəaliyyətindən, xalq və dövlət qarşısında xidmətlərindən da- nışarkən Qarabağ münaqişəsindən, onun həlli yolunda gördüyü işlərdən danışmamaq mümkün deyil.

Hələ 90-cı illərdə dedyi sözlər, qələbəyə inamı,"qayıdacağıq, hökmən qayıdacağıq" söyləməsi bəlkədə inandırıcı görünmürdü. Cəzasızlıq, mənfur ermənilərin xeyrinə birtərəfli mövqe tutulması onları daha da azğınlaşdırırdı. Azərbaycan ərazilərini zəbt etmək istəyini gücləndirirdi. Azərbaycan xalqı sanki ikili hiss yaşayırdı:torpaq itkisi, torpaq həsrəti, ümidsizlik, eyni zamanda düşdüyü vəziyyətlə barışmamaq, vəziyyətdən çıxış yollarının axtarılması. Münbit şəraitin yaranmasını gözləmək lazım gəlirdi. Ermənilər o qədər həyazıslaşmışdılarki, lazım gəlsə Yevlağa gələrik. İstəsək tanklarımız Bakıya gələr söyləyirdilər. Tankları Bakıya gəlmədi, gətirildi. Ermənilər Yevlağa gəldilər, boynu bükük, yazıq sifətində. Burada Heydər Əliyevin Koçaryana dediyi sözlər yada düşür: "İndi gülürsən. Vaxt gələr, biz gülərik". İlham Əliyevin az qala zərb-məsələ dönən sözləri yerinə düşür :"Nooldu Paşinyan? Cəbrayıla yol çakirdin".

**Ədəbiyyat**
1. Heydər Əliyev və Azərbaycan. Bakı, 2008.
2. Qaralov Z.İ. Tərbiyə. Bakı, 2003.
3. Qaralov Z. İ. İdeologiya və mənəviyyat. Bakı, 2013.



**Müseyib İlyasov**
*pedaqogika elmləri doktoru,*
*professor. Əməkdar müəllim*

## ULU ÖNDƏR VƏ GƏNCLƏRİN MİLLİ-MƏNƏVİ TƏRBİYƏ MƏSƏLƏLƏRİ

*Azərbaycan xalqının gələcəyi,*
*müstəqil Azərbaycanın gələcəyi*
*gənclərin bu gün aldıqları bilik, təhsil və*
*tərbiyədən asılıdır.*

***Heydər Əliyev***

Təkcə çıxışları, bu gün əksəriyyəti aforizmə çevrilən sözləri ilə deyil, həm də bütün həyatı və fəaliyyəti ilə gələcəyin əsas kapitalı olan gənclik üçün bir örnək, nümunə olan şəxsiyyətlər arasında xalqımızın ümummilli lideri, böyük öndər Heydər Əliyevin xüsusi yeri vardır. Onun milli-mənəvi tərbiyə, milli ləyaqət hissi haqqında söylədiyi fikirlər, gənclərimizə verdiyi tövsiyyələr müasir Azərbaycan gənclərinin bir şəxsiyyət və vətəndaş kimi formalaşmalarında qiymətli xəzinə, dəyərli mənbələrdir.

Heydər Əliyev gənc nəslə, onların tərbiyəsinə, təhsilinə, özlərinin milli mənsubiyyətini yüksək tutmağa, ölkəmiz üçün layiqli varislər olmalarına həmişə böyük diqqət yetirmiş, onlara lazımi köməklik göstərmiş, bu sahədə özü şəxsi nümunə olmuş və gənclərə özünün müdrik tövsiyələrini, məsləhətlərini vermişdir. İstər müxtəlif illərdə tələbə olmuş gənclərlə görüşlərində, istər yeni dərs ilinin başlanması münasibətilə məktəblərdə keçirdiyi görüşlərdə, istər ali məktəblərdə olduğu vaxtlarda və istərsə də gənclər forumunda etdiyi məruzə və çıxışlarında gənclərin fəaliyyətlərini yüksək qiymətləndirmiş, Azərbaycan gəncliyinə həmişə nikbin nəzərlərlə baxmış,

bugünkü Azərbaycan gənclərinin gələcəkdə ölkəmizi idarəedənlər olacağını bildirmiş, onların gələcəyinə inanmı olduğunu ifadə etmiş və cəmiyyət qarşısında mühüm vəzifələr daşıdıqlarını da qeyd etmişdir. Böyük öndər 2 fevral 1996-cı ildə Azərbaycan gənclərinin Birinci forumunda etdiyi məruzəsində gənclərə xitabən demişdir: "Hər bir Azərbaycan gənci cəmiyyətdə, Vətəndə, ölkədə öz vəzifələrini layiqincə yerinə yetirməyə çalışmalıdır. ...Azərbaycanın müstəqil gələcəyini təmin etmək üçün vətəni sevməlidir, ölkəni sevməlidir, torpağı sevməlidir, xalqımızı sevməlidir, millətimizi sevməlidir, dilimizi sevməlidir, dinimizi sevməlidir, milli ənənələrimizi sevməlidir."

Heydər Əliyevin gənclərimizə verdiyi dəyərlər, onların qarşısına qoyduğu vəzifələr və etdiyi tövsiyələr həm dövlət müstəqilliyimizdən əvvəlki illərdə (1969-1990), həm də müstəqillik əldə edildikdən sonrakı illərdə (1991-2002) özünün mahiyyətinə görə milliliklə bəşəriliyi özündə birləşdirən bir xətt üzrə inkişaf edir. Bunlar ulu öndərin gənclərimizi təhsilli, mənəviyyatlı, ləyaqətli, vətənpərvər, yüksək amallar uğrunda mübariz və s. dəyərlərə yiyələnmiş əsl vətəndaşlar kimi görmək arzusundan qaynaqlanaraq Heydər Əliyev dühasının əsl təntənəsi kimi bu gün də dəyərlidir və yaşayır.

Ulu öndər gənclərin milli-mənəvi tərbiyə və milli ləyaqət hissinin çoxfunksiyalı və çoxistiqamətli konsepsiyasını vermişdir. Bu konsepsiyada milli-mənəvi tərbiyə, milli ləyaqət hissi heç də bir ifadə, bir məzmun və bir istiqamətlə məhdudlaşmır. Bu, bütöv və bütövləşmiş şəxsiyyətin mahiyyətini özündə əks etdirən və bir-biri ilə bağlı olan mənəviyyat kompleksini özündə birləşdirir. Milli mənəviyyat, milli ləyaqət məhz onların birliyi zəminində formalaşır və inkişaf edir. Sanki bir sap üzərində düzülən incilər kimi bu kompleksə daxil olan kommponentləri aşağıdakı kimi xarakterizə etmək olar.



### *Mükəmməl təhsilli olmaq, dərin biliyə yiyələnmək*

H.Əliyev gənclərin təhsil almasına, eyni zamanda yaxşı təhsil almasına həmişə yüksək qiymət verməklə yanaşı, həm də buna böyük qayğı və diqqətlə yanaşmışdır. Təhsili millətin gələcəyi hesab etməklə Vətənin gələcəyinin gənclərimizin yaxşı təhsil almasından bilavasitə asılı olduğunu qeyd edən böyük öndər hələ müstəqilliyimizdən çox-cox əvvəllər (27 avqust 1977-ci il, Tələbələrin respublika fəalları ilə görüşü) deyirdi: "Tələbələrin vəzifəsi yeniliklə ayaqlaşmaqdan, arası kəsilməyən artan informasiya axınından bacarıqla baş çıxarmaqdan, elmə dərindən, səylə, yaradıcılıqla yiyələnməkdən ibarətdir." Bu fikirlərin H.Əliyev tərəfindən sonrakı illərdə də tələbə gənclərlə görüşlərində davamlı şəkildə inkişaf etdirilyini görürük. O, 26 avqust 1980-ci ildə birinci kurs tələbələrinin respublika fəalları ilə görüşündəki nitqində tələbələr qarşısında böyük bir proqram vəzifələri ilə çıxış etmişdir. Bu nitqində "Biliyi hafizənin gücünə deyil, əsasən, təfəkkür gücünə əldə etməyə çalışın, onda qazanılmış bilik əqidəyə çevrilir" - deməklə ulu öndər öyrənmə prosesinin mahiyyətinə mahir bir psixoloq kimi yanaşır və alınan biliklərin nəticəyönümlü olmasına isə müdrik bir filosof və pedaqoq kimi nüfuz edir. O, bununla öyrənmə prosesində bir tərəfdən hafizədən təfəkkürə keçidin nə qədər önəmli olmasını, biliyin dərindən dərk olunmasında təfəkkür proseslərinin mühüm rol oynamasını qeyd edir, digər tərəfdən isə biliyin insanların əqidəsinə çevrilməsində başlıca vasitə olduğunu qeyd edir. Alınan biliklərin təkcə məlumat almaq, biliyə yiyələnmək xatirinə deyil, eyni zamanda insanlarda inam və əqidənin yaranmasına səbəb olan amil olmasına vurğu edir.

Tələbəlik illərində alınan biliyi professional fəaliyyətin bünövrəsi hesab edən böyük öndər gələcəkdə cəmiyyətin inkişafı üçün daha səriştəli, daha bilikli və daha məlumatlı kadrlara tələbatın olacağını qeyd edərək göstərirdi ki, kamil

mütəxəssislər kimi yetişmək, təhsili başa vurduqdan sonra fəal surətdə əməli fəaliyyətə qoşulmaq, cəmiyyətə, xalqa böyük fayda vermək üçün hələ tələbəlik illərindən buna hazırlaşmaq, bu illərin imkanlarından maksimum səviyyədə istifadə etmək lazımdır. Tələbəlik illərində bilik ehtiyatı toplanmalı, dərin və möhkəm bilik uğrunda mübarizə aparılmalıdır. Təhsildə, elmdə qələbə çalmaq üçün yorulmadan hər gün nə isə yeni bir şey öyrənməyə can atmaq lazımdır.

Heydər Əliyev müstəqilliyimizin ilk illərində respublikamızın bu günü və gələcəyi üçün yüksək təhsili və mədəniyyətə malik, dövrün tələblərinə cavab verə bilən mütəxəssislər hazırlanmasını xalqımızın qarşısında duran günün vacib vəzifələrdən biri hesab edirdi. Türkiyəyə təhsil almağa gedən tələbələr qarşısında çıxışında (5 oktyabr 1992-ci il, Naxçıvan və 7 fevral 1994-cü il, Bakı) bu tələbələrin Azərbaycanın gələcəyi üçün göndərildiyini, bununla bərabər, onlara Azərbaycan xalqına xas olan mədəniyyət və mənəviyyat nümunəsi göstərmələrini də tövsiyə edirdi. O, qeyd edirdi ki, Azərbaycanın dövlətini, dövlət siyasətini, iqtisadiyyatını və mədəniyyətini yalnız həqiqi ali təhsil, həqiqi bilik almış şəxslər inkişaf etdirə bilərlər.

### *Fəal həyat mövqeyinə malik olmaq*

Gənclərimizin fəal həyat mövqeyinə malik olması demək olar ki, Heydər Əliyevin gənclərə bütün tövsiyələrinin nəticəsi, məsləhət və göstərişlərinin yekun müddəası kimi özünü göstərir. Yaxşı təhsil almaq və ölkənin həyatında fəal surətdə çıxış edə bilmək, üzərinə düşən məsuliyyəti axıra qədər dərk etmək, iradə zənginliyinə, mənəvi düşüncəyə sahib olmaq, qətiyyətli hərəkət etmək, ümumbəşəri mənəvi sərvətlərlə özünün daxili aləmini zənginləşdirmək və s. Bütün bunlar H.Əliyevin gənclərin fəal həyat mövqeyinə malik ola bilmələri üçün onların yiyələnməli olduqları keyfiyyətləri özündə



təcəssüm etdirən fəaliyyətin məzmumunu təşkil edir. Hələ 1979-cu ildə Bakıda keçirilən Ümumittifaq elmi-praktik konfransda etdiyi məşhur məruzəsində H.Əliyev bu problemə böyük önəm verərək, bunun üçün insanların mənəvi-əxlaqi, əmək-estetik, vətənpərvərlik-beynəlmiləlçilik, ideya-siyasi və s. tərbiyəsinə malik olmağı yüksək qiymətləndirmişdir. 28 avqust 1982-ci ildə tələbə gənclərlə ənənəvi görüşündə H.Əliyev gənclərə həyatın çətinliklərinə qarşı mübarizə aparmaq və cəmiyyətin faydalı üzvü olmaq üçün pak olmağı, əsl həyat qanunlarını öyrənməyi, əməkdə fədakar olmağı, yaradıcılıq axtarışları aparmağı, öz üzərlərində çox işləməyi məsləhət görürdü. Başqa çıxışlarında olduğu kimi, burada da gənclərin bu məsələləri yerinə yetirəcəklərinə inamını ifadə edərək onların öz mənəvi aləmlərini zənginləşdirmələrinə və cəmiyyətin fəal üzvləri olacaqlarına əmin olduğunu qeyd edirdi.

### *Mənəvi cəhətdən saf olmaq*

"İnsan cəmiyyətində ən yüksək yerdə mənəviyyat durur"- deyən böyük öndər mənəvi tərbiyəni şəxsiyyətin formalaşmasında əsas amil hesab etmiş, ona yiyələnməyin vacibliyini qeyd etmişdir. Mənəvi tərbiyəni təməl mədəniyyəti kimi şəxsiyyətin kimliyini, necəliyini müəyyənləşdirən başlıca meyar kimi dəyərləndirmişdir. "Mənəvi tərbiyəni daim artırmaq lazımdır və gənclərimizi yüksək mənəviyyat ruhunda tərbiyələndirmək lazımdır"- tövsiyəsini verən böyük öndər mənəviyyat olmayan yerdə heç bir şey ola bilməz – deməklə mənəviyyatın insanlığın malik olduğu bütün keyfiyyətlərin fövqündə dayandığını qeyd etmişdir. "Nə qədər böyük alim olursansa ol, nə qədər böyük mütəxəssis olursansa ol, nə qədər böyük dövlət xadimi olursansa ol, əgər mənəviyyatca şikəstsənsə, sənin heç bir qiymətin yoxdur" – Azərbaycan Tibb Universitetinin 70 illik yubileyində (19 iyun 2020-ci il) etdiyi çıxışda Heydər Əliyev dediyi bu sözlərlə mənəviyyatın insanlar

üçün ən yüksək, ali dəyər olduğunu, insanı və insanlığı yüksəltdiyini qeyd edir. Bunlarla yanaşı, böyük öndər mənəviyyatı qorumağın da vacib olduğunu diqqətə çatdırır.

Heydər Əliyev gənclərin mənəvi tərbiyə probleminə olduqca həssas mövqedən yanaşır və demək olar ki, onun bütün tərəflərinə toxunur. Mənəvi borc kimi anlayışın gənclərimizin şüurunda formalaşmasına mühüm qiymət verməklə yanaşı, gənclərdə yaşlılara hörmət etməyi, cəmiyyətdə nümunəvi davranışa malik olmağı, həssaslıq nümayiş etdirməyi, laqeydliyə və mənəvi yoxsulluğa qarşı mübariz olmağı zəruri hesab edir.

Bütün həyatı və fəaliyyəti dövründə müəllimə, onun şəxsiyyətinə böyük qiymət verən, "Şəxsən mən müəllimdən yüksək ad tanımıram" deyən ümummilli lider, bununla yanaşı, təhsilalanların mənəvi-əxlaqi simasının formalaşdırılmasında müəllim şəxsiyyətinin çox qüdrətli amil olduğunu da qeyd etmişdir. Onun böyük mütəfəkkirlərin və klassik pedaqoqların fikirləri ilə səsləşən "Müəllimin mənəvi-əxlaqi siması, ideya inamı, baxışlarının sabitliyi, hərəkətlərinin ardıcıllığı, maraq dairəsinin genişliyi, səmimiliyi və vicdanlılığı məktəbdə qüdrətli tərbiyəvi amildir" – fikri müəllimlərin qarşısında çox mühüm vəzifələr olduğunu ifadə etməklə yanaşı, müəllim şəxsiyyətinin bir çox meyarlarını da özündə əks etdirir.

Böyük öndər bu keyfiyyətlərin ali məktəb müəllimlərində olmasını da zəruri sayır və göstərirdi ki, əgər tələbə öz müəllimlərinin, professorunun dərin bilikli, çalışqan, mənəvi cəhətdən saf, yüksək vətəndaşlıq məsuliyyəti olan bir insan olduğunu görürsə bu, onun tərbiyəsinə də güclü təsir göstərəcəkdir, tələbə bu keyfiyyətlərin təsiri altında tərbiyələnəcəkdir. Ali məktəb müəllimləri tələbələr üçün, gənclər üçün müsbət nümunə olmalıdırlar.



### *Vətəni sevmək, vətənpərvər olmaq*

Heydər Əliyev alovlu vətənpərvər və Vətənimizə, xalqımıza bağlı şəxsiyyət idi. O, gənclərimizə də vətənpərvər olmağı, Vətəni sevməyi mənəvi tərbiyənin əsas atributlarından biri kimi yüksək qiymətləndirir, gənclərimizin bu hisslərə yiyələnməsini vacib hesab edirdi. Hələ 1978-ci ildə Azərbaycan müəllimlərinin VI qurultayında etdiyi nitqində "Hər bir gənc vətəndaş öz ölkəsinin alovlu vətənpərvəri olmalıdır" - deyən Heydər Əliyev gənclərlə görüşlərindəki bütün çıxışlarında bu tövsiyəni, bu tapşırığı demək olar ki, həmişə bu və ya digər formalarda təkrar etmişdir. Vətənpərvərliyi ali dəyər kimi qiymətləndirmiş və özü böyük vətənpərvər, böyük vətəndaş olduğu kimi, gənclərimizin də bu keyfiyyətlərə malik olmasını zəruri hesab etmişdir.

Ulu öndər vətənpərvərlik anlayışına olduqca geniş prizmadan yanaşır. Vətənin, ölkənin siyasi, iqtisadi, mədəniyyəti qayğısı ilə yaşamağı, onu qorumağı, dilini bilməyi vətənpərvərliyin simvolları kimi qeyd edir. "İnsan gərək həyatının hər dövründə, fəaliyyətinin bütün sahələrində öz Vətəninin, ölkəsinin qayğısı ilə yaşasın, həm onun iqtisadiyyatının, həm siyasətinin, həm də mədəniyyətinin qayğısı ilə yaşasın. Bunlar hamısı vətənpərvərlikdən doğan bir şeydir. Vətəni qorumaq, torpaqlarımızı müdafiə etmək üçün hər bir gəncin hazır olmasını tərbiyə etmək lazımdır"- deyir.

Milli vətənpərvərliklə xalqımızın tarixinin sıx bağlı olduğunu nəzərə çarpdıran ümumilli lider keçmiş tariximizi düzgün qiymətləndirməyi və bunu gənclərin vətənpərvərlik hissinin artırılmasında mühüm amil hesab edir. Bununla yanaşı, İslam dininin mənəvi dəyərlərindən düzgün istifadə etməyi və bu dəyərlərin mənimsənilməsinin vacibliyini də qeyd edir.

Heydər Əliyev təhsillə bağlı bütün çıxışlarında bu gün təhsilimizin qarşısında duran əsas istiqamətlərdən və

vəzifələrdən biri olan təhsilin tərbiyəvi istiqamət daşımasına və şəxsiyyətyönümlü olmasına xüsusi diqqət yetirilməsini vacib hesab edir və bunun məktəblərin, müəllimlərin başlıca vəzifələrindən biri kimi həyata keçirilməsininin zəruri olduğunu bildirir. "Xalqımızı, millətimizi, gənclərimizi vətənpərvərlik hissi ilə tərbiyə etmək təhsilin əsas istiqaməti, hissəsi, məktəblərimizin müəllimlərimizin borcudur"- deyir və bu istiqamətdə bütün təhsil müəssisələrində vətənpərvərliklə bağlı işlərin müntəzəm surətdə aparılmasının vacibliyini bir daha diqqətə çatdırır. Torpaqlarımızın işğaldan azad edilməsi və qorunması üçün gəclərdə vətənpərvərlik hisslərinin formalaşdırılmasının mühüm amil olduğunu vurğulamaqla məktəblərdə vətənpərvərlik tərbiyəsi üzrə işlərin gücləndirilməsinə böyük önəm verir.

### *Azərbaycançılıq məfkurəsinə yiyələnmək.*

Böyük öndərin təkcə Azərbaycan leksikonuna deyil, Azərbaycan məfkurəsinə gətirdiyi "Azərbaycançılıq" ideyası bütöv Azərbaycan, xalqımızı birləşdirən mənəvi bağlılıq simvolu kimi böyük fəlsəfi, tarixi, siyasi, sosial və mənəvi mahiyyət daşıyır. Bu ideya xalqımızın, o cümlədən gənclərimizin təkcə tariximizi bilmək baxımından deyil, onlar üçün həmçinin gələcək yol xəritəsi kimi böyük tarixi əhəmiyyətə malikdir. "Azərbaycan torpağında ən qədim zamanlardan indiyə qədər müstəqil dövlətlər olmuşdur. Biz bununla fəxr edirik və fəxr edə bilərik. Azərbaycançılıq hissiyyatını gənclərdə yaşatmaq lazımdır. Azərbaycanı sevmək, azərbaycançılıq hissiyyatını özündə cəm etmək deməkdir" – deməklə H.Əliyev həm də bu məfkurənin mahiyyətində müstəqilliyimizin dayandığını və Azərbaycana sevginin olduğunu qeyd edir.



### *Tariximizi bilmək və onunla fəxr etmək*

Heydər Əliyev bütün gənclərimizin tariximizi, keçmişimizi və tarixi köklərimizi öyrənmələrinə və yaxşı bilmələrinə, çox böyük önəm verirdi. Mənəviyyatın əsas kökləri, rişələri məhz tarixi keçmişimizdən qaynaqlandığından və bunları dərindən bilməklə sıx bağlı olduğundan o, bunu həm də gənclərimizin bugünki və gələcək mənəviyyatı ilə bağlayırdı. Böyük öndər deyirdi: "Tariximizi, tarixi köklərimizi yaxşı bilmədən, onlara hörmət etmədən müstəqil dövlətimizi gələcəkdə yaxşı qura bilmərik. Ona görə də gənclər gərək öz köklərini, respublikamızın, xalqımızın tarixini bilərək bu gün də, gələcəkdə də vətənpərvərlik, Vətənə xidmət, Vətənə qayğı hissi ilə yaşasınlar."

Bizim xalqımızın zəngin tarixi olduğunu dönə-dönə vurğulayan ulu öndər bu tarixi, xalqımıza məxsus mədəniyyəti, mənəviyyatı, milli dəyərləri gənc nəslə çatdırmağı və onları bu ruhda tərbiyə etməyi müəllimlərin, məktəbin müqəddəs borcu hesab edir və müəllimlərin bunu həyata keçirmələrinin vacib olduğunu qeyd edirdi.

Ulu öndər ta qədimdən bu günə qədər olan tariximizi, ədəbiyyatımızı gənclərin vətənpərvərlik, vətəndaşlıq, milli mənsubiyyəti ilə fəxr edə bilmək hissləri ilə sıx bağlı olduğunu göstərir, bunların bir-biri ilə qarşılıqlı əlaqədə, vəhdətdə olduğunu qeyd edir. O, hər bir Azərbaycan gəncinə tariximizi və Azərbaycan ədəbiyyatını yaxşı bilməyi tövsiyə edir və qeyd edir ki, tariximizi, tarixi keçmişimizi dərindən öyrənmədən vətənpərvər olmaq mümkün deyildir. Gənclər əgər xalqımızın, millətimizin tarixini qədim zamanlardan bu günə kimi yaxşı bilməsələr milli mənsubiyyətləri ilə fəxr edə bilməzlər. Bununla yanaşı, gənclər ədəbiyyatımızı da yaxşı öyrənməlidirlər. Azərbaycan ədəbiyyatı həm də bizim tariximiz, mənəviyyatımız və milli mənliyimizdir. Böyük öndər bununla tariximizi, ədəbiyyatımızı təkcə bir fənn kimi deyil, millə-

timizi, xalqımızı dərindən dərk etmək və onunla fəxr etmək üçün öyrənməyin vacibliyini önə çəkir.

### *Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilmək və ona yiyələnmək*

Heydər Əliyev gənclərə ümumbəşəri dəyərlərə malik olmağı tövsiyə etməklə yanaşı, onlar tərəfindən milliliyin qorunmasını, milli adət-ənənələrə yiyələnməyi vacib bilir, bunların itməsini, adət-ənənələrin yaddan çıxarılmasını millət üçün böyük təhlükə hesab edirdi. O, 27 avqust 1997-ci ildə ali məktəblərə qəbul edilən gənclərlə görüşündə bu barədə demişdir: "Respublikamızın, xalqımızın milli xüsusiyyətlərini, milli ənənələrini və milliliyini heç vaxt unutmaq lazım deyil və bunu heç bir şeylə dəyişmək olmaz. ...xalqımızın tarixini, adət-ənənələrini, xalqımıza məxsus milliliyi həmişə yaşatmalıyıq və onları hər yerdə təbliğ etməliyik." Bunları özünün bütün görüşlərində həyata keçirən ulu öndər gənc nəslin milli ruhda böyüməsinə mühüm diqqət verilməsini vacib hesab edirdi. Ümumbəşəri dəyərlərlə yanaşı, milli dəyərləri yüksək qiymətləndirirdi. Milli tərbiyəni gənc nəslin vətənpərvərlik və vətəndaşlıq tərbiyəsində mühüm yer tutduğunu və onun formalaşmasında əsas amil hesab edirdi. Böyük vətəndaşlıq məfkurəsi ilə bu məsələyə həssaslıqla və inamla yanaşan H.Əliyev qeyd edirdi ki, "Ümumbəşəri dəyərlər, Azərbaycan xalqının milli mənəvi dəyərləri hər bir gənc tərəfindən mənimsənilməlidir. Gənclərimiz milli ruhda tərbiyə olunmalıdırlar, bizim milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidirlər. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, keçmişimizi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvərlər ola bilməz." Azərbaycan respublikası gənclərinin Birinci forumunda böyük öndərin dediyi bu sözlər



həm də Azərbaycan gəncliyinin qarşısında qoyulan bir proqram yol xəritəsi idi.

Heydər Əliyev təlim-tərbiyə prosesində milli dəyərlərin aşılanmasına çox böyük önəm verir, gənclərin bu ruhda tərbiyə olunmasını vacib sayır. Eyni zamanda, milli dəyərlərimizin qorunması, ona riayət edilməsi işinə həm də gəncliyin düzgün tərbiyə olunması, onların sağlamlığının qorunması və mənəvi cəhətdən düzgün formalaşması vasitəsi kimi baxır. Böyük öndər 31 avqust 1994-cü ildə Bakı şəhərinin təhsil işçiləri ilə görüşündə bu nünasibətlə demişdir: "Gənclərin tərbiyəsində milli, dini adət və ənənələrimizdən istifadə etmək lazımdır. Əsrlərin dərinliyindən bu günə qədər gəlib çatan adət-ənənələrimiz həmişə adamları saflığa, təmizliyə dəvət etmişdir. Milli və dini adət-ənənələrimiz məhz bu prinsipə əsaslanır. Bu gün biz də gəncləri paklıq, saflıq, yüksək əxlaq, yüksək mənəviyyat ruhunda tərbiyə etməliyik. Bununla biz nəinki cəmiyyətimizi qoruyacağıq, həm də gələcək nəsli sağlam saxlayacaq və həmin nəsildə cəmiyyətimiz, xalqımız üçün zərərli halların kök salmasının qarşısını alacağıq."

### *Milli mənsubiyyəti ilə fəxr edə bilmək*

Bu, böyük amaldır və hər kəsə nəsib olmayan, hər kəsin dilinə gətirilə bilməyən daxili mənəvi hisslərdir. Bunu yalnız xalqını ürəkdən sevən, bütün varlığı ilə Vətəninə, tarixinə, millətinə bağlı olan insanlar öz fəaliyyətləri və hərəkətləri ilə sübut edə bilərlər. Heydər Əliyev məhz belə şəxsiyyət idi. Onun artıq aforizmə çevrilən -"Hər bir adamın milli mənsubiiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" – ifadəsi Heydər Əliyev tərəfindən gənclərimizə belə bir fəxarət hissini özlərində tərbiyə etmələri və bunu fəaliyyətləri ilə sübut edə bilmələri üçün sanki bir çağırış və nümunədir. Bu ifadəni

bu gün fəxrlə hər yerdə deyə bildiyimiz üçün onu bizlərə yaşadanlara "Əbədi eşq olsun!"- deyirik.

Heydər Əliyev xarici ölkələrdə müstəqil dövlətimizin rəmzləri olan Azərbaycan bayrağını görəndə, bu bayraq altında Azərbaycan himni çalınarkən sevindiyini, yüksək əhval-ruhiyyədə olduğunu, bundan çox böyük qürur hissi keçirdiyini, iftixar hissi duyduğunu qeyd edir və onları sevməyi, təhsil müəssisələrində, ictimai yerlərdə, hətta hər bir ailədə onların təbliğ olunmasını, uşaqlara sevdirilməsini zəruri sayır. "Biz öz himnimizi, bayrağımızı özümüz qədər sevməliyik. Çünki bu, bizim vətənimizə, millətimizə, dövlətimizə olan sədaqət, sevgi və məhəbbətin rəmzidir"- deyən ulu öndər hər bir vətəndaşın, tələbənin də, müəllimin də, professorun da, alimin də, nazirin də, prezidentin də himnimizi yaxşı bilməsini, onu yaxşı ifa etməyi bacarmasını və onu sevməsini zəruri sayırdı. Qürurverici haldır ki, bu gün orta məktəblərimizin əksəriyyətində şagirdlər səhər-səhər Azərbaycan himninin sədaları ilə qəbul olunur, sinif otaqlarına daxil olurlar. Bütün məktəblilər, tələbələr, təhsil işçiləri himnimizi əzbər bilir və təntənəli toplanışlarda onu sevərək ifa edirlər. Bu, böyük öndərin neçə illər öncə arzusunda olduğu və tövsiyə etdiyi mühüm məsələdir ki, artıq on illərdir ki, öz reallığını tapmışdır.

### *Vətəndaşlıq keyfiyyətinə malik olmaq*

H.Əliyev Vətənin çiçəklənməsi, onun inkişaf etməsi və dünya dövlətləri içərisində layiqli yer tutması üçün hər bir azərbaycanlının yüksək vətəndaşlıq keyfiyyətlərinə malik olmalarını zəruri hesab edirdi. Ulu öndər gənclərlə hər görüşündə onlara inandığını qeyd etməklə bərabər, onların həmçinin hərtərəfli hazırlıqlı, dəyərli və layiqli bir vətəndaş olmalarını, harada olmalarından asılı olmayaraq Azərbaycanı ləyaqətlə təmsil etmələrini, ölkəmizə, millətimizə, xalqımıza sədaqətlə xidmət etmələrini tövsiyə edirdi. 31 avqust 1999-cu



ildə Respublika təhsil işçiləri və ali məktəblərə daxil olmuş tələbələrlə görüşündə Heydər Əliyev deyirdi: "İndi bizim təhsilimizin məqsədi gənc nəslə, uşaqlara təhsil verib onları gələcəyə hazırlamaqdır. Amma bununla yanaşı, ən böyük məqsədi Azərbaycan vətəndaşı hazırlamaqdır. Hər bir insan gərək eyni zamanda vətəndaş olsun. Mütləq vətəndaş olsun! Sadəcə ona görə yox ki, Azərbaycan vətəndaşıdır. Gərək dövlətinə sadiq, millətinə sadiq, ənənələrinə sadiq, xalqına sadiq vətəndaş olsun."

Heydər Əliyev vətəndaşlıq keyfiyyətinin formalaşmasında təhsilin rolunu yüksək qiymətləndirir. O, çıxışlarında eyni zamanda vətəndaş təhsili, vətəndaş tərbiyəsi məsələsinə toxunaraq onu yüksək dəyərləndirir və məktəbin, müəllimlərin əsas vəzifəsinin cəmiyyətimizə, xalqımıza, ölkəmizə dəyərli, bilikli, tərbiyəli, vətənpərvər vətəndaşların hazırlanması olduğunu, təhsil sistemində buna çox ciddi fikir verilməsini zəruri sayır.

Ulu öndər xarici ölkələrdə təhsil almağa gedən tələbələri Azərbaycanın səlahiyyətli nümayəndələri adlandırır və onlara Azərbaycan həqiqətlərini xarici ölkə vətəndaşlarına dönə-dönə çatdırmağı, bu istiqamətdə yorulmadan fəaliyyət göstərməyi tapşırırdı. Bunlar təkcə tövsiyyələr deyil, həmçinin Azərbaycan gənclərinin gedəcəkləri ölkələrdə özlərini bir sivil Azərbaycan vətəndaşı kimi ləyaqətlə təmsil etmələrinə dair onların qarşısına qoyulan vəzifələr idi.

### *Azərbaycan dilini sevmək və ona mükəmməl yiyələnmək*

Dil xalqın varlığı, onu birləşdirən dəyər və kimliyini təsdiq edən əsas vasitələrdəndir. "Ananın südü bədənin mayası olduğu kimi, ana dili də ruhun qidasıdır"(F.Köçərli); "Dilini sevməyənin ürəyində millətpərvərlik duyğusu aramaq istiotdan bal dadı gözləməyə oxşar. Öz dili, öz ədəbiyyatı olmayan millət öz varlığından utanmalıdır" (Ö.F.Nemabnzadə); "Dil

xalqın namusu, tarixi, vicdanıdır. Dil xalqın böyük bir sərvəti və dövlətidir" (S.Vurğun). Görkəmli Azərbaycan ziyalılarının doğma dilimiz haqqında dedikləri bu dəyərli sözlər və ölməz kəlamlar ulu öndərimiz Heydər Əliyev tərəfindən həm tövsiyyə xarakteri, həm də özünün məna tutumu ilə daha da zənginləşir. Ümummilli lider Azərbaycan dilini xalqımızın və millətimizin ən böyük, ən əziz sərvəti milli sərvəti adlandırır, hamınız öz doğma dilini mükəmməl bilməsini və onu sevməyi zəruri hesab edir. Eyni zamanda, gənclərə başqa dilləri öyrənərkən öz ana dilini heç vaxt unutmamağı, bu dili başqa heç bir dilə dəyişməməyi özünün müdrikliyi və uzaqgörənliyi ilə bir daha tövsiyə edir. "Gənclərimiz nə qədər çox dil bilsələr, bir o qədər zəngin dünyagörüşə malik olacaqlar. Bu, müasir dünyanın tələbidir. Amma ən yaxşısı ondan ibarətdir ki, hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı öz ana dilini - Azərbaycan dilini, dövlət dilini mükəmməl bilməlidir" - deyir.

Ana dilini bilməməyi, bu dili qiymətləndirməməyi xalq qarşısında qəbahət hesab edən ulu öndərin özünün ana dilimizi bütün zənginliyi ilə bilməsini, nəsillərə nümunə ola biləcək şəkildə qrammatik, leksik və üslubiyyət cəhətdən səlist şəkildə danışmasını qeyd etməmək də qəbahət olardı.

Heydər Əliyev öz çıxışlarında ana dili haqqında danışarkən onu haqlı olaraq tariximizlə bağlayır və onunla sıx əlaqələndirir. Göstərir ki, ana dilini sevməyən adam öz tarixini, ədəbiyyatını yaxşı bilə bilməyəcəkdir. Mədəniyyətimizi, milli-mədəni ənənələrimizi bilməyəcəkdir, vətənpərvər olmayacaq və onda milli vətənpərvərlik duyğuları, hissiyyatı olmayacaqdır. Dilini unudan adam, şübhəsiz ki, milli keyfiyyətlərini də yavaş-yavaş unudacaqdır. Böyük öndər bunu yolverilməz hesab edirdi.



### *Dövlət müstəqilliyinin qorunub saxlanılması və inkişaf etdirilməsi*

Müstəqilliyimizin qorunub saxlanılması onun əldə edilməsindən daha çətin və daha vacibdir - deyən Ulu öndərimiz demək olar ki, bütün çıxışlarında, görüşlərində, nitqlərində Azərbaycanın müstəqilliyini müqəddəs bir əmanət kimi qoruyub saxlamağı xalqımızın, o cümlədən müasir gəncliyimizin şərəfli borcu və vəzifəsi olduğunu tövsiyə edirdi. Azərbaycan gənclərinin Birinci forumunda etdiyi dərin məzmunlu çıxışında - "Hər bir azərbaycanlı gəncin şərəfli borcu Azərbaycan Respublikasının dövlət müstəqilliyini qoruyub saxlamaqdan, inkişaf etdirməkdən ibarətdir. Bu, bizim çoxəsirlik tariximizdə böyük, şərəfli və tarixi nailiyyətdir." - deyən ulu öndər müstəqilliyimizin hər bir Azərbaycan gənci tərəfindən özünün həyat yolu, müstəqil Azərbaycan Respublikasının gələcək yolu kimi qəbul etməsini zəruri hesab edirdi. Qeyd edirdi ki, hər bir Azərbaycan gənci həyatı-fəaliyyətlə məşğul olarkən hər şeydən çox müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməli, özünü müstəqil Azərbaycanın inkişafına, müstəqil Azərbaycan Respublikasının yaşamasına və əbədi olmasına həsr etməlidir. Ümummilli lider bu tapşırığı ilə Azərbaycan gənclərinin bu sahədə böyük işlər görməli olduğunu qeyd edirdi.

Heydər Əliyev müstəqilliyimizin böyük tarixi, hüquqi, siyasi, iqtisadi, mənəvi əhəmiyyətə malik olduğunu diqqətə çatdırmaqla onun hər bir Azərbaycan vətəndaşının mənəviyyatı olması, iradəsi və fikrinə çevrilməsini zəruri hesab edirdi. Bu gün fəxrlə deyə bilərik ki, ümummilli lider Heydər Əliyevin bu müqəddəs tapşırığı xalqımızın böyük oğlu, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müdrik daxili və xarici siyasəti sayəsində Azərbaycan xalqı və gənclərimiz tərəfindən ləyaqətlə yerinə yetirilir.

Ulu öndər müstəqilliyimizin qorunub saxlanılması üçün Vətənimizin ərazi bütövlüyünün təmin edilməsini və onu qorumağı əsas vəzifələrdən biri hesab edirdi. Heydər Əliyevin bu tapşırığı görkəmli sərkərdə, cənab İlham Əliyevin başçılığı ilə on minlərlə vətənpərvər oğullarımız, üç mindən artıq şəhidimiz, minlərlə qazilərimiz tərəfindən şərəflə yerinə yetirildi. Onlar öz cəsarətləri, Vətən sevgisi, qanları və canları ilə 44 günlük Vətən müharibəsində torpaqlarımızı erməni barabarlarının işğalından azad edərək müstəqilliyimizin yeni bir mərhələsinin zəfər təməlini qoydular. Bu gün Azərbaycan müstəqil dövlət kimi artıq dünya dövlətləri içərisində öz layiqli yerini tutaraq böyük bir inkişaf yolu ilə inamla irəliləyir.

Gənclərə verdiyi tövsiyə və tapşırıqlarla yanaşı, böyük öndər onlara diqqət və qayğının göstərilməsini, problemlərinin həll olunmasına çalışmağı da dövlət və hakimiyyət orqanlarının qarşısına bir vəzifə olaraq qoyurdu. "Hər bir vətəndaş çalışmalıdır ki, bizim gənc nəslimiz yaxşı tərbiyə alsın, yaxşı təhsil alsın, müasir səviyyəyə çatsın" – deyərək bu amillərin onların bir şəxsiyyət və bir vətəndaş kimi formalaşmalarında əsas baza olduğunu və bunların gələcək cəmiyyətin inkişafı üçün böyük rol oynadığını xüsusi olaraq qeyd edirdi.

Böyük öndər Heydər Əliyev gənclərimizə tövsiyə etdiyi bu proqram vəzifələrinin həyata keçirilməsində Azərbaycan müəllimlərinin fəal iştirak etmələrinə xüsusi önəm vermiş və müəllimlərin qarşısında bu gün də aktual olan aşağıdakı vəzifələri qoymuşdur: "Azərbaycan müəlliminin bir məqsədi, bir amalı olmalıdır: Azərbaycanımızı çiçəklənən, inkişaf edən, firavan, qüdrətli bir dövlətə çevirməyə qadir, müstəqillik ideyalarına sadiq, özünü vətənin azadlığı naminə fəda etməyə hər an hazır olan, yeni təfəkkür tərzini qavrayaraq müasir tələblərə cavab verən əqidəli, milli ruhlu nəsil yetişdirmək."

44 günlük Vətən müharibəsində ölümün gözünə dik baxan, düşmənlərin üzərində misli görünməmiş tarixi qələbə çalan, bu gün respublikamızda və dünyanın bir sıra qabaqcıl ali



təhsil ocaqlarında təhsil alan, Azərbaycanın sərhədlərini şərəflə qoruyan, Azərbaycan bayrağını xarici ölkələrdə yüksəkliklərə qaldıran, müxtəlif mötəbər məclislərdə xalqımızı, dövlətimizi təmsil edən Azərbaycan gəncliyinin Ulu öndərin bu tövsiyələrinə layiqli əks-səda verdiyini inamla söyləmək olar.

**Ədəbiyyat**

1. Əliyev H.Ə. Təhsil millətin gələcəyidir (Tərtib edənlər: M.Mərdanov, Ə.Quliyev). Bakı: Təhsil, 2002.

2. Heydər Əliyev və Bakı Dövlət Universiteti. (Tərtib edənlər: M.Mərdanov, Ə.Əhmədov) Bakı: 1997.

*Nailə Hüseynova*

*Pedaqogika elmləri doktoru, dosent*

## HEYDƏR ƏLİYEV VƏ TƏHSİLİN İNKİŞAF STRATEGİYASI

Dünya sivilizasiyasının tarixi təcrübəsi göstərir ki, elmə, təhsilə yüksək qiymət verən dövlət başçıları bununla nəinki öz ölkələrinin iqtisadi və mədəni yüksəlişini təmin edir, həm də mədəniyyətə böyük töhvə vermiş olurlar. Bu mənada Ulu Öndər Heydər Əliyevin milli təhsilin inkişafına göstərtdiyi qayğı və diqqət özünə məxsusluqu ilə seçilir. Belə ki, möhtərəm Heydər Əliyevin hakimiyyətə gəldiyi 1969-cu ildən başlanan tarixi mərhələ bugünkü Azərbaycan elminin inkişaf dövrü kimi qavranılır.

Heydər Əliyevin təşəbbüsü və qayğısı ilə ötən əsrin 70-ci illərində və 80-ci illərinin əvvəllərində ali təhsil müəssisələrinin şəbəkəsinin genişləndirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi və yüksəkixtisaslı kadr hazırlığı istiqamətində böyük işlər görülüb. Ali məktəblər üçün çoxlu sayda tədris korpusları, yataqxana kompieksləri tikilib. 1970-1982-ci illərdə Azərbaycanda 5 yeni ali məktəb yaradılıb, yüzlərlə yeni ixtisaslar açılıb, kafedralar, problem laboratoriyaları fəaliyyətə başlayıb. Əgər 1960-cı illərin sonunda respublikada 12 ali məktəb, bunlarda 105 fakültə, 450 kafedra var idisə və burada 139 ixtisas üzrə kadr hazırlığı aparılırdısa, 1982-ci ildə artıq 136 fakültəni və 530 kafedranı birləşdirən 21 ali təhsil müəssisəsi fəaliyyət göstərirdi. Bu illərdə ali məktəblərdə təhsil alanların sayı 70 mindən 100 minə yüksəlmişdir.

Müstəqillik illərində də Ümummilli Lider tərəfindən ali təhsilin inkişafı ilə bağlı əhəmiyyətli qərarlar qəbul edildi. 2000-ci ildə ali təhsil müəssisələrinin şəbəkəsi optimallaşdırıldı, onlara universitet statusu verildi. Həmin dövrdə ödənişli



təhsilin tətbiqi, demək olar ki, çətin iqtisadi şəraitdə ali təhsil müəssisələrinin maliyyə imkanlarını xeyli yaxşılaşdırdı. 1997-ci ildə bakalavriat təhsilini başa vuran məzunlar ilk dəfə olaraq magistratura səviyyəsində təhsilə başladılar. Ümummilli Liderin təşəbbüsü və rəhbərliyi ilə texniki peşə təhsilinin təkmilləşdirilməsinə, inkişafına dair strategiya hazırlanıb və uğurla həyata keçirilmişdir.

Heydər Əliyev respublikanın ehtiyacı olan ixtisaslar üzrə Azərbaycandan kənarda ali təhsili də daim önə çəkib. 1970-1980-ci illərdə dahi rəhbərin təşəbbüsü və qayğısı ilə SSRİ-nin 170-dən çox ən məşhur ali məktəbində Azərbaycanın müxtəlif sahələrdə ehtiyac duyduğu 250-dən çox ixtisas üzrə 15 mindən çox azərbaycanlı gənc ali təhsil alıb. 1970-ci ilədək respublikadan kənarda ali təhsil almağa göndərilən azsaylı kontingentin cəmi 40 %-i Azərbaycan millətindən idisə, Ulu Öndərin respublikaya rəhbərliyə başlamasından sonra ali təhsilə göndərilənlərin sayı ilbəil dəfələrlə artdığı kimi, milli tərkib də dəyişib. Belə ki, 1970-ci illərin sonu, 1980-ci illərin əvvəllərində respublikadan kənarda ali təhsil almağa göndərilənlərin 97,7 %-i Azərbaycan xalqının nümayəndəsi idi.

Bu gün ölkəmizdə fəaliyyət göstərən məktəbəqədər, ümumi, peşə, orta ixtisas və ali təhsil müəssisələrinin geniş şəbəkəsi, güclü elmi-pedaqoji kadr potensialı öz mənbəyini məhz ötən əsrin 70-ci illərindən Heydər Əliyevin rəhbərliyi altında təhsil sahəsində aparılan məqsədyönlü siyasətdən almış, həyata keçirilən genişmiqyaslı təhsil quruculuğu gələcək inkişafın güclü təməlini yaratmışdır. Həmin dövrdə Azərbaycanda bütün təhsil ocaqları əvvəlki illərlə müqayisədə yeni inkişaf pilləsinə yüksəlmiş, bu istiqamətdə aparılan ardıcıl dövlət siyasəti Azərbaycan əhalisinin təhsil, ümummədəni və intellektual səviyyəsinin yüksəldilməsində müstəsna rol oynamışdır.

Bütün bunlarla bərabər təhsil sistemində bir neçə islahatlar da aparmışdır. 2003-cü ildə yeni ümumtəhsil

məktəblərinin tikintisi, mövcud məktəblərin əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair Dövlət Proqramı, xüsusi isdedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə proqram və bununla bağlı digər proqramlar və onların reallaşdırılması da təhsilin inkişafı ilə bağlı görülən işlərin bir qismidir.

Ulu öndər Heydər Əliyev müstəqillik illərində də elm və təhsilin inkişafını diqqətdən kənarda qoymamış, o cümlədən elm-təhsil problemlərinə kompleks şəkildə yanaşmışdır. Ölkə başçısı bu sahədə mövcud olan problemlərin aradan qaldırılması və Azərbaycanda dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsinə uyğun təhsil strategiyasının həyata keçirilməsi məqsədilə ciddi tədbirlər həyata keçirmiş, mühüm tarixi fərman və sərəncamlar imzalamışdır. Məsələn, "Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair proqramın (2003-2007-ci illər) təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 17 fevral 2003-cü il tarixli sərəncamı da ölkədə bu sahədə yaranmış problemlərin aradan qaldırılması yönümündə müstəsna əhəmiyyətə malik dövlət sənədi olmuşdur.

Beləliklə, Ümummilli lider Heydər Əliyev Ulu Yaradan tərəfindən müqəddəs missiya ilə göndərilmiş şəxsiyyət idi. O,1969-1882-ci illərdə Azərbaycana rəhbərlik etdiyi dövrdə də, 1993-2003-cü illərdə ölkə Prezidenti olarkən də bu tarixi missiyanı uğurla yerinə yetirdi. Doğrudur, bu iki mərhələ özünün ictimai-siyasi mahiyyəti, ölkədə gedən proseslər baxımından bir-birindən köklü surətdə fərqlənirdi. Ancaq hər iki dövrdə ölkənin taleyində möhtəşəm işlər görülmüş, silinməz izlər qoyulmuşdur.

Heydər Əliyev bütün həyatı boyu öz xeyirxah əməlləri və ədalətli mövqeyi ilə xalqımızın güvənc yerinə çevrilmişdir. İstər müasir tələbata uyğun elmi kadrların hazırlanmasında, istər Azərbaycan Respublikasının beynəlxalq aləmə və qlobal



iqtisadi mühitə sürətlə inteqrasiya etməsində, istərsə də ölkənin sosial-iqtisadi istiqamətlərdə ciddi uğurlar qazanmasında ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə reallaşan tədbir və islahatların rolu danılmazdır. Heydər Əliyevin bir dövlət və siyasi xadim kimi ölkə, milli iqtisadiyyat, eləcə də onun ayrı-ayrı sahələri qarşısında duran problemlərə kompleks şəkildə yanaşması bu gün əldə edilən ciddi uğurların əsas təkanvericisidir. Məhz bu yanaşmanın nəticəsidir ki, sosial-iqtisadi və siyasi istiqamətlərdə qazanılmış müvəffəqiyyətlər biri-birinə təkan verməklə, vahid bir prosesə çevrilir. Eyni zamanda, əsas uğurlardan biri də ondan ibarətdir ki, həyata keçirilən islahatlar içərisində elmin inkişafı prioritet kimi qəbul edilir və həyata keçirilən bütün islahatlar elmi cəhətdən əsaslandırılır. Bu baxımdan qanunların və digər normative sənədlərin qəbul edilməsində, dövlət proqramlarının hazırlanmasında və s. elm adamlarının yaxından iştirak etməsi, müvafiq mütəxəssislərin iştirakı ilə geniş müzakirələrin aparılması xüsusi qeyd olunmalıdır.

Günümüzün reallıqları sübut edir ki, hazırda ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən bu istiqamətdə aparılan işlər Azərbaycan xalqının xoş gələcəyinə xidmət edəcək səviyyədə uğurla davam etdirilir. Eyni zamanda, bütün bunlar elm adamlarının daha da fəallaşmasını, ölkədə həyata keçirilən islahatların elmi əsaslarının işlənib hazırlanmasında xüsusi fəallıq göstərilməsini tələb edir. Məlumdur ki, ən əhəmiyyətli nəticə nəzəri və praktiki biliklərin birləşməsindən əldə edilir. Başqa sözlə desək, praktiki əhəmiyyəti olmayan nəzəri düşüncələr bazar iqtisadiyyatının hökmran olduğu müasir dövrümüzdə tədricən sıradan çıxır. Bu baxımdan da, elm adamlarının praktiki cəhətdən əhəmiyyətli olan təklif və tövsiyələrlə çıxış etməsi ölkənin davamlı sosial-iqtisadi inkişafının başlıca amillərindən biri kimi qəbul edilməlidir. Yalnız bu halda əldə edilmiş dinamik inkişafı davamlı inkişafa çevirmək mümkündür.

Heydər Əliyev Azərbaycan təhsilinin məqsəd və vəzifələrini müəyyən etməklə yanaşı, həm də müəllimlərin özlərinin vətənpərvər, dövlətə və millətə sadiq olmalarını xüsusi vurğulayır: *"Biz keçmişlərdən fərqli olaraq indi müstəqil Azərbaycanın gələcəyini formalaşdırırıq, müstəqil Azərbaycanın gələcək fəaliyyətini formalaşdırırıq, müstəqil Azərbaycanın vətəndaşlarını formalaşdırırq və məktəbdə, universitetdə formalaşan gənc, Azərbaycanın gələcək fəal vətəndaşı gərək, birincisi, mənəviyyatca saf olsun. Ona görə də gərək mənəvi saflıq ali məktəblərdə, orta məktəblərdə hökm sürsün. Gərək o, vətənpərvərlik hissi yaşasın, vətənpərvərlik hissi ilə tərbiyə olunsun. Ona görə də gərək onun müəllimləri, tərbiyəçiləri özləri vətənpərvər olsunlar, vətənpərvərliyi gənclərə aşılaya bilsinlər".* Azərbaycan təhsilinin qarşısında dayan bu vəzifə uğurla icra edilir. Vətənpərvərlik ruhunda tərbiyə edilən, formalaşan Azərbaycan gəncləri Müzəffər Ali Baş Komandan İlham Əliyevin komandalığı altında igid əsgər və zabit kimi öz müəllimləri ilə birlikdə qəhrəmanlıqla döyüşərək 44 günlük Vətən müharibəsindən ərazilərimizi erməni-faşist işğalçılarından azad etdilər. Azərbaycanın Zəfər tarixini yazdılar və Ulu Öndərin vəsiyyəti yerinə yetirildi. Hesab edirik ki, bu, həm də Azərbaycan təhsilinin ən böyük uğurlarından biridir.

**Ədəbiyyat:**

1. "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" // https://e-qanun.az/framework/5363

2. "Azərbaycan Respublikasında dövlət dili haqqında" [11]Azərbaycan Respublikasının Qanunu // https://e-qanun.az/framework/1865

3. "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 13 iyun 2000-ci il tarixli Fərmanı // https://e-qanun.az/framework/767



4. Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında // https://e-qanun.az/framework/2811

5. Azərbaycan gənclərinin nüfuzlu xarici ali təhsil müəssisələrində təhsil imkanlarının genişləndirilməsi haqqında // https://e-qanun.az/framework/48310

6. Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı // https://e-qanun.az/framework/52506

7. Azərbaycan Respublikasının ilk milli Konstitusiyası layihəsinin hazırlanması haqqında // https://e-qanun.az/framework/8759

8. Heydər Əliyev Müstəqilliyimiz əbədidir. Bakı, 2007, 21-ci cild.

**Şəhla Əliyeva**
*pedaqogika elmləri doktoru,*
*professor. Əməkdar müəllim*

## HEYDƏR ƏLİYEVİN MİLLİ TƏHSİL SİYASƏTİ

Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə Ulu Öndər elm, təhsil və tədris məsələlərini önə çəkmiş, bu sahəyə böyük diqqət və qayğı göstərmişdir. Dahi rəhbərin imzaladığı bir sıra mühüm fərman və sərəncamların bu sahənin inkişafında xüsusi rolu olmuşdur. Milli təhsilin inkişafı məhz Heydər Əliyev kursunun uğurudur. Heydər Əliyev Azərbaycanın müasir elm və təhsil konsepsiyasının banisidir. Ulu öndərin rəhbərliyi ilə həm sovet, həm də müstəqillik dövründə təhsilimizin inkişafı ilə bağlı bir sıra sanballı islahatlar həyata keçirilmişdir. Ümumilli Liderimiz bu istiqamətdə hər zaman bir şüarı əsas tutub: "Təhsil millətin gələcəyidir". Məhz Ulu Öndər bu ülvi amal uğrunda yorulmadan çalışıb. Hələ sovet dövründə hər il onlarla, yüzlərlə gənci SSRİ-nin müxtəlif şəhərlərinə oxumağa göndərib. 1971-ci ildə Azərbaycanın gələcəkdə müstəqil olacağını böyük bir uzaqgörənliklə düşünən Ulu Öndər Cəmşid Naxçıvanski adına hərbi liseyin əsasını qoyub. Həmin liseyin məzunları müstəqilliyimizin ilk illərində, eləcə də ondan sonrakı dövrlərdə Azərbaycan xalqının ərazi bütövlüyü və suverenliyinin təmin olunmasında ixtisaslı hərbi kadrlar kimi böyük rəşadətlər göstəriblər. Ulu Öndər Heydər Əliyev təhsil işçiləri ilə görüşlərində hər zaman vurğulayırdı ki, məktəbin, müəllimlərin ən əsas vəzifəsi bizim cəmiyyətimizə, xalqımıza, ölkəmizə dəyərli vətəndaşlar hazırlamaqdır.

1993-cü ilin iyunun da xalqın təkidli tələbi ilə Heydər Əliyevin yenidən hakimiyyətə qayıtması Azərbaycanın ictimai-siyasi həyatına yeni ab-hava gətirdi. Təhsil işçiləri, ziyalılar dövlətin yükək qayğısı ilə əhatə olundular.



Heydər Əliyev Azərbaycançılıq ideologiyasına mühüm önəm verirdi. Qədim yazılı abidə olan "Kitabi-Dədə Qorqud" da milli düşüncə, azərbaycançılıq ideologiyası geniş əksini tapdığından Ulu Öndər alimlərin dastanın araşdırılması və tədqiqinə normal şərait yaratdı. Azərbaycan ədəbiyyatı çoxəsrlilik tarixi olan "Kitabi-Dədə Qorqud" kimi ədəbi abidələrlə, Nizaminin nəhəng yaradıcılığı ilə, Xəqaninin və Nəsiminin, Füzulinin və Vaqifin, söz sənəti bahadırlarının dahiyanə əsərləri ilə, aşıq poeziyasının həmişə canlı nümunələri ilə zəngindir",- deyən Heydər Əliyevin təşəbbüsü ilə "Kitabi-Dədə Qorqud"un motivləri əsasında bədii film çəkildi.

Ulu Öndər Heydər Əliyevin dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 500 illik yubileyi münasibətilə "Füzuli ensiklopediyası"nın hazırlanması və nəşr edilməsi haqqında Sərəncamı, 1999-cu il mayın 15-də isə "Kitabi Dədə Qorqud"un 1300 illik yubileyinin layiqincə hazırlanması və keçirilməsi haqqında Fərman imzalaması da onun elmə və mədəniyyətə verdiyi yüksək qiymətin təcəssümü idi.

Ümumilli Liderin xüsusi diqqət yetirdiyi məsələlərdən biri də respublikamızda təhsil sisteminin yaxşılaşdırılması ilə bağlı idi. Buna görə də Ulu Öndər təhsilin milli tərəqqinin gerçək amilinə çevrilməsi üçün geniş islahatlar proqramının hazırlanaraq reallaşdırılması vəzifəsini qarşıya qoydu. 1998-ci ilin martında "Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə dövlət komissiyasının yaradılması haqqında" Sərəncam imzalaması isə bu sahədə təkmil qanunverici bazanın formalaşdırılması, təhsil konsepsiyasının hüquqi əsaslarının yaradılması məqsədində irəli gəlirdi.

Çox qısa müddətdə komissiyanın hazırladığı "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" geniş müzakirələrdən sonra 1999-cu ilin iyununda imzalanaraq qüvvəyə mindi. Həmin proqram ölkəmizdə təhsil sisteminin

beynəlxalq standartlara uyğunlaşdırılması ilə yanaşı, milli təhsil ənənələrinə sadiq qalınmasını da təmin edirdi.

Heydər Əliyevin elm və təhsil sahəsində atdığı addımlardan biri də 15 may 2001-ci il tarixli Fərmanı oldu. Həmin fərmanla Elmlər Akademiyasına Milli Elmlər Akademiyası adı verilmiş bununla da akademiyanın elmimizin inkişafındakı rolu və naliyyətləri rəsmən təsdiqlənmişdi.

1997-ci ilin yanvarın 31-də Heydər Əliyev Elmlər Akademiyasının rəhbərliyi və aparıcı alimlər qrupunu qəbul edərək, elm sahəsində islahatların aparılmasının vacibliyi bildirdi. Milli Elmlər Akademiyasının Rəyasət Heyəti Ulu Öndərin tövsiyələrini rəhbər tutaraq akademiyada islahatların aparılmasına başlanıldı. Eyni zamanda, elmi tədqiqat istiqamətlərinin dəqiqləşdirilməsi, elmi-təşkilati bazanın hazırlanması sahələrinə dair qərarlar qəbul edib, Azərbaycanda elmin inkişaf strategiyasının əsas müddəalarını müəyyənləşdirdi və tədbirlər həyata keçirildi. "Elmin strateji inkişafı və Azərbaycanın Milli Elmlər Akademiyasında islahatlar" konsepsiyası hazırlandı. Akademiya alimləri ilə keçirdiyi həmin görüş zamanı Heydər Əliyev Azərbaycan elmi qarşısında dayanan əsaslı problemlərə toxundu. Onların aktuallığını əsaslandıraraq alimlərimizə Azərbaycan dövləti, xalqı üçün daha gərəkli strateji məsələlərlə məşğul olmağı tövsiyə etdi. Bu görüşdə Ümumilli Lider Heydər Əliyev elmin inkişaf strategiyasının əsas müddəalarını irəli sürdü. Humanitar elmlərin xüsusi əhəmiyyətə malik olduğunu vurğulayan Ulu Öndər ədəbiyyat, mədəniyyət tarixinin yazılması zəruriliyi barədə söhbət açdı. Çoxəsrlik Azərbaycan tarixinin dərindən öyrənilməsinin və yüksək elmi prinsiplər əsasında şərhinin dövlət üçün mühüm əhəmiyyət daşıdığını diqqətə çatdırdı.

Ulu Öndər Heydər Əliyev zaman-zaman qəbul etdiyi tarixi qərarı ilə sözün əsl mənasında, yenilənməkdə olan müstəqil Azərbaycan dövlətinin qurucusuna çevrildi. 1994-cü il sentyabrın 20-də ölkənin tarixində son dərəcə taleyüklü bir



hadisə baş verdi. Azərbaycan dövlətinin və xalqının firavan və xoşbəxt həyatının zəmanətinə çevrilmiş, sürətli inkişafa və tərəqqiyə, müstəqilliyin dönməzliyinə və təhlükəsizliyinə təminat, neft müqaviləsi – "Əsrin müqaviləsi" imzalandı. Məhz Ulu Öndərin qətiyyəti, iradəsi və cəsarəti sayəsində Azərbaycanın "qara qızılı" bu millətin ağ günlərinin tarixini yazmağa başlandı. Bu çoxvektorlu inkişaf dinamikası özünü təhsilin inkişafında da göstərməkdə idi. Yeni-yeni təhsil ocaqları tikilərək istifadəyə verildi. Universitetlərin maddi-texniki bazaları mərhələli şəkildə zənginləşdirildi.

Bir faktı qeyd etmək kifayətdir ki, Ümumilli Lider Heydər Əliyevin Azərbaycanda elm və təhsillə bağlı siyasəti artıq real şəkildə özünün müsbət təzahürünü göstərməkdədir. O, öz çıxışlarında təhsilin mürəkkəb və olduqca vacib bir sahə olduğunu vurğulayaraq qeyd edirdi ki, "Təhsil sahəsi nə sənayədir, nə kənd təssərüfatıdır, nə ticarətdir. Bu cəmiyyətin xüsusi, intellektual cəhətini əks etdirən bir sahədir. Belə halda təhsil sisteminə çox diqqətlə yanaşmaq lazımdır və bu sistemə münasibət çox həssas olmalıdır." Heydər Əliyev SSRİ dövründə yəni, Azərbaycan Respublikasına rəhbərlik etdiyi ötən əsrin 70-80-ci illərində də bu məsələni daim diqqət mərkəzində saxlamış xalqımızın dahi oğlunun rəhbərliyi ilə təhsil sistemində ciddi islahatlar həyata keçirilmişdir. 1972-ci ildə "Gənclərin ümumi orta təhsilə keçidini başa çatdırmaq və ümumtəhsil məktəbini daha da inkişaf etdirmək haqqında" və 1973-cü ildə "Kənd ümumtəhsil məktəblərinin iş şəraitini daha da yaxşılaşdırmaq haqqında" qəbul edilmiş qərarlar nəticəsində Azərbaycanda orta ümumtəhsil məktəbləri şəbəkəsi 3 dəfə genişlənmişdir. Təhsil ocaqlarının sayı 765-dən 2117-yə çatdırılmışdır. Ümumilli Lider Heydər Əliyevin sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə ölkədə 5 yeni ali təhsil müəssəsi açılmış və ali məktəblərdə təhsil alanların sayı 70 mindən 100 minə qədər artmışdır. Ulu öndər Heydər Əliyevin təhsil siyasəti konsepsiyasına əsasən ali məktəblərimizin

əksəriyyətində təhsil alan gənclərin elmi tədqiqat işlərinə cəlb olunması üçün lazimi şərait yaradılmışdır. Son dövrlər hər il tələbələrin müxtəlif fənlər üzrə respublika olimpiadaları, konfranslar, aspirantların və gənc tədqiqatçıların respublika simpozumları, müsabiqələr keçirilir ki, bu da elmə, elmi tədqiqatlara marağı daha da artırır.

Azərbaycan təhsil tarixində böyük dönüş yaratmış 1999-cu il təhsil islahatına aparan yol heç də hamar deyildi. Müstəqilliyimizi bərpa etdiyimiz ilk illərdə mənəvi institutlarda sürətlə dağılma prosesi gedirdi. Sosial xaos və anarxiya , hər şeydən əvvəl, mənəvi ehtiyatlara zərbə vursa da onun közərtisi qalmaqda idi. Heydər Əliyevin uzaqgörənliyi sayəsində təhsilin bütün istiqamətlərində Azərbaycan böyük irəliləyişlərə nail oldu. Müdrik rəhbərin göstərişi ilə büdcədən təhsil üçün nəzərdə tutulan vəsaitin həcmi ildən-ilə artırılırdı. Təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, dərsliklərin şagirdlərə pulsuz verilməsi, tədris prosesində informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiqi dövlət qayğısı sayəsində əldə olunmuş ən mühüm naliyyətlərdən oldu.

2002-ci ilin sentyabrında Suraxanı rayonundakı 275 nömrəli tam orta məktəbdə olarkən Heydər Əliyev bu barədə deyirdi ki, yaxın zamanlarda Azərbaycanda məktəb tikintisi, məktəblərin müasir avadanlıqlarla təmin olunması , təmir edilməsi ilə əlaqədar ciddi tədbirlər irəli sürəcək. Çox keçmədi ki, həmin ilin oktyabr ayında "Azərbaycan Respublikasında ümumitəhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi haqqında" Sərəncam imzalandı. Bu sərəncam məktəblərdə təlim şəraitinin və təlim mühitinin yaradılmasında ciddi dönüşə səbəb oldu.

Azərbaycan Prezidenti İlham Əliyev bu gün Ulu Öndərin təhsil siyasətini uğurla davam etdirir. Dövlətimizin başçısı çıxışlarında dəfələrlə qeyd edib ki, hər hansı bir xalq üçün ən böyük sərvət nə yeraltı, nə yerüstü resurslardır. Xalqın



ən böyük sərvəti həm maddi, həm də mənəvi cəhətdən yaxşı yetişdirilmiş kadr potensialıdır.

Təhsil, təlim-tərbiyə sisteminin təməlinin möhkəmləndirilməsi və inkişaf etdirilməsi dövlət siyasətinin ən prioritet məsələlərindən biridir. Sevincidirici haldır ki, ölkəmizdə təhsilin inkişafının vacibliyi, əhəmiyyəti düzgün qiymətləndirilir və bu sahədə intensiv surətdə islahatlar aparılır. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində respublikamızın hər yerində çoxlu sayda yeni məktəb binaları tikilmiş, sinif otaqları, fənn kabinetləri, laboratoriyalar, idman zalları müasir avadanlıqlarla təchiz edilərək şagirdlərin ixtiyarına verilmişdir.

Prezidentin "Biz neft kapitalını insan kapitalına çevirməliyik" tapşırığını təhsil işçiləri əməli fəaliyyətləri ilə həyata keçirir, dövrün tələbinə uyğun tədrisin keyfiyyətini yüksəltməklə təhsilimizin inkişafına layiqli töhfələr verilir.

Ümumilli Liderimiz Heydər Əliyevin də qeyd etdiyi kimi, biz dərk etməliyik, anlamalıyıq ki, xoşbəxt bir mərhələyə gəlib çatmışıq, milli azadlığa nail olmuşuq, müstəqil dövlətimiz var, azad, müstəqil ölkədə yaşayırıq. Hər birimizin müqəddəs borcu müstəqil dövlətimizin qədrini bilmək, onu qorumaq, inkişaf etdirmək dünyanın inkişaf etmiş ölkələri səviyyəsinə qaldırmaqdan ibarətdir. Ən əsas naliyyət ondan ibarətdir ki, biz müstəqilliyimizi müdafiə etdik, qoruduq, möhkəmləndirdik ,inkişaf etdirdik və müstəqilliyimizi əbədi etdik.

Prezident İlham Əliyevin Sərəncamı ilə 2023-cü ilin "Heydər Əliyev İli" elan olunması respublikamızda müstəqil dövlətçilik düşüncəsinin, azərbaycançılıq məfkurəsinin, vətənpərvərlik tərbiyəsinin daha da möhkəmləndirilməsinə özünün sanballı töhfələrini verir və verəcəkdir.

## Ədəbiyyat


1. Müstəqil Azərbaycan Respublkası gənclərinin birinci forumunda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi, "Xalq qəzeti", 6 fevral, 1996.
2. Təhsil millətin gələcəyidir. (M.Mərdanov və Ə.Quliyevin redaktəsi ilə) Bakı, "Təhsil", 2012.





**Simnarə Heydərova**
*Psixologiya üzrə fəlsəfə doktoru,dosent*


# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA TƏHSİL QURUCULUĞU

***"Təhsil millətin gələcəyidir"***
***Heydər Əliyev***

XX əsrin son 30 ilini Azərbaycan tarixi üçün Heydər Əliyev dövrü adlandırmaq olar. Parlaq şəxsiyyət, natiq və əvəzsiz lider Heydər Əlirza oğlu Əliyev apardığı uğurlu daxili və xarici siyasəti ilə ölkəmizin iqtisadi inkişafının, daxili siyasi sabitliyin və əmin-amanlığın, milli-mənəvi dəyərlərə qayıdışın, qorunub saxlanılması və təbliğinin qarantı oldu. Prezident İlham Əliyevin 2023-cü ilin ölkəmizdə "Heydər Əliyev ili" elan edilməsi haqqında Sərəncamında qeyd edildiyi kimi:

- "Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə mirası, zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs irsi qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli borcudur".

Heydər Əliyev fenomeni zaman və məkan anlayışlarından kənardadır. Yəni onun dövlətçilik irsi, parlaq ideyaları həmişə bütün dövrlər üçün aktualdır. Heydər Əliyev ideyaları həm xalqımızın mənəvi-siyasi sərvəti, həm də Azərbaycan dövlətinin inkişafını və xalqımızın xoşbəxt gələcəyini təmin edən dəyərlər sistemi kimi müstəsna əhəmiyyətə malikdir. Ulu Öndərin ideyaları həm də milli həmrəyliyi təmin edən, dünya azərbaycanlılarını vahid məqsəd ətrafında - Azərbaycan naminə birləşdirən ideologiyadır.

Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövr ərzində ölkənin daim tərəqqisi üçün çalışmış, onun zəngin mədəniyyəti və böyük tarixi keçmişi ilə daim fəxr etmiş, gələcək nəsillərin taleyini düşünmüş, qayğı və diqqət

göstərmiş, Azərbaycanı bu ölkədən çıxarmışdır. O, böyük siyasət və dövlət xadimi olmuş, sağlığında canlı əfsanəyə çevrilmiş, fenomen şəxsiyyət kimi daim diqqəti cəlb etmiş və dünya azərbaycanlılarının layiqli lideri olmağı bacarmışdır. Onun bütün həyatı Azərbaycanımızın inkişafına, xalqımızın işıqlı gələcəyi, firavan həyatı uğrunda mübarizəyə həsr olunub. Dahi şəxsiyyət yaxşı bilirdi ki, Azərbaycanın tərəqqisinin yeganə yolu ali təhsildə, xalqın maariflənməsindən keçir. Məhz buna görə də ümummilli liderimizin rəhbərliyi ilə respublikamızın iqtisadi potensialının gücləndirilməsi elmin və təhsilin inkişafı ilə paralel həyata keçirilirdi. Heydər Əliyevin rəhbərlik etdiyi illər Azərbaycan tarixinə elm və təhsildə tərəqqi dövrü kimi daxil olub.

Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoydu. Bütün sahələrdə, o cümlədən elm və təhsil sahəsində diqqət və qayğı daha da artıb. Bu təsadüf deyildi, çünki bu parlaq şəxsiyyət yaxşı bilirdi ki, Azərbaycanın tərəqqisinin yeganə yolu ali təhsil və xalqın maariflənməsi, fundamental və humanitar elmlərə böyük önəm verilməsidir. Məhz buna görə də ümummilli liderimizin rəhbərliyi ilə respublikamızın iqtisadi potensialının gücləndirilməsi elmin və təhsilin inkişafı ilə paralel həyata keçirilirdi. Heydər Əliyevin rəhbərlik etdiyi illər Azərbaycan tarixinə elm və təhsil sahəsində tərəqqi dövrü kimi daxil olub. Təkcə paytaxtımızda deyil, respublikamızın ucqar rayonlarında da yüzlərlə məktəb, mədəniyyət evi, kitabxana, uşaq bağçası tikilmişdir.

Azərbaycan müstəqillik əldə etdikdən sonra cəmiyyətimizin hər bir sahəsində olduğu kimi, təhsil sahəsində də dirçəliş və yeniləşmə nəzərə çarpdı. Ümummilli liderimiz Heydər Əliyev siyasətinin böyük təsiri nəticəsində tərəqqi əldə edilmiş, orta, orta ixtisas və ali təhsil müəssisələrində struktur dəyişiklikləri aparılmış, təhsilin maddi-texniki bazasının



möhkəmləndirilməsi istiqamətində ciddi quruculuq işləri aparılmışdır. Heydər Əliyev öz çıxışlarında həmişə deyirdi:

"İndi Azərbaycan müstəqil dövlətdir. Müstəqil dövlət kimi Azərbaycanın öz milli ideoloji konsepsiyasını yaradan və inkişaf etdirən respublikamız, şübhəsiz ki, təhsil sahəsi də milli məqsəd və maraqlar əsasında qurulmalıdır. Biz müstəqil dövlət olaraq öz təhsil sistemimizi istədiyimiz kimi qururuq. Biz bütün dünya ölkələrinin mütərəqqi təcrübəsindən istifadə edirik. İnanıram ki, indiyə qədər yaradılmış baza əsasında gələcəkdə Azərbaycan təhsili, məktəbləri daha da təkmilləşəcək".

Azərbaycanda təhsilin qlobal inkişaf tendensiyalarına və beynəlxalq standartlara cavab verən müasir səviyyəyə çatmasında ümummilli lider Heydər Əliyevin xidmətləri az deyil. Azərbaycan təhsilinin, elminin və mədəniyyətinin dirçəliş dövrü 1969-cu il iyunun 14-dən başlayıb. Hazırda ölkəmizdə fəaliyyət göstərən ümumi təhsil, peşə, orta ixtisas, ali və əlavə təhsil müəssisələrinin geniş şəbəkəsi, güclü elmi-pedaqoji kadrlar korpusu məhz ötən əsrin 70-ci illərində Heydər Əliyevin rəhbərliyi ilə yaranmışdır.Təhsil sektorunda aparılan genişmiqyaslı təhsil quruculuğu işləri gələcək inkişaf üçün möhkəm zəmin yaratmışdır.

2003-cü ildə yeni ümumtəhsil məktəblərinin tikintisi, mövcud məktəblərin əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təchiz edilməsi üzrə Dövlət Proqramı, xüsusi qabiliyyətli uşaqların (o cümlədən gənclərin) yaradıcılıq potensialının inkişafı proqramı və digər əlaqədar proqramlar və onların həyata keçirilməsi təhsilin inkişafı işinin də bir hissəsidir.

Azərbaycan müstəqillik əldə etdikdən sonra ölkəmizin dövlət müstəqilliyini ilk tanıyan Türkiyə Cümhuriyyəti olmuşdur. O, Azərbaycan və Türkiyə arasında tarixi qardaşlığın müasir nümunələrinin yaradılmasında, ölkəmizdə yeni tipli təhsil sisteminin formalaşmasında müstəsna xidmətləri olub. Azərbaycan müstəqillik əldə etdikdən sonra Türkiyədən

Azərbaycana 15 ixtisaslı mütəxəssis göndərilmiş və müasir təhsil standartlarına cavab verən hazırkı "Çağ Öyretim Şirketi" yaradılmışdır. Bütün bunlar Azərbaycan təhsilinin inkişafına təkan verən işlərin yalnız müəyyən hissəsidir.

Heydər Əliyev təhsil işçilərinə daim xüsusi diqqət və qayğı ilə yanaşmışdır. Hər bir sahədə olduğu kimi, təhsildə də bir çox nailiyyətlər ulu öndərin adı ilə bağlıdır. Təhsil məsələlərinə gəlincə, ümummilli liderimiz inkişafı diqqət mərkəzində saxladığını, təhsilin cəmiyyətin, dövlətin və hər bir fərdin inkişafına və tərəqqisinə xidmət etməli olduğunu dəfələrlə vurğulamış, təhsil xidmətlərinin bu istiqamətə aydın şəkildə yönəldilməsini vacib hesab etmişdir. Ümummilli liderimizin orta məktəb təhsilinin məqsədləri və ümumtəhsil məktəblərinin əsas vəzifələri haqqında dəyərli fikirləri bu gün də bütün təhsil işçilərinin aparıcı istiqaməti və əsas ideya mənbəyidir. Ulu öndər biliyə yiyələnməyi, daha çox biliyə yiyələnməyi, biliyə əsaslanan cəmiyyət yaratmağı diqqət mərkəzində saxlamağı ən aktual vəzifələrdən biri hesab etmiş və bu prosesdə orta təhsilin rolunu yüksək qiymətləndirmişdir. Ümummilli liderimizin ümumtəhsil məktəblərində fənlərin tədrisinin təşkili ilə bağlı vurğuladığı tələbə diqqət yetirərkən bir amili də qeyd etmək lazımdır: bu, ümummilli məsələdir və həmişə rəhbərimizi düşünməyə vadar edib. O, fənlərə sadəcə olaraq müəyyən çərçivədə şagirdlərə müvafiq informasiya və nəzəri biliklər vermək vasitəsi kimi deyil, hər şeydən əvvəl şəxsiyyətin formalaşmasını təmin edən, onlara müstəqil yaşamaq və həyatda fəaliyyət göstərmək üçün zəruri həyati bacarıqları aşılayan mühüm amil kimi baxırdı.

Azərbaycanda dövlət müstəqilliyini bərpa etdikdən sonra təhsilimizin inkişafı, onun qabaqcıl ölkələrin təhsil sistemlərinə daim inteqrasiyası üçün münbit şərait yaradıldığı bir vaxtda ulu öndər bu tarixi imkanı yüksək qiymətləndirərək çox mühüm bir məqamı da vurğuladı və müəyyən etdi.



Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş təhsil siyasəti bu gün Azərbaycanda uğurla davam etdirilir. Xüsusilə, son illər iqtisadiyyatımızda baş verən sıçrayış və yüksək inkişaf templəri digər sahələrin, o cümlədən təhsilimizin də mütərəqqi inkişafı üçün mühüm zəmin olub. Bu inkişafın əsasında dövlətimizin və ölkə rəhbərliyinin təhsilə göstərdiyi qayğı dayanır. Təhsili Azərbaycanın davamlı inkişafının əsas amillərindən biri hesab edən Azərbaycan Prezidenti cənab İlham Əliyev hakimiyyətə gəldiyi ilk gündən təhsili daxili siyasətinin prioritet istiqaməti kimi müəyyənləşdirmiş və onun daim qayğısına qalmışdır. Məhz buna görə də təhsilin və elmin cəmiyyətdə mühüm rolunun yüksək qiymətləndirilməsi, onlara göstərilən ardıcıl diqqət və qayğı sayəsində son illər Azərbaycan təhsili yeni, daha yüksək inkişaf mərhələsinə qədəm qoyub.

"Təhsil sahəsi xalqımızın bu günü, millətimizin və dövlətimizin gələcəyi üçün ən vacib sahədir"

Cəmiyyətin inkişafında təhsilin rolunu və şəxsiyyətin formalaşmasının əhəmiyyətini daim yüksək qiymətləndirən ulu öndərin qəbul etdiyi qərarlar, irəli sürdüyü uzaqgörən konseptual fikir və ideyalar, tarixi tövsiyyələr və bu gün də onların müəyyənləşdirilməsinə öz töhfəsini verir. Ölkəmizdə təhsil islahatlarının əsas istiqamətləri Azərbaycan təhsilinin inkişafı üçün son dərəcə böyük işlər görən müdrik rəhbər təhsili təkcə savad, bilik əldə etmək, elm öyrənmək imkanı hesab etmir, hər zaman vurğulayırdı ki, təhsilin fəal təhsilin formalaşmasında mühüm rolu var. Heydər Əliyev elmin və təhsilin inkişafına böyük qayğı ilə yanaşırdı.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin genişmiqyaslı siyasi-ideoloji fəaliyyətində dil siyasəti çox mühüm yer tutur. Ümummilli lider Heydər Əliyevin dil quruculuğu sahəsində siyasəti onun milli dövlət quruculuğu siyasətinin tərkib hissəsi kimi bütöv bir sistem formalaşdırmışdır. Ümummilli lider Heydər Əliyev ölkəmizdə

ana dilinin hərtərəfli inkişafında, saflığının qorunub saxlanılmasında, işçi dilə çevrilməsində, beynəlxalq münasibətlər sisteminə daxil olmasında mühüm xidmətləri olmuşdur. Görkəmli dövlət xadimi öz ana dilinə - Azərbaycan xalqının milli dilinə həmişə böyük önəm verib. 1995-ci ildə qəbul edilmiş Konstitusiyada Azərbaycan dili milli dövlətçiliyimizin rəmzlərindən biri kimi təsdiq edilib. Min illər boyu formalaşan və bu günə qədər qorunub saxlanılan Azərbaycan dili xalqımızın qədimliyinin rəmzi, qürur mənbəyidir. Bu gün müstəqil dövlətimizin mövcudluğu dilimizin qorunması, dünya dilləri sırasında öz layiqli yerini tutması baxımından mühüm tarixi fürsətdir. Bu sahədə əldə etdiyimiz uğurların əsasını məhz ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş dil siyasəti təşkil edir. Ulu öndər müstəqillik illərində imzaladığı bir sıra mühüm sənədlərlə Azərbaycan dilinin inkişafını və qorunmasını təmin edib: "Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra dil məsələsi yenidən gündəmə gəldi. Ulu öndər Heydər Əliyevin şəxsi təşəbbüsü ilə 1995-ci il oktyabrın 31-dən noyabrın 11-dək Milli Məclisdə dövlət dili məsələsi müzakirə edildi və Azərbaycan dili yekdilliklə müstəqil Azərbaycan Respublikasının dövlət dili kimi qəbul edildi. Belə ki, 1995-ci il noyabrın 12-də qəbul edilmiş Azərbaycan Respublikasının yeni Konstitusiyasının 21-ci maddəsində Azərbaycan dili Azərbaycan Respublikasının dövlət dili elan edilmişdir. Bütün bunlarla yanaşı, ümummilli lider ana dilimizin daha yüksək zirvələrə yüksəldilməsi üçün bir sıra zəruri tədbirlər həyata keçirmişdir. Bu baxımdan ulu öndərin imzaladığı "Azərbaycan dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 2001-ci il 18 iyun tarixli və "Azərbaycan əlifbasının yaradılması və Azərbaycan Dili Günü haqqında" 2001-ci il 9 avqust tarixli sərəncamlar xüsusi əhəmiyyət kəsb edir. Heydər Əliyevin bu fərmanlardan irəli gələn tələblərə uyğun olaraq, ölkənin bütün sakinləri, bütün Azərbaycan vətəndaşları ana dilimizi öyrənməli, bütün dövlət sənədləri bu dildə tərtib



edilməlidir. 2003-cü il yanvarın 2-də "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsi ümummilli liderin dilimizin inkişafı istiqamətində atdığı mühüm tarixi addımlardan biri oldu. Bununla da ulu öndər Azərbaycan dilini qorumaq və inkişaf etdirmək kimi tarixi missiyasını tam şəkildə həyata keçirdi.

Dahi şəxsiyyətin fəaliyyətində elmin, təhsilin, mədəniyyətin inkişafı prioritet sahələrdən biri olmuşdur. Bütün sahələrdə olduğu kimi, Azərbaycan elminin inkişafı ilə bağlı ümummilli lider Heydər Əliyevin siyasəti bu gün də islahatların zəruriliyinə ciddi diqqət yetirən ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Elmə və təhsilə göstərilən diqqətin nəticəsidir ki, ümummilli lider Heydər Əliyev özünün milli dövlət quruculuğu strategiyasında təhsil siyasətinə dövlətçiliyin əsas prinsiplərindən biri kimi yanaşmış, diqqət və qayğısını daim bu sahəyə yönəltmişdir. Ulu öndər bilavasitə elm və təhsil sahəsində problemlərin həllinə yönəlmiş onlarla tarixi əhəmiyyətli fərman və sərəncamlar, islahatları təsdiq edən sənədlər və dövlət proqramları imzalamışdır. Ümummilli liderimiz Heydər Əliyevin qeyd etdiyi kimi:

"Biz dərk etməli, başa düşməliyik ki, biz xoşbəxt mərhələyə çatmışıq, milli azadlığa nail olmuşuq, müstəqil dövlətimiz var, azad, müstəqil ölkədə yaşayırıq. Müstəqil dövlətimizə qiymət vermək, onu qorumaq, inkişaf etdirmək və dünyanın inkişaf etmiş ölkələri səviyyəsinə qaldırmaq hər birimizin müqəddəs borcudur. Ən mühüm nailiyyət odur ki, biz müstəqilliyimizi qoruduq, müdafiə etdik, gücləndirdik, inkişaf etdirdik, müstəqilliyimizi əbədi etdik".

Müasir dövrdə bugünkü reallıq bizdən tələb edir ki, ulu öndər Heydər Əliyev ideyalarına və milli-mənəvi dəyərlərimizə, Vətənimizə, ana dilimizə, qədim tariximizə və xalqımıza sadiq gənclər yetişdirək, bu sahədə yeni töhfələr verməliyik. Ulu öndərimiz - əbədiyaşar liderimiz Heydər

Əliyev gənclərin intellektual potensialının artırılmasını, elmə marağını daim diqqət mərkəzində saxlamışdır. Bu, müəllimlərin qarşısında duran əsas vəzifədir. Dövlətimiz tərəfindən əlverişli təhsil mühitinin yaradılması, istedadların üzə çıxarılması gənclərin yaradıcılıq və yaradıcılıq əzmini daha da artırır, onları öz xalqına, Vətəninə layiqli övlad olmağa sövq edir. Bugünkü reallıqlar artıq sübut edir ki, Heydər Əliyevin təhsil siyasətinin konsepsiyasına uyğun olaraq aparılan islahatlar öz müsbət nəticələrini verməkdədir. Təhsil islahatlarının aparılmasını zəruri hesab edən ümummilli lider Heydər Əliyev demişdir: "Təhsil sistemimizin mövcud vəziyyəti və problemləri dərindən öyrənildikdən sonra prioritet istiqamətlər müəyyən edilməlidir".

Ümummilli lider Heydər Əliyevin elm və təhsil sahəsində siyasətinin prioritet istiqamətlərindən biri hər iki sahənin idarə olunmasına yeni yanaşmaların tətbiqidir. Reallıqlar göstərir ki, hazırda ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən bu istiqamətdə aparılan işlər Azərbaycan xalqının işıqlı gələcəyinə xidmət edəcək səviyyədə uğurla davam etdirilir.

Təhsil almış və vətənpərvərlik ruhunda formalaşmış Azərbaycan gəncləri 44-cü əsrin 44-cü illərində müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında öz müəllimləri ilə birgə igid əsgər və zabit kimi qəhrəmancasına döyüşmüş, torpaqlarımızı erməni faşist işğalçılarından azad etmişlər. Onlar Azərbaycanın Qələbə tarixini yazdılar və ulu öndərin vəsiyyəti yerinə yetirildi. Bu, həm də Azərbaycan təhsilinin ən böyük uğurlarından biridir.

Bu gün milli təhsilimiz Azərbaycanda 100 faiz savadlılığı təmin edib. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş və Prezident İlham Əliyev tərəfindən hazırlanmış Azərbaycanın təhsil strategiyası uğurla davam edir, müstəqilliyimizi və iqtisadi yüksəlişimizi təmin edir.



Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş iqtisadi və siyasi strategiyanın möhtərəm Prezidentimiz İlham Əliyevin inamı və cəsarəti ilə davam etdirilməsi bu gün Azərbaycan dövlətinə yeni-yeni nailiyyətlər gətirir, dövlətimizin statusunun daha da möhkəmləndirilməsi üçün etibarlı zəmin yaradır, regionun lider dövləti və dünyanın aparıcı dövlətləri sırasında yerini möhkəmləndirir.

Heydər Əliyev Azərbaycan dövlətçilik tarixində tamamilə yeni mərhələ yaradan böyük siyasətçi və tarixi şəxsiyyətdir. Milli məfkurəmiz kimi xarakterizə edilə bilən azərbaycançılıq ideologiyasının müəllifi ulu öndər Heydər Əliyev hər birimizin qəlbində əbədi yaşayacaqdır. Ulu öndərin Azərbaycan Respublikasına rəhbərlik etdiyi bütün dövr ərzində təhsil sahəsi daim diqqət və qayğı ilə əhatə olunub. Ulu öndər Heydər Əliyev öz əməlləri, ölməz ideyaları ilə hər birimizin qəlbində əbədi yaşayacaqdır. Əsrlər, əsrlər keçəcək və nə qədər ki, Azərbaycan xalqı var, Heydər Əliyev unudulmayacaq, həmişə xatırlanacaq. Onun möhkəm təməllər üzərində qurduğu daxili və xarici siyasət kursu ölkəmizi daim irəli aparacaqdır. Müdrik insanın həyat və fəaliyyətinin bütün istiqamətləri xalqımızın bu günü və gələcəyi üçün işıqlı yoldur.

**İstinadlar:**


1. N.M. Xudiyev "Uğurlu yolun layiqli davamçısı". Bakı – 2007, 608səh.
2. N.Zamanov "Heydər Əliyev və Azərbaycanda nitq mədəniyyəti"(I kitab). Bakı – 2013,
3. 480səh.
4. İ.Hacıyev "Heydər Əliyev və milli-tarixi yaddaşın bərpası". Bakı - 2003, 164səh.
5. V.Əliyev "Heydər Əliyevin dil siyasəti". Bakı - 2003, 100səh

**Şərafət Baxışova**

*Pedaqogika elmləri doktoru, dosent.*

## UŞAQLARIN ƏN BÖYÜK HİMAYƏDARI

Hər bir xalqın, dövlətin ən böyük və qiymətli sərvəti uşaqlardır. Uşağı sağlam, cəmiyyətə faydalı vətəndaş kimi böyütmək çətin və məsuliyyətli bir işdir. Yetişməkdə olan gənc nəslin sağlam ruhlu, savadlı olması hamımız üçün önəmlidir.

Cəmiyyətin gələcəyi gənclərdir və öz gələcəyini düşünən hər bir cəmiyyət gənclərə qayğı göstərir. Bununla da əslində özünün xoşbəxt və firavan gələcəyinin təmin etmiş olur. Cəmiyyətin aparıcı təbəqəsi gənclərdirsə, deməli, inkişaf və inteqrasiya məhz onlarla bir addımlayır.

Müasir gəncliyin vəzifələrindən danışarkən Azərbaycan Respublikasının Ümummilli Lideri Heydər Əliyevin Gənclərin I forumunda söylədiyi fikirləri önə çəkmək vacibdir: "Bizim gənclərimizin vəzifəsi təhsil almaq və müasir tələblərə uyğun olan səviyyəyə çatmaqdır... Gənclərimizi yüksək mənəviyyat ruhunda tərbiyələndirmək lazımdır. Mənəviyyat olmayan yerdə heç bir şey ola bilməz".

Ümummilli liderimiz Heydər Əliyev özünün təkmil dövlətçilik fəlsəfəsində bu üç dəyəri bir araya gətirməklə siyasi fəaliyyətinin bütün mərhələlərində humanizm, sosial ədalət və insanpərvərlik prinsiplərinə əsaslanmış, milli və bəşəri ideallara bağlı olmuşdur. Ulu öndərimiz hər bir fərdin maraq və mənafeyinin, qanuni hüquqlarının müdafiəsini dövlətin başlıca vəzifəsi saymışdır.

Hamımıza məlumdur ki, fiziki və mənəvi cəhətdən sağlam, mədəni və intellektual səviyyəsi yüksək olan vətəndaşlara malik ölkə dünyanın ən zəngin ölkəsi hesab olunur.

Bu məlum həqiqəti Azərbaycanda hamıdan yaxşı



anlayan və bunun həyata keçirilməsi üçün lazımı tədbirləri görən yeganə bir insan var idisə o da ümummilli liderimiz Heydər Əliyev idi.

Gəncliyin sağlam ruhlu, savadlı, yüksək mənəvi tərbiyəyə malik olması dövlət üçün önəmlidir. Ulu öndər Heydər Əliyev ölkədə gənclər siyasətinin düzgün aparılmasını çox vacib və önəmli hesab edərək söyləyirdi: "Mənim üçün ən əziz nemət Azərbaycanın uşaqlarıdır, Azərbaycanın gəncləridir. Çünki Azərbaycan Prezidenti kimi mən də bu gün Azərbaycanın böyük gələcəyi haqqında düşünürəm. Azərbaycanın gələcəyi isə Azərbaycanın gənclərindən və uşaqlarından asılıdır".

Ulu öndərimizin **"Azərbaycanın bugünkü gələcəyi bütövlükdə sağlam düşüncəli gənclərdir"** -sözləri hər kəsin həyat devizinə çevrilmişdi. Ulu öndərimiz Heydər Əliyevin bu sahədə həyata keçirdiyi siyasət gənc nəslin fiziki, mənəvi tərbiyəsinin gücləndirilməsinə, sosial rifahının yaxşılaşdırılmasına və zəngin elmi potensialın yaradılmasına xidmət edirdi. Heç də təsadüfi deyildir ki, Heydər Əliyev hər zaman gənclərə qayğı ilə yanaşır, onların problemlərini həll etməyə çalışırdı.

Uşaqların yaxşı təhsil və təlim-tərbiyə alması, Vətən və xalq üçün gərəkli övlad kimi yetişməsi ulu öndərin daim diqqətində olub. Heydər Əliyev çox düzgün olaraq elm-təhsil sahəsinə xüsusi diqqət göstərirdi, elm və təhsilin inkişafına böyük qayğı ilə yanaşırdı.

**"Bizim bu günkü gəncliyimiz sağlam düşüncəli gənclikdir, vətənpərvər gənclikdir, xalqını, millətini sevən gənclikdir... Gənclərimiz mükəmməl təhsil almalı, həyatı dərindən öyrənməli, dünyada gedən prosesləri bilməlidir. Lazımi fəaliyyət göstərib öz xalqına, dövlətinə xidmət etməlidir"- söyləyən** Heydər Əliyev uşaq və gənclərimizin milli və umumbəşəri dəyərlər əsasında formalaşdırılmasını, dövlətçilik ideyalarına sədaqət, vətənə, torpağa məhəbbət ruhunda tərbiyəsini daim ön plana çəkir və hər bir uşağın

şəxsiyyət kimi formalaşdırılmasının təhsil sisteminin ən ümdə vəzifələrindən biri olduğunu göstərirdi.

Aydındır ki, bir millləti məhv etmək üçün onun elmini, təhsilini məhv etmək kifayətdir. Məhz bu konteksdən yanaşdıqda, Heydər Əliyev Azərbaycan xalqını məhv olmaqdan xilas etdi. Ölkəyə rəhbərliyin ilk illərində sürətli iqtisadi inkişafın təmin edilməsini, Azərbaycanın dünyaya yaxından inteqrasiya olunmasını, beynəlxalq aləmdə nüfuzlu söz sahibinə çevrilməsini əsas məqsəd kimi seçən ümummilli lider ölkədə təhsil islahatları aparılmasının zəruriliyini vurğulayaraq, hər bir inkişafın elm və təhsildən asılı olduğunu qeyd edirdi. Ulu öndərin öz sözləri ilə desək: "Təhsil sistemimizin hazırkı vəziyyətini, onun problemlərini dərindən öyrəndikdən sonra prioritet sahələr müəyyən edilməlidir".

Uşaq hüquqlarının qorunması, uşaqların sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı ümummilli liderin ölkəmizə rəhbərlik etdiyi dövrdə çox böyük işlər görülüb, müvafiq qanunvericilik aktları qəbul edilib. Heydər Əliyev daim uşaqlara böyük qayğı və diqqət göstərib, onların ən böyük himayədarı olub. Ölkəmizdə uşaqların sağlam, firəvan böyüməsi, onların hüquqlarının yüksək səviyyədə qorunmasına xidmət edən dövlət siyasətinin əsası Heydər Əliyev tərəfindən qoyulub.

"Azərbaycanın 1994-cü ildə BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyasına qoşulması və bu Konvensiyaya qoşulmaqla ölkəmizdə uşaq hüquqlarına yüksək dəyər verilməsi, uşaqların ehtiyaclarının hərtərəfli təmin olunması istiqamətində görülən işlər, məhz Heydər Əliyevin təşəbbüsü sayəsində mümkün olmuşdur.

1998-ci ildə Milli Məclisdə "Uşaq hüquqları haqqında", 1999-cu ildə "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" qanunlar qəbul olunub. Heydər Əliyev öz çıxışlarında dəfələrlə vurğulayırdı ki, müstəqil dövlətimizdə uşaqların yüksək mənəvi-əxlaqi mühitdə, milli dəyərlər əsasında kamil tərbiyə alaraq layiqli şəxsiyyət kimi yetkinləşməsi olduqca mühüm əhəmiyyət kəsb edir. Ümummilli lider tez-tez uşaqlar üçün təşkil edilən tədbirlərdə, bayram şənliklərində iştirak edir, onlarla ünsiyyətdə olurdu. Uşaqlar da ulu öndərlə hər bir görüşdən sonsuz coşqu, böyük ilham alırdılar.



Heydər Əliyev uşaqlar arasında fərqli həyat səviyyəsini yaxşılaşdırmaq üçün xarici ölkələrin diqqətini respublikamıza yönəltmişdi. Ölkəmizdə uşaqların sağlamlığı, inkişafı, təhsili, onların hüquqlarının qorunması üçün geniş hərəkat başlanmışdır. Uşaqların Beynəlxalq televiziya və radio günü münasibətilə keçirilən ənənəvi bayramında iştirak edən ulu öndərimiz Heydər Əliyev demişdir: "Artıq biz ictimai-siyasi cəhətdən çox sabit bir Azərbaycan yaratmışıq. İnsanlar rahat yaşasınlar və biz bunu, sabitliyi daimi edəcəyik... Əmin olun ki, siz bizim rastlaşdığımız çətinliklərlə rastlaşmayacaqsınız. Ancaq bu, sizə imkan verəcək ki, bizim başladığımız işləri daha da uğurla həyata keçirəsiniz. Siz bizim ümidimiz, gələcəyimizsiniz".

Ulu öndərimiz H.Əliyevin təşəbbüsü ilə "SOS Uşaq Kəndi" salınmışdır. "SOS Uşaq Kəndləri-Azərbaycan" proqramının əsas məqsədi valideyn himayəsindən məhrum olmuş və ya atılma riski qarşısında olan uşaqları ailə əsaslı qayğı ilə təmin edir. SOS Azərbaycanın bütün layihələri BMT-nin Uşaq Hüquqları Konvensiyasına uyğundur və uşaqların öz bioloji ailələrində yaşaması üçün əlavə tədbirlər həyata keçirməkdədir.

Müasir cəmiyyətin məktəbəqədər təhsil sahəsinin qarşısında qoyduğu tələblərə cavab vermək üçün ilk növbədə uşaqların sağlamlığının qorunması və möhkəmləndirilməsinə, onların ümumiyyətlə, hərtərəfli inkişafına, valideynlərin maarifləndirilməsinə, tərbiyəçi-müəllim və digər pedaqoji kadrların səriştəliliyinin formalaşdırılmasına yönələn tədbirlərin həyata keçirilməsi vacibdir.

Heydər Əliyevin "Uşaqlar bizim sevincimiz, xoşbəxtliyimiz, cəmiyyətin gələcəyidir. Ona görə də hər bir insanpərvər cəmiyyətdə uşaqlara daimi xüsusi qayğı, xüsusi diqqət göstərilibdir"- ibrətamiz sözləri uşaqlara olan məhəbbətinin təzahüri idi.

H.Əliyev uşaqların sağlamlıqlarının qorunması və möhkəmləndirilməsi üçün fiziki tərbiyəni daim diqqətdə saxlamağı tövsiyə edirdi: "İdman hər bir insanın sağlamlığıdır. Ona görə də biz idmana çox böyük yol açmışıq. Gənclər gərək fiziki cəhətdən sağlam olsunlar, həm də yüksək biliyə, əxlaqa, tərbiyəyə, yüksək elmə malik olsunlar".

Hazırda uşaq və gənclərimizin fiziki tərbiyəsinə dövlət tərəfindən göstərilən qayğı öz müsbət nəticəsini verməkdədir. İdmanın kütləviliyi genişləndirilir, olimpiya hərəkatının inkişafı üçün ayrı-ayrı zonalarda müasir standartlara uyğun idman kompleksləri tikilərək istifadəyə verilir. Bu gün gənc və yeniyetmə idmançılarımızın sorağı beynəlxalq, dünya və Avropa çempionatlarından, olimpiadalarından gəlir. Şahmat, dama, voleybol, ağırlıqqaldırma, boks və s. dərnəklərdə məşğul olan uşaqlar vətənimizin adını və bayrağını olimpiadalarda, müxtəlif yarışlarda yüksəklərə qaldırırlar.

Ailənin, xalqın, dövlətin ən qiymətli sərvəti olan uşaqlar fiziki və mənəvi cəhətdən sağlam, cəmiyyət üçün əsil vətəndaş, xalqına, torpağına, dövlətinə layiqli övlad, vətəndaş kimi böyüdüb boya-başa çatdırmaq ən məsuliyyətli və şərəfli işdir.

5 iyun 1999-cu il tarixində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən imzalanmış Azərbaycan Respublikasının Təhsil sahəsində islahat Proqramında deyildiyi kimi "Cəmiyyət öz gələcəyini təmin etmək məqsədilə yeni nəslin yüksək səviyyədə hazırlığına nail olmalı və buna görə də təhsil üstün inkişaf etdirilən sahəyə çevrilməlidir".



Təhsilin və tərbiyənin milli zəmində yeniləşdirilməsi üçün uşaqların mənəvi sağlamlığına, milli dəyərlər əsasında tərbiyə olunmasına, daxilən təmizlənməsinə diqqət artırılmalıdır. Müasir mərhələdə təhsilin məzmunu milli psixologiyanın, milli tərbiyənin, milli mədəniyyətin əsasında yaratmaq mümkündür. Uşaqlarımıza xalqın keçdiyi tarixi yolu düzgün qiymətləndirməyi öyrətmədən gələcək üçün dürüst nəticələr çıxarmaq düzgün deyil.

Bir torpaq nə qədər münbit olursa olsun, ona həyat verən, bərəkətli edən yağışlardır. İnsanın da faydalı olması onun mənəvi tərbiyəsindəki feyz və bərəkətlə bağlıdır. Əgər bir millətin gəncləri öz gücünü mənəviyyat və fəzilət yolunda sərf edirsə, o millətin gələcəyi parlaqdır.

Bu gün qloballaşan dünyamızda insan amili getdikcə daha mühüm əhəmiyyət kəsb edir. Çünki sürətlə inkişaf edən yeni dünyanın gələcəyi, taleyi həm də böyüməkdə olan nəslin mənəvi-əxlaqi keyfiyyətlərə necə yiyələnməsindən də asılıdır.

Ölkəmizdə dövlət müstəqilliyini və demokratiyanı inkişaf etdirmək, daha da möhkəmləndirmək üçün bəşəri dəyərlərlə zəngin olan ideoloji konsepsiya yaranır. Müasir dövrdə uşaqların tərbiyəsi milli-bəşəri zəmində təşkil edilir.

Ulu öndər H.Əliyevin milli-mənəvi və dini dəyərlərimiz haqqında bəyanatı gələcək nəsil üçün xüsusilə faydalıdır: "Hər xalqın öz adət-ənənələri, öz milli-mənəvi və dini dəyərləri var. Biz öz milli-mənəvi dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik. Əgər insan mənsub olduğu millətin milli-mənəvi dəyərlərini anlaya bilmirsə, yaxud onları qəsdən təhrif edirsə, bu, bizi narahat etməlidir".

Tarixən Azərbaycanda formalaşmış tolerantlıq və dözümlülük cəmiyyətimizi səciyyələndirən gözəl bir ənənəyə çevrilmişdir. Dövlətin bu sahədə yürütdüyü siyasət nəticəsində çoxmillətli Azərbaycan cəmiyyətində dinlərarası münasibətdə dözümlülük özünü yüksək səviyyədə göstərir.

Tolerantlıq insanlar və icmalar arasında qarşılıqlı hörmətin bünövrəsidir və vahid qlobal cəmiyyətin qurulması üçün

həyati əhəmiyyət kəsb edir. Bu bir mənəvi keyfiyyətdir, lakin hər şeydən əvvəl tolerantlıq bir əməldir. Bu sahədə məktəbəqədər təhsil müəssisələrində çalışan tərbiyəçi-müəllimlərimizin də üzərinə çox böyük məsuliyyət düşür. Tərbiyəçi-müəllimlərimiz uşaqlarda gözəl insani duyğular, yüksək əxlaqi keyfiyyətlər, insanpərvərlik, vətənpərvərlik, qəhrəmanlıq, tolerantlıq kimi hisslər aşılayaraq onları pis əməllərdən, çirkin niyyətlərdən çəkindirməli, həyatı öyrənmiş, təhsil almış, təbiətin və cəmiyyətin qanunauyğunluqlarını dərk etmiş, öz mənəvi aləmlərini zənginləşdirmiş, mədəni səviyyələrini yüksəltmiş tolerant bir vətəndaş yetişdirməlidirlər.

Heydər Əliyev həm böyük siyasi və dövlət xadimi, həm də humanist bir insan kimi insanların məhəbbətini qazanıb və humanist qərarları ilə dünya siyasətinə müdriklik gətirib. Heydər Əliyev öz xalqını hər zaman uca tutmaqla bərabər, xalqlar və millətlər arasında dostluğa, qardaşlığa da bir o qədər önəm verirdi.

Heydər Əliyevin tərbiyə konsepsiyasında vətəndaşlıq tərbiyəsi məsələləri ayrıca yer tutur. Ulu öndər Heydər Əliyevin böyüyən nəslin vətəndaş təhsili və tərbiyəsinə aid baxışları əxlaqi-mənəvi keyfiyyətlərin bərqərar olması üçün yalnız hikmət və tövsiyələrlə, göstərişlərlə deyil, problemə ciddi elmi yanaşması ilə səciyyələnir.

Heydər Əliyevin vətəndaş tərbiyəsi ideyasının əsasında milli vətənpərvərlik ideyası, vətəndaşlıq borcu dayanır. Ulu öndərin vətəndaş tərbiyəsi sahəsində ideya və fikirləri yalnız elmi-nəzəri, metodoloji əsas olması ilə deyil, praktik əhəmiyyətliliyi ilə də diqqəti cəlb edir.

Gələcəyimizi bugünün uşaqlarına əmanət ediriksə, onların düzgün tərbiyə olunması, hansı ideyalara qulluq etməsi hər birimizi ciddi düşündürməlidir. Ona görə də uşaqlara hər zaman diqqət və qayğı göstərilir, onların düzgün tərbiyə olunmalarına, qarşılaşdıqları problemlərin aradan qaldırılmasına, hərtərəfli təhsil almalarına dövlət səviyyəsində nəzarət edilir.



Uşaq hələ kiçik yaşlarından çox həssas olur və bu dövrdə verilən tərbiyə onun gələcək həyatını və şəxsiyyətini müəyyənləşdirir.

Heydər Əliyev ailə və uşaq problemlərinin həllinə böyük diqqət yetirib və qeyd edib ki, respublikada uşaqlara xüsusi məhəbbətlə yanaşılır, onlara xüsusi münasibət göstərilir. Onun sözlərinə görə, Azərbaycan xalqının özəlliyi ondan ibarətdir ki, insanlar, təkcə valideyn olmaqla kifayətlənmirlər, ümumilikdə uşaqlara xüsusi qayğı və diqqət göstərirlər. Çoxları övladı böyütməyi, onu ayağa qaldırmağı, tərbiyə etməyi həyatının məqsədi və mənası hesab edir.

Ulu öndər 1998-ci il iyunun 1-də Uşaqların Müdafiəsi Günü ilə bağlı çıxışında deyib: "Xalqımızın ən nəcib, ən gözəl keyfiyyətlərindən biri, atalarımızdan və ulu babalarımızdan bizə gəlib çatan ənənə ondan ibarətdir ki, Azərbaycan xalqı hər zaman uşaqlara məhəbbətlə yanaşıb".

Ümummilli lider H.Əliyevin "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında, Azərbaycan respublikasının qanunu"nda (19 iyun 2001-ci il) irəli sürdüyü əsas tələblər, şəxsiyyətin inkişafına təkan verən amillərdəndir.

Sağlamlıq imkanları məhdud uşaqların təhsil və tərbiyəsi – orta ümumtəhsil məktəblərində olduğu kimi, məktəbəqədər təhsil müəssisələrində də diqqət mərkəzindədir. Xüsusi qayğıya ehtiyacı olan bu uşaqların normal vətəndaş və şəxsiyyət kimi formalaşmasında elmin, təhsilin və tərbiyənin rolu böyükdür. Bu uşaqlar dövlət qayğısı ilə əhatə olunurlar.

Xüsusi təhsilin əsas məqsədi sağlamlıq imkanları məhdud şəxslərə həyat üçün zəruri olan bilik, bacarıq və vərdişlər aşılamaq, cəmiyyətə qovuşmalarını təmin etmək, özünə xidmət bacarıqlarını formalaşdırmaq, yaradıcı əmək fəaliyyətinə və ailə həyatına hazırlamaqdan ibarətdir.

Təhsil islahatlarında özünə yer alan inklüziv təhsilin prioritet istiqamətlərinin günün tələbləri səviyyəsində qurmaq üçün məktəbəqədər yaş dövründə uşaqların psixi inkişafında

baş verən dəyişiklərin nəzərə alınması, intellektual inkişafında çatışmazlığı olan uşaqların erkən yaş dövründə qüsurlarının aradan qaldırılması günün zəruri məsələlərindəndir.

Bu vəzifələrdən biri, ən vacibi insanın yüksək dünyagörüşə malik, öz milli mədəniyyəti, ədəbiyyatı, incəsənəti haqqında biliklər sisteminə yiyələnməsi, yaşadığı ölkənin dövlət quruculuğunda baş verən dəyişiklikləri dərk etməsi və həmin prosesdə iştirakının təmin edilməsidir. Böyüməkdə olan nəslin sağlam, firavan, xoşbəxt yaşaması ulu öndərin dövlət siyasətinin ən vacib istiqamətlərindən olub.

H.Əliyevin Azərbaycana rəhbərlik etdiyi bütün illərdə istedadlı uşaqlara qayğını dövlət əhəmiyyətli bir işə çevirmiş, burada möhkəm hüquqi baza yaratmışdır. "Azərbaycanda gənc istedadlara dövlət qayğısı haqqında " fərman imzalamış, həmin fərmanla gənc istedadların "Qızıl kitab"ı, eləcə də prezidentin xüsusi təqaüdü təsis edilmişdir. Sevindirici haldır ki, istedadlarımız internet vasitəsilə dünya uşaqları ilə bilik marafonuna qoşulur, müxtəlif müsabiqələrdə iştirak edirlər.

Bu gün ulu öndər Heydər Əliyevin bütün istiqamətlərdə, o cümlədən uşaqların hüquqlaqının qorunması və qayğı ilə əhatə olunması sahəsində müəyyənləşdirdiyi dövlət siyasəti Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən uğurla davam etdirilir. Dövlətimizin uşaqlara göstərdiyi diqqət və qayğı göz qabağındadır. Ölkəmizdə uşaqların sağlam böyümələri, onların hərtərəfli inkişafı üçün respublika Prezidenti cənab İlham Əliyev tərəfindən mühüm qərar və sərəncamlar verilir.

Prezident İlham Əliyevin 2008-ci il 22 dekabr tarixli sərəncamı ilə 2009-cu ilin "Uşaq ili" elan edilməsi Azərbaycan dövlətinin uşaqlara sonsuz qayğısının bariz təzahürü sayılır. Hazırda ölkəmizdə uşaq problemlərinin həlli istiqamətində onlarla dövlət proqramı və böyük layihələr həyata keçirilir. Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən uşaqlara dövlət qayğısının gücləndirilməsi,



uşaq problemlərinin həlli ilə bağlı vacib proqramlar reallaşdırılır. Xüsusilə valideyn himayəsindən məhrum olan, dövlət müəssisələrində tərbiyə olunuan uşaqların rifah halının yaxşılaşdırılması, hüquqlarının qorunması daim diqqətdə saxlanılır.

Heydər Əliyev Fondu tərəfindən məktəblərin, uşaq evləri və bağçalarının inşası, onların yenidən müasir tələblərə uyğun şəkildə qurulması, həmçinin digər sahələrdə də görülən işlər, gerçəkləşdirilən layihələr, proqramlar isə özünün uğurlu nəticələri ilə hamıda böyük sevinc və razılıq hissi oyatmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: "Uşaqlarımızın hərtərəfli şəxsiyyət və ölkəmizin layiqli vətəndaşı olaraq formalaşmaları müstəqil Azərbaycan Respublikasının dövlət uşaq siyasətinin aparıcı istiqamətini təşkil edir".

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və rəşadətli ordumuzun qəhrəmanlığı ilə torpaqlarımızın işğaldan azad edilməsi isə Azərbaycan uşaqlarının həyatında yeni bir mərhələ başladıb. Artıq uşaqlarımız məcburi köçkün deyil və ailələrilə birgə öz doğma ata-baba yurdlarına qayıdırlar. Qarabağda aparılan sürətli bərpa-quruculuq işləri azad edilmiş ərazilərimizdə tezliklə xoşbəxt uşaq gülüşlərinin eşidiləcəyinə əsas yaradır.

## ƏDƏBİYYAT

1.Əliyev H.Ə. Milli mənəvi və dini dəyərlərimiz haqqında bəyanatı. «Azərbaycan müəllimi» qəz., 2001, 16-22 avqust.

2.Əliyev H.Ə. və Azərbaycancılıq məfkurəsi: Bakı: Azərbaycan Universiteti. 2002. 231s. /Müəllif tərtibci prof. Səlahəddin Xəlilov.

3. Əliyev H.Ə. Azərbaycan Respublikasının gənclərinin I Forumundakı nitqi. «Dədə Qorqud dünyası» .

Bakı: «Öndər», 2004, 240 s.

4. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Bakı: «Azərnəşr», 2008. 408s.

5. Əliyev H.Ə. Aforizmlər. Bakı: «Azərbaycan universiteti» nəşriyyatı, 1997, 36 s. Şahlar Əsgərov, Səlahəddin Xəlilov, redaktoru Əli Həsənov.

6.Əliyev İ.H. «Dövlət və din: dəyişən dünyada tolerantlığın gücləndirilməsi». I. Beynəlxalq Forumun iştirakçılarına məktub. «Respublika» qəz., 20 dekabr 2012.

7.Əliyev İ.H.: Bakıda II Beynəlxalq Humanitar Forumu, 4- 5 oktyabr 2012. / «Xalq qəzeti» 5 oktyabr 2012.



**Elmar Hüseynov**

*Psixologiya üzrə fəlsəfə doktoru, professor*

## HEYDƏR ƏLİYEV VƏ XALQ TƏHSİLİ

Heydər Əliyev Azərbaycanın milli tarixində xüsusi yer tutan elə bir nadir tarixi şəxsiyyətdir ki, onun zəngin irsi hələ uzun müddət politoloqların, filosofların, tarixçilərin və tədqiqatçıların diqqət mərkəzində olacaqdır. O, Azərbaycan xalqının müstəqillik uğrunda mübarizəsində misilsiz xidmətləri sayəsində sağlığında əfsanəyə çevrilmiş və dünya azərbaycanlılarının sonsuz məhəbbətini qazanmışdır.

Heydər Əliyev bir siyasətçi kimi uzaqgörənliyini və qətiyyətini hələ ölkəyə ilk dəfə rəhbərlik etdiyi 1969-82-ci illərdə sübut etdi. Həmin illərdə Azərbaycanda dövlət quruculuğunda, iqtisadiyyatda, elmdə, mədəniyyətdə, bir sözlə, həyatın ən müxtəlif sahələrində böyük uğurlar əldə edildi; sürətli tərəqqi dövrünü yaşayırdı. Məhz həmin illərdə milli-mənəvi dəyərlərin qorunub saxlanması, dövlətçilik ənənələrinin, o cümlədən parlamentarizmin inkişafı, xalqın intellektual keyfiyyətlərinin nümayiş etdirilməsi üçün fundamental zəmin yaradılması istiqamətində əməli addımlar atıldı.

Heydər Əliyev təkcə indiki Azərbaycan dövlətinin qurucusu deyil, həm də haqlı olaraq ölkənin müasir parlamentinin qurucusu hesab olunur. Digər sosialist respublikalarında olduğu kimi, sovetlər dövründə də Azərbaycan parlamentinin qəbul etdiyi qanunlar və qərarlar Kommunist Partiyasının siyasi, iqtisadi və ideoloji məqsədlərinin həyata keçirilməsinə xidmət edirdi. XX əsrin 50-60-cı illərində ölkə milli-mənəvi dirçəliş istiqamətində bir sıra ehtiyatlı addımlar atsa da, bu sahədə məqsədyönlü fəaliyyət yalnız Heydər Əliyevin KP MK-nın birinci katibi seçilməsi ilə başlanmışdır. Azərbaycan.

Respublika rəhbəri kimi Heydər Əliyev ilk gündən bütün dövlət orqanlarının, o cümlədən parlamentin fəaliyyətini uzaqgörənliklə xalqın iqtisadi və sosial-mədəni tərəqqisinə, milli dirçəliş siyasətinin həyata keçirilməsinə yönəltdi. Mahir siyasətçi ali qanunverici orqanın mövcud imkanlarından məharətlə istifadə edərək milli oyanış və gələcək müstəqillik üçün möhkəm zəmin yaratdı.

Heydər Əliyevin həyata keçirdiyi kadr siyasəti bütün sahələrdə ən bacarıqlı, layiqli kadrların seçilməsinə şərait yaratdı, qanunverici orqan da istisna olmadı. Ali Şuranın işində böyük dönüş yarandı, parlamentdə ölkə həyatının müxtəlif sahələrini əhatə edən yeni daimi komissiyalar fəaliyyətə başladı. Respublikanın iqtisadi, mədəni və elmi inkişafı üçün qanunvericilik bazası yaradılmış, bu sahələrdə onlarla qanun və qərarlar qəbul edilmişdir. Bu dövrdə Heydər Əliyev respublikada qanunvericiliyin möhkəmləndirilməsi istiqamətində mühüm tədbirlərin təşəbbüskarı oldu.

Sovet dövründə Azərbaycanın ali qanunverici orqanı hakimiyyət strukturunda müxtəlif mövqe və mötəbər mərhələlərdən keçmişdir. Parlament 1937-ci ildə qəbul edilmiş yeni Konstitusiyaya əsasən Ali Şura adlandırılmışdır. Onun formalaşmasında müəyyən dəyişikliklər edilmişdir. Amma mürtəce sovet ideologiyasının hökmranlığı və misli görünməmiş repressiya miqyası insanları qorxu içində saxladı və dəyişikliklərin mahiyyətini xeyli azaldıb. Məhz bu səbəbdəndir ki, 1937-38-ci illərdə və ondan sonrakı illərdə seçilən deputatlar mütərəqqi fikirli ziyalıların məhv edilməsinə, torpaqların Ermənistana dəfələrlə verilməsinə etiraz edə bilmirdilər. Nəticədə 1938-ci il mayın 7-də Azərbaycan SSR Ali Soveti yuxarıdan təzyiq altında Laçın, Qubadlı, Kəlbəcər və Qazax rayonlarında 2 milyon hektar torpaq sahəsinin Ermənistana verilməsi haqqında protokolu təsdiqlədi. Bir müddət sonra, yəni 1969-cu il mayın 7-də Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti parlamentin 1938-ci il mayın 7-də qəbul etdiyi bu talesiz qərarı



bir daha təsdiq etdi. Amma tezliklə hakimiyyətə gələn Heydər Əliyev o dövrdə görünməmiş cəsarətin təzahürü olan bu qərarın həyata keçirilməsinə mane oldu. Sonralar SSRİ-nin yeni Konstitusiyası hazırlanarkən onun qəti mövqeyinə görə Dağlıq Qarabağın statusu dəqiq işlənmədi.

Heydər Əliyev Respublika rəhbəri kimi xalqın milli-mənəvi sərvətinin qorunub saxlanılması və inkişafı üçün qanunvericilik bazasını addım-addım genişləndirmiş, bunun üçün parlamentin səlahiyyətlərindən məharətlə istifadə etmişdir. Onun o dövrdə xalq qarşısındakı ən böyük xidmətlərindən biri də Azərbaycan dilinə dövlət dili statusu verməsidir. Belə ki, 1978-ci il aprelin 21-də IX çağırış Azərbaycan SSR Ali Sovetinin növbədənkənar VII sessiyasında ölkənin yeni Konstitusiyası qəbul edildi. Yeni Konstitusiyada respublika üçün ən önəmlisi Azərbaycan dilinin dövlət dili elan edilməsi ilə bağlı 73-cü maddənin qəbul edilməsi idi. Həmin dövrlərdə sovet ideologiyası sovet xalqının yeni tarixi insanlar birliyi kimi meydana çıxmasından danışırdı. Bu baxımdan, SSRİ daxilində rus dili dominant dil kimi implantasiya edildi. Belə bir şəraitdə 73-cü maddənin qəbulu yalnız Heydər Əliyevin sarsılmaz iradəsi sayəsində mümkün olmuşdur. Son dərəcə gərgin müzakirələr zamanı o, Sovet İttifaqının o vaxtkı rəhbərliyini bu qanunvericilik müddəasını qüvvədə saxlamağa inandıra bildi.

1970-ci və 1980-ci illərin əvvəllərində Azərbaycan parlamenti Heydər Əliyevin rəhbərliyi ilə respublikada gedən böyük quruculuq işlərinin hüquqi əsaslarının yaradılmasına mühüm töhfə vermişdir. Ali qanunvericilik orqanının fəaliyyətindəki canlanma Heydər Əliyev şəxsiyyəti, onun idarəçilik istedadı ilə sıx bağlı idi. Ümumiyyətlə, 1970-1985-ci illər Azərbaycanın yeni tarixinə quruculuq illəri kimi daxil oldu. Doqquzuncu, onuncu və on birinci beşilliklər ölkənin həyatında baş verən dəyişiklikləri, iqtisadiyyatda və sosial sahədə aparılan əsaslı struktur islahatlarının xarakterini, dövlət

büdcəsinin tələblərinin yüksəldilməsi nəzərə alınmaqla Azərbaycanın hərtərəfli inkişafında mühüm mərhələlər müəyyən etmişdir. insanların maddi rifahında.

Bu dövrdə Respublika iqtisadiyyatında böyük canlanma baş verdi. Yüzlərlə zavod və fabrik tikildi, yeni istehsal sahələri yaradıldı. Azərbaycan neft, əlvan metallar və sintetik kauçuk istehsalı, o cümlədən neft avadanlığı, polad borular, elektrik mühərrikləri, tikinti materialları, məişət kondisionerləri, avtomobil ehtiyat hissələri, mineral gübrələr, çini və keramika qab-qacaq, xalça və kilimlər.

Həmin illərdə Azərbaycanda çoxlu binalar - həm mədəniyyət müəssisələri, həm də yaşayış binaları üçün tikilib. Onların hamısı müasir memarlıq üslubunda hazırlanmışdır. Eyni zamanda Azərbaycan parlamentinin indiki inzibati binası tikilib. Böyük əhəmiyyət kəsb edən bu bina Sovet İttifaqında analoqu olmayan, məhz Heydər Əliyevin təşəbbüsü ilə təsdiq edilmiş memarlıq üslubunda inşa edilmişdir.

Heydər Əliyev parlamentin cəmiyyətin və dövlətin həyatında oynadığı rolu yaxşı başa düşürdü və buna görə də həm Azərbaycan SSR Ali Sovetinin deputatı, həm də respublikanın rəhbəri olmaqla ali qanunvericilik orqanı ilə sıx əlaqədə fəaliyyət göstərirdi. O, doqquzuncu, onuncu və on birinci beşilliklərə aid olan proqramların parlament tərəfindən təsdiq edilməsində və respublikanın illik büdcələrinin təsdiqində bilavasitə iştirak edirdi. O, həmçinin parlamentarizm ənənələrinin dirçəldilməsi və inkişaf etdirilməsi üçün əlindən gələni edib, ali qanunvericilik orqanının fəaliyyəti ilə bağlı tövsiyələrini verib. Heydər Əliyev Azərbaycan SSR Ali Sovetinin və SSRİ Ali Sovetinin tribunalarından məharətlə istifadə edir, Moskvadakı deputat qrupunun fəaliyyətini də respublikanın mənafeyinə yönəldirdi.

Məhz bu məqsədyönlü siyasətin məntiqi nəticəsi ondan ibarət idi ki, sovet ideologiyasının bölünməz hökmranlığı dövründə Heydər Əliyev Azərbaycana fikir plüralizmi,



demokratik və azad düşüncə tərzi, güclü sosial ədalət hissi və milli kimlik gətirdi. Gənclərimiz qabaqcıl ittifaq elm və təhsil mərkəzlərində lazımi ixtisaslara yiyələnmişlər; milli kadrlar korpusu yaradıldı. Həmin dövrdə əldə edilən nailiyyətlər gələcəkdə müstəqil Azərbaycan dövlətinin yaradılmasına yol açdı. Həmin illərdə Heydər Əliyev nəinki vətəni olan Azərbaycanı yeni zirvələrə qaldırdı, həm də zəngin idarəçilik və dövlətçilik təcrübəsi topladı, nəticədə dünyanın ən görkəmli siyasi və dövlət xadimlərindən birinə çevrildi.

Heydər Əliyev Sovet imperiyasının tərkibində yaşadığı dövrü belə səciyyələndirmişdir: "Bu illər xalqımız üçün bir tərəfdən faciələr, itkilər, məşəqqətlər illəri olsa da, digər tərəfdən, xalqımızın ümummilli liderinə çevrilməsində müsbət rol oynamışdır. Xalqımızın maariflәndirilməsində, onların təhsil almasında və onun inkişafında Azərbaycanda böyük iqtisadi potensialın yaranması və xalqımızın dünya mənəvi dəyərlərinə tanıdılmasıdır".

Heydər Əliyev harada çalışdısa, həmişə xalqına, Vətəninə inamla, həqiqətlə xidmət edib, doğma Azərbaycanla əlaqəni heç vaxt kəsməyib və Moskvada SSRİ rəhbərliyində təmsil olunduğu dövrdə də respublikanın inkişafı üçün əlindən gələni edirdi. Kremli - siyasi Olimpi fəth edən Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi ona həvalə edilmiş bütün sahələrdə inzibati-hökumət məharətini nümayiş etdirərək çox keçmədən tərəqqiyə nail oldu. Bu, onun xarizmatik şəxsiyyəti və özünəməxsus şəxsi keyfiyyətləri idi. Bu istedadlı dövlət xadiminin səyləri təkcə Sovet İttifaqında deyil, onun hüdudlarından kənarda da geniş əks-səda doğurdu. Təəccüblü deyil ki, xarici mətbuat onu "Sovetlərin Dəmir Müsəlman Rəhbəri" və "Kreml Türkü" adlandırırdı.

1980-ci illərin sonunda, Mixail Qorbaçovun hakimiyyəti dövründə sovet rəhbərliyi açıq şəkildə müsəlman respublikalarının böyüməsinə mane olurdu və onların xalqına ikinci dərəcəli vətəndaş kimi yanaşırdı. Uydurma "yenidən-

qurma" ya gəlincə, o, artıq öz acı bəhrəsini verib. O vaxt ölkənin Ali rəhbərliyində təmsil olunan Heydər Əliyevin bu məsələdə tutduğu prinsipial mövqe onun istefaya getməsinə, KP MK Siyasi Bürosunun və SSRİ hökumətinin tərkibindən çıxmasına səbəb oldu.

Bunun ardınca Mixail Qorbaçov və onun ətrafındakı erməni millətçi dairələri Azərbaycana qarşı hiyləgər təzyiqlərini daha da artırdılar. Tezliklə Azərbaycanı parçalamaq, etik münaqişəyə cəlb etmək məqsədi ilə qondarma Dağlıq Qarabağ problemi gündəmə gətirildi. Xalq ədalətli etiraz səsini ucaldanda, azadlıq arzusunu bəyan edəndə qanlı 20 Yanvar faciəsi səhnəyə qoyuldu. Bakının küçələri ilə silahsız əhaliyə qarşı sovet tankları göndərildi.

Bu qanlı aksiya nəticəsində Bakıda və respublikanın rayonlarında 131 nəfər həlak olub; 744 nəfər yaralanıb, 841 nəfər isə nəzarətə götürülüb. Bu, sözün tam mənasında, "ayağa qalxmış xalqın inam və iradəsini sındırmaq, milli ləyaqətini alçaltmaq, sovet hərbi maşınının qüdrətini nümayiş etdirmək üçün" törədilmiş qanlı cinayət idi. (HEYDƏR ƏLİYEV, 20 Yanvar faciəsinin 13-cü ildönümünə həsr olunmuş tədbirdəki çıxışından, 19 yanvar 2003-cü il).

Həmin faciəli günlərdə Heydər Əliyev xalqın yanında olduğunu bir daha təsdiqlədi. O, respublikanın Moskvadakı daimi nümayəndəliyinə gələrək Mərkəzin və Azərbaycan rəhbərliyinin xəyanətkar mövqeyini ifşa edən bəyanatla çıxış edib. Bu cəsarətli siyasi bəyanat təkcə Azərbaycanda deyil, bütün keçmiş SSRİ-də yeni dövrün başlanğıcını qeyd etdi (Bəyanatın mətni).

Sovetlər İttifaqında Heydər Əliyevin böyük nüfuzundan qorxan şovinistlər onun hər bir addımını izləməyə, onu ölkədə gedən proseslərdən təcrid etməyə çalışırdılar. Heydər Əliyev Moskvanın bütün təzyiqlərinə baxmayaraq, Azərbaycana qayıtmaq arzusunu gizlətmirdi. Mərkəz bu istəyin həyata keçməməsi üçün əlindən gələni etdi. Onu gözləyən bütün



təhlükələrə baxmayaraq, öz xalqının taleyinə biganə qala bilməyən böyük siyasətçi 1990-cı il iyulun 20-də Vətənə qayıdır. Amma ona Bakıda yaşamaq imkanı verilmədiyi üçün iyulun 22-də Heydər Əliyev doğulub boya-başa çatdığı Naxçıvana üz tutdu.

Naxçıvan əhalisi Heydər Əliyevi izdihamla qarşıladı. Xalqı "boğan" mənəvi iztirablar, insanların yaşadığı siyasi, sosial, hərbi və mənəvi böhran dövründə onun Naxçıvana qayıtması respublika əhalisi arasında böyük ruh yüksəkliyi yaratmış, gələcəyə inam yaratmışdır. Heydər Əliyevin nüfuzu təkcə Naxçıvanda deyil, bütün respublikada kifayət qədər yüksək idi. Bu isə o vaxtkı hökuməti və rəsmi Moskvanı narahat edirdi. Əslində, Heydər Əliyev siyasi hakimiyyətə qayıtmaq niyyəti olmadan vətənə qayıtdı. Sonralar 12-ci çağırış Azərbaycan SSR Ali Sovetinin birinci sessiyasında (9 fevral 1991-ci il) çıxış edərək bu haqda belə danışırdı: "...Mən Vətən torpağına ona görə gəlməmişəm. Yenidən hakimiyyətə gəlmək,... ancaq bu çətin və çətin zamanda dərdini xalqla bölüşmək üçün. Vətəndaşlıq borcumu yerinə yetirmək, azadlıq mübarizəsinə qoşulmaq - ona görə buradayam. Məni, azərbaycanlını heç kim bu hüquqdan məhrum edə bilməz..."

Bu arada Heydər Əliyev fenomeni hakimiyyəti hədsiz dərəcədə narahat edirdi və ona qarşı hər cür təzyiq tədbirləri tətbiq olunurdu. Lakin 1990-cı il sentyabrın 30-da Azərbaycan SSR xalq deputatları və yerli xalq deputatları Sovetləri seçkilərində xalq görkəmli siyasətçini qeyd-şərtsiz dəstəklədi. Seçkilərin birinci turunda Heydər Əliyev 340 saylı Neqram seçki dairəsindən Azərbaycan SSR xalq deputatı, 2 saylı M.F.Axundov seçki dairəsindən isə Naxçıvan MSSR xalq deputatı seçilmişdir.

O zaman ölkənin hər yerində olduğu kimi Naxçıvanda da vəziyyət son dərəcə gərgin idi. Erməni separatçılarının Dağlıq Qarabağda törətdikləri vəhşiliklər, respublika rəhbərliyinin çaşqınlığı və Mərkəzin Azərbaycana qarşı qərəzli münasibəti

ölkəni böhran həddinə çatdırıb. Sovet İttifaqı son günlərini yaşayırdı. Respublikanın tərəddüdlü rəhbərliyi taleyin bəxş etdiyi nadir tarixi müstəqillik şansından yararlana bilmədiyini nümayiş etdirdi. Heydər Əliyev İttifaqın dağılacağını qabaqcadan görərək Azərbaycanın müstəqillik ulduzunun yenidən parlayacağına ürəkdən inanırdı.

Belə çətin vaxtlarda o, Naxçıvanda dövlətçilik ənənələrini bərpa etməyə başladı. Məhz onun təşəbbüsü ilə 1990-cı il noyabrın 17-də muxtar respublikanın ali qanunverici orqanı üzərində Xalq Cümhuriyyətinin üçrəngli bayrağı qaldırıldı. Heydər Əliyevin sədrliyi ilə keçirilən həmin tarixi sessiyada muxtar respublikanın adından "sovet sosialisti" sözləri çıxarıldı, qanunverici orqanın adı dəyişdirilərək "Ali Məclis" oldu. Bunun ardınca 1991-ci il fevralın 5-də Azərbaycan Parlamenti respublikanın adının dəyişdirilməsi və dövlət bayrağı haqqında qərar qəbul etdi. O zaman Naxçıvan parlamenti sözün əsl mənasında Azərbaycan parlamenti üçün örnək idi.

1991-ci ildə Ali Sovet SSRİ-nin saxlanılması üçün referendumun keçirilməsi məsələsini müzakirə edəndə Heydər Əliyev dərin mənalı nitq söylədi. O, çıxışında Sovet İttifaqında və Azərbaycanda yaradılmış ictimai-siyasi vəziyyəti təhlil edərək, Sovet İmperiyasının süquta doğru getməsinin lehinə güclü arqumentlər irəli sürdü və Azərbaycanın gələcək müstəqilliyini təmin etmək üçün zəruri addımlar atmasının vacibliyini vurğuladı.

Heydər Əliyevin və demokratik qüvvələrin ciddi etirazlarına baxmayaraq, respublika parlamenti SSRİ-nin saxlanması üzrə referendumda Azərbaycanın iştirakı haqqında qərar qəbul etdi. Azərbaycan Kommunist Partiyası və onun yerli strukturları tərəfindən zorla keçirilən bu referendumda Naxçıvan Muxtar Respublikası təkcə Heydər Əliyevin təşəbbüsü ilə iştirak etməyib.



Parlament o dövrdə atdığı yanlış addımlar ucbatından xalqın dəstəyini itirdi və hakimiyyətin əlində oyuncaq mexanizmə çevrildi. Parlament binasını mühasirəyə alan xalq kütlələrinə məhəl qoymayan hakimiyyət onların siyasi iradəsini diktə etməyə çalışıb. Vəziyyət getdikcə gərginləşdi. Belə bir məqamda iqtidar-müxalifət arasında sui-qəsd nəticəsində Ali Şuranın səlahiyyətləri paritet əsaslarla yaradılan 50 nəfərlik Milli Şuraya verildi. Yerdə qalan 210 deputatın hüquqları kobud şəkildə tapdalanıb.

Ali Şuranın antidemokratik tədbirləri bununla bitmədi: parlamentdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyevin siyasi fəaliyyətinin məhdudlaşdırılmasına yönəlmiş qərarlar qəbul edildi. Məsələn, Naxçıvan Muxtar Respublikası parlamentinin sədrinin həm də Azərbaycan parlamenti sədrinin müavini olması proseduru ləğv edilib. Bundan başqa, ölkə prezidentinin seçilməsi üçün yaş məhdudiyyəti tətbiq edilib və s. Təəssüf ki, sonradan AXCP-Müsavat cütlüyünün hakimiyyəti dövründə Azərbaycan parlamenti üzərinə düşən vəzifələri layiqincə yerinə yetirə bilmədi.

Zaman sübut etdi ki, Heydər Əliyev haqlı idi. Həmin illərin hadisələrinin məntiqi inkişafı kimi 1991-ci il oktyabrın 18-də Azərbaycan Ali Soveti "Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul etdi. Təəssüf ki, o dövrün rəhbərliyi müstəqilliyin ilk illərində üzərinə düşən məsuliyyəti tam dərk edə bilmədi. Bu, siyasi qeyri-sabitlik nümayiş etdirdi və bu, ölkəni iqtisadi, siyasi və mənəvi uçuruma doğru itələdi.

Belə bir şəraitdə Heydər Əliyev naxçıvanlıların təkidli tələbi ilə muxtar respublika Ali Məclisinin sədri seçildi. Bu, 3 sentyabr 1991-ci ildə baş verdi. O, muxtar respublikaya rəhbərlik etdiyi ilk gündən dövlət və hərbi quruculuğa, idarəetmənin səmərəliliyinin artırılmasına, iqtisadi islahatların həyata keçirilməsinə, xarici dövlətlərlə əlaqələrə ciddi diqqət yetirməyə başlamışdı.

Milli Məclisdə 60-dan çox ölkənin parlamentləri ilə əlaqələr üzrə işçi qruplar yaradılıb. Parlament nümayəndə heyətləri tez-tez xaricə səfərlərə gedir, Milli Məclisdə xarici ölkələrin siyasi və dövlət xadimləri, millət vəkilləri ilə görüşlər keçirilir. Bütün bunlar qanunvericilik təcrübəsinin toplanması və məlumat mübadiləsi üçün çox vacibdir. Azərbaycan Parlamenti ölkənin beynəlxalq əlaqələrinin inkişafına öz layiqli töhfəsini verir.

Azərbaycanda prezidentlə parlament arasında münasibətlərin yüksək səviyyədə olmasının ən bariz nümunələrindən biri Milli Məclisin 2001-ci il fevralın 23-24-də Ermənistanla Azərbaycan arasında Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli prosesini müzakirə etmək üçün keçirilən iclasıdır. - Qarabağ. Heydər Əliyev bu müşavirədə Dağlıq Qarabağ problemi ilə bağlı prosesləri şərh edərkən haqlı olaraq qeyd etdi ki, Azərbaycan xalqını ruhlandıran milli qürur və oyanış hissləri xalqın iradəsi kimi meydanlara toplaşsaydı, vəziyyət bu qədər mürəkkəbləşməzdi.

Dövlət başçısının iştirakı ilə keçirilən müşavirəyə ölkədə fəaliyyət göstərən siyasi partiyaların, qeyri-hökumət təşkilatlarının nümayəndələri, o cümlədən ziyalılar, geniş ictimaiyyət dəvət olunub. Bu, prezidentlə xalq arasında əsl məsləhətləşmə idi. Milli Məclisdə belə mühüm tədbirin keçirilməsi, şübhəsiz ki, Heydər Əliyevin parlamentin yüksək nüfuzunu dəstəkləməsindən xəbər verirdi.

Heydər Əliyev parlamentarizm ənənələrinin inkişafına müstəqilliyimizin qorunub saxlanması və daha da möhkəmləndirilməsi prizmasından baxır, bu sahəni dövlətçilik ideologiyasının tərkib hissəsi hesab edirdi. O, dəfələrlə qeyd edib ki, müstəqil Azərbaycan XX əsrin əvvəllərində mövcud olmuş Xalq Cümhuriyyətinin varisidir. Bugünkü Milli Məclis hakimiyyətin mühüm qollarından biri kimi irsiyyət prinsipinə əməl edir, parlamentarizm ənənələrini inkişaf etdirir.



Ulu öndər Heydər Əliyev müstəqillik illərində də elm və təhsilin inkişafını diqqətdən kənarda qoymamış, o cümlədən elm-təhsil problemlərinə kompleks şəkildə yanaşmışdır. Ölkə başçısı bu sahədə mövcud olan problemlərin aradan qaldırılması və Azərbaycanda dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsinə uyğun təhsil strategiyasının həyata keçirilməsi məqsədilə ciddi tədbirlər həyata keçirmiş, mühüm tarixi fərman və sərəncamlar imzalamışdır. Məsələn, 2002-ci il oktyabrın 4-də ölkə başçısının imzaladığı "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin müvafiq texniki bazasının möhkəmləndirilməsi haqqında" sərəncamı milli elm və təhsil sisteminin inkişafında vacib amillərdən biri kimi qiymətləndirilir. Bu sərəncam ümumtəhsil məktəbləri şəbəkəsinin genişləndirilməsinə, maddi-texniki bazasının möhkəmləndirilməsinə etibarlı zəmin yaratmışdır. "Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair proqramın (2003-2007-ci illər) təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 17 fevral 2003-cü il tarixli sərəncamı da ölkədə bu sahədə yaranmış problemlərin aradan qaldırılması yönümündə müstəsna əhəmiyyətə malik dövlət sənədi olmuşdur.

Qeyd olunduğu kimi, Ulu öndərin təhsil siyasəti konsepsiyasına əsaslanaraq demək olar ki, elm və təhsil iki müstəqil sahəni ehtiva etsə də onların birini digərindən təcrid etmək mümkün deyildir və bu baxımdan elm-təhsil problemlərinə kompleks şəkildə yanaşılmışdır. Hər iki istiqamət ümumi dövlət siyasətinin tərkib hissələrindən olduğundan və strateji mahiyyət daşıdığından onların inteqrasiyası da labüddür. Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyi dövrünə nəzər yetirsək, görərik ki, elm ilə təhsilin inteqrasiyası istiqamətində də çox önəmli işlər görülmüşdür. Əslində, bu iki müstəqil sistemin həmişə

qarşılıqlı əlaqəli şəkildə inkişafı labüddür. Çünki elmin təhsilsiz, təhsilin isə elmsiz mövcudluğu qeyri-mümkündür.

İnkişaf etmiş ölkələrin təcrübəsi də sübut edir ki, fundamental tədqiqatlar aparılmayan ölkələrdə yüksək keyfiyyətə malik təhsil haqqında danışmaq mənasızdır. Eyni zamanda, harada ki baza rolunu oynayan keyfiyyətli orta təhsil yoxdursa, orada geniş əhatəli fundamental tədqiqatlar aparılması qeyri-mümkündür. Ümumiyyətlə, dövlətin iqtisadi qüdrətini, onun elm tutumlu və rəqabətə davamlı məhsulunun istehsalını elmi tədqiqatların, xüsusən fundamental tədqiqatların səviyyəsi, əhatəliliyi və yüksək ixtisasa malik milli kadrlar müəyyən edir. Başqa sözlə desək, müasir dünya gerçəkliklərinə yaxından bələd olan, müasir texnika və texnologiyanı mənimsəyən kadrlar yetişdirmədən, eləcə də ölkədə həyata keçirilən islahatları elmi baxımdan əsaslandırmadan mövcud təbii-iqtisadi resurslardan tam və səmərəli istifadə etmək və arzu edilən iqtisadi inkişaf səviyyəsinə nail olmaq qeyri-mümkündür. Bu baxımdan Azərbaycan Milli Elmlər Akademiyası ölkənin texniki-texnoloji, eləcə də sosial-iqtisadi inkişafının avanqardına çevrilməlidir. Məhz bu reallığı nəzərə alaraq Ulu öndər Heydər Əliyevin "Milli Elmlər Akademiyası sistemində yüksək ixtisaslı elmi kadrlar hazırlayan təhsil qurumlarının, respublikada prioritet istiqamətlərdə müstəqil fəaliyyət göstərən dövlət elm-təhsil mərkəzlərinin işi daim gücləndirilməli və zənginləşdirilməlidir" fikri də akademiyanın potensialının və texniki bazasının gücləndirilməsinə, ölkədə fundamental elmi tədqiqatların aparılmasına yönəlmişdir.

Təbii ki, bu prosesdə inteqrasiyanın vacib amillərindən biri də AMEA-da çalışan müxtəlif ixtisaslı alimlərin birgə proqramlar üzərində işləməsi, ölkənin hərtərəfli inkişafını təmin etməyə qadir olan kompleks inkişaf proqramları işləyib hazırlaması olduqca vacib şərtdir. Belə proqramların həyata keçirilməsi elmi kadr potensialının inkişafına və təhsil



səviyyəsinin yüksəlməsinə gətirib çıxarar ki, bu da tədqiqatların sürətlənməsinə, eləcə də nəzəri-praktiki əhəmiyyətinin artmasına kömək edər.

Bu da danılmaz faktdır ki, ulu öndər Heydər Əliyevin təhsil siyasəti konsepsiyasına əsasən Ali məktəblərimizin əksəriyyətində təhsil alan gənclərin elmi-tədqiqat işlərinə cəlb olunması üçün, demək olar ki, lazımi şərait yaradılmışdır. Son dövrlər hər il tələbələrin müxtəlif fənlər üzrə respublika olimpiadaları, konfranslar, aspirantların və gənc tədqiqatçıların respublika simpoziumları, müsabiqələr keçirilir ki, bu da elmə, elmi tədqiqatlara olan marağı daha da artırır. Eyni zamanda, araşdırmalardan aydın olur ki, 1998-ci ildən bu günə qədər elmi-tədqiqat müəssisələrinin və ali məktəblərin 1500-dən artıq əməkdaşı müxtəlif ölkələrdə - ABŞ, Böyük Britaniya, Polşa, Rusiya, Türkiyə, Almaniya, Yunanıstan və başqa ölkələrdə yaradıcı ezamiyyətlərdə olmuş, Azərbaycan elmini yüksək səviyyədə təmsil etmişlər. Nəzərə alsaq ki, istənilən sahədə, o cümlədən elmdə sürətli inkişafın başlıca amillərindən biri də çevik inteqrasiya və beynəlxalq əməkdaşlıqdır, onda yuxarıda qeyd edilənlər də Azərbaycan elminin inkişafı istiqamətində atılmış mühüm addım kimi qəbul edilə bilər.

Bütün sahələrdə olduğu kimi, Azərbaycan elminin də inkişafı istiqamətində ümummilli lider Heydər Əliyevin siyasəti bu gün islahatların zəruriliyinə ciddi diqqət yetirən ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Təbii ki, yuxarıda qeyd edildiyi kimi, keyfiyyətli orta təhsili olmayan, yəni baza təhsilinə malik olmayan insanların ciddi elmi araşdırmalar aparması qeyri-mümkündür. Bu baxımdan da, elmin və elmi tədqiqatların inkişafından söhbət gedirsə, ilk növbədə orta ümumtəhsil sisteminə diqqət yetirilməsi zəruridir. Təbii olaraq, elm və təhsilə göstərilən diqqətin nəticəsidir ki, ümummilli lider Heydər Əliyev özünün milli dövlət quruculuğu strategiyasında təhsil siyasətinə dövlətçiliyin təməl prinsiplərindən biri kimi yanaşmış, bu

sahəyə diqqət və qayğısını həmişə önə çəkmişdir. Ulu öndər təhsilin dünya standartlarına uyğun inkişafı, müəllimlərin, elm adamlarının əməkhaqlarının artırılması, məktəb şəbəkəsinin genişləndirilməsi ilə bağlı onlarla tarixi əhəmiyyətli fərman və sərəncamlar, islahat və dövlət proqramlarını təsdiq edən sənədlər imzalamışdır ki, bunlar da birbaşa elmdə və təhsildə problemlərin həllinə yönəlmişdir.

Məxsusi olaraq qeyd olunmalıdır ki, islahatların keçirilməsi təhsil siyasətinin mühüm amillərindəndir. Ümummilli lider Heydər Əliyevin Azərbaycanda təhsil siyasətini uğurla davam etdirən cənab İlham Əliyevin bircə sərəncamına diqqət yetirməklə onun strateji mahiyyətinə aydınlıq gətirə bilərik. Ölkə başçısının "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramının (2005-2007-ci illər) təsdiq edilməsi haqqında" 21 avqust 2004-cü il tarixdə imzaladığı sərəncam bu günümüz üçün zəruri olan informasiya texnologiyalarından müasir tələblərə uyğun istifadə problemlərinin həlli baxımından strateji əhəmiyyət kəsb edir. Təbii olaraq, bu tarixi sənəd indiyədək bu sahədə mövcud olan boşluqların doldurulmasına, dünyəvi təhsilə inteqrasiya yönümündə çatışmazlıqların aradan qaldırılmasına, gənc nəslin müasir standartlara uyğun daha dərindən savadlanmasına önəmli kömək göstərir. Artıq bu günün reallıqları sübut edir ki, Heydər Əliyevin siyasi kursuna uyğun aparılan islahatlar müsbət nəticələr verir və Azərbaycan dövlətini bütün dünyada layiqincə təmsil etməyə, eləcə də ölkənin hərtərəfli inkişafında yaxından iştirak etməyə qadir olan gənc nəslin yetişməsinə şərait yaradır. Milli Tərbiyə Konsepsiyasının hazırlanması, təhsilin məzmununda inteqrasiya modellərinə keçid, təhsil sisteminin kompyuterləşdirilməsi və informasiyalaşdırılmasına dair Dövlət Proqramının təsdiqi və praktiki tətbiqi, təhsildə elmi istiqamət faktorlarının gücləndirilməsi, təhsillə elmin vəhdətini təmin etmək məqsədilə prioritet sahələr üzrə elmi



araşdırmaların, tədqiqatların aparılmasının intensivləşdirilməsi, dünya təhsil sisteminə inteqrasiyanın gücləndirilməsi məqsədilə proqramlar, layihələr üzərində fəaliyyətin müntəzəm olaraq davam etdirilməsi və digər məsələlərdən strateji istiqamətlər aydın görünür. Ulu öndər Heydər Əliyevin elm və təhsil siyasətinin prioritetlərindən biri də hər iki sahənin idarə edilməsinə yeni yanaşmanın olmasıdır. Belə ki, əgər güclü təhsil sistemi gələcəyin elmi tədqiqatçılarının hazırlanmasına xidmət edirsə, elmi araşdırmalar da, öz növbəsində, ölkənin ayrı-ayrı sahələrinin müasir tələbata və qabaqcıl təcrübəyə uyğun inkişafını təmin etməlidir. Biz bugünki gündə Ulu öndər Heydər Əliyevin təməli qoyduğu xalq təhsilinin bəhrələrini görürük.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev müqəddəs ata vəsiyyətini yerinə yetirərək otuz ilə yaxın düşmən tapdağı altında qalmış torpaqlarımızı işğaldan azad etdi, şanlı Azərbaycan bayrağını vətənimizin qürur simvolu olan Şuşada dalğalandırdı. İndi öz ərazi bütövlüyünü tam təmin etmiş Azərbaycan regionda və dünyada tamamilə yeni geosiyası reallıqlar yaratmış, onun nüfuzu beynəlxalq miqyasda əhəmiyyətli dərəcədə yüksəlmişdir.

Bu yeni reallıqlar şəraitində ümummilli lider Heydər Əliyevin doğum günü xüsusi simvolik məna daşıyır. Ulu öndərin amalı yaratmaq, məramı qurmaq, məqsədi xalqa xidmət etmək idi. Çünki bütün ömrünü Azərbaycan idealına həsr etmiş Heydər Əliyev üçün ərazi bütövlüyünün bərpa olunması, Qarabağın düşmən tapdağından azad edilməsi ən müqəddəs amal idi. Bu amalı gerçəkləşdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə hazırda işğaldan azad edilmiş ərazilərin bərpası və inkişaf etdirilməsi istiqamətində kompleks tədbirlər həyata keçirilməkdə, Heydər Əliyevin canı qədər sevdiyi doğma Vətəni onun müəyyənləşdirdiyi strateji xətt üzrə öz inkişafının yeni mərhələsinə qədəm qoymaqdadır. Ulu öndər böyük siyasi

uzaqgörənliklə bu günləri hələ neçə onillər bundan əvvəl aydın şəkildə görürdü. O, 90-cı illərin əvvəllərində ölkədə olduqca acınacaqlı sosial-siyasi durumun olduğu bir şəraitdə, Qarabağın düşmən tapdağında qaldığı bir vaxtda inam və qətiyyətlə bildirirdi ki, gün gələcək Azərbaycan xalqı öz ərazi bütövlüyünü bərpa edəcək.

Dahi siyasətçi Heydər Əliyevin belə uzaqgörənliyi bir yandan özü tərəfindən ölkənin strateji inkişafı üçün müəyyənləşdirilən siyasi xəttin perspektivinə əminlikdən, digər yandan isə, bu siyasi kursun varislərinə inamdan qaynaqlanırdı. Zaman Heydər Əliyevin nə qədər haqlı, müdrik və uzaqgörən olduğunu həmişə olduğu kimi yenə də təsdiq etdi. Heydər Əliyevin siyasi varisi İlham Əliyevin intellektual potensialı, vətənpərvərliyi, genetik əsasa dayanan dönməz iradəsi xalqımızın bu böyük arzusunu reallığa çevirdi.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Ulu öndər Heydər Əliyev kimi xalqın təhsilinə böyük önəm verir. "Hər bir ölkənin bu günü və gələcəyi təhsillə bağlıdır. Təhsilin səviyyəsi, eyni zamanda, elmi-texniki tərəqqini də böyük dərəcədə şərtləndirir. İnkişaf etmiş ölkələrin təcrübəsin baxdıqda, görünür ki, onları inkişaf etmiş ölkələrə çevirən təbii resurslar yox, məhz bilik, savad və elmin inkişafıdır." Bu fikirləri Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyev iyulin 27-də Emin Əmrullayevi Təhsil Naziri təyin olunması ilə əlaqədar videoforumda qəbul edərkən demişdi.

Məlim olduğu kimi müasirləşdirməni strateji hədəf kimi müəyyənləşdirən Azərbaycanda da təhsil dünyanın qabaqcıl ölkələrinin təcrübəsi nəzərə alınmaqla dövlət siyasətinin prioritetlərindən biri kimi müəyyənləşdirib. Son illər Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq qızılın kapitalına çevirilməsi, təhsilin keyfiyyətinin yüksədilməsi, gənclərin innovasiyalara çevrilməsi, təhsilin keyfiyyətinin yüksədilməsi, gənclərin



innovasiyalara, yeni texnologiyalara çıxış imkanlarının genişləndirlməsi məqsədilə böyük həcmli işlər görülüb.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən qarşıya qoyulan vəzifə Azərbaycan xalq təhsili ən yüksək tələblərə cavab verməlidir. "Təhsil sahəsində bu günə qədər aparılan islahatlar daha da dərinləşməlidir. Təhsil ölkəmizin ümumi inkişafına yuğun şəkildə inkişaf etməlidir və ən müasir tələblərə cavb verməlidir", deyə dövlətimizin başçısı vurğulayıb.

Ulu öndərin Heydər Əliyevin xalq təhsilinin səviyyəsinin yüksəldilməsinə yönəlmiş planları yaşayır və inkişaf edir.

**Pərişan Həsənova**
*Pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

# HEYDƏR ƏLİYEV İRSİNDƏ MULTUKULTURAL DƏYƏRLƏR VƏ PEDAQOJİ PROSESDƏ ONUN NƏZƏRƏ ALINMASI

Müasir qloballaşma bir tərəfdən elmi-texniki tərəqqini dəstələyərək sürətli inkişafı real həyata daxil etməklə müasir insanın şüurunda dərin inqilablar yaradır. Digər tərəfdən də bu mütərəqqi dəyişikliklər, dövlətlərarası əlaqələrin genişlənməsi, şüurda baş verən müxtəliflik milli-əxlaqi dəyərlərə müəyyən təhlükələr gətirir. Elə bir dövrdə yaşayırıq ki, artıq cəmiyyət vətəndaşını təkcə öz ölkəsi üçün böyütmür. Bu gün ölkəmizdə böyüyən hər bir yeniyetmə sabah dünyanın istənilən ölkəsində yaşaya bilər. Dünyaya inteqrasiya etdiyimiz bir vaxtda övladlarımız həyata, real aləmə öz baxış və ideallarında, dünyagörüşündə tamam fərqli- açıq, sərbəst və tənqidi mövqedədirlər. Bu xüsusiyyətlərin mütərəqqi cəhətləri ilə yanaşı, bizim üçün diqqət çəkən (mən deyərdim ki, qorxulu) tərəfləri də vardır. Biz yaşlı nəsil nə qədər təmiz, nə qədər məsuliyyətli, nə qədər diqqətli olmalıyıq və hər şeyi olduğu kimi çatdırmalıyıq ki, gənc nəsil bizdən öyrənsin, bizə etibar etsin və tərəddüdsüz bizimlə fəxr etsin. Bunun bir yolu var: tariximizi öyrənməli, öyrənməli, öyrənməli və düzgün nəticə çıxarmalıyıq. Elə bir vətəndaş yetişdirmək lazımdır ki, dünyanın hansı məkanında yaşamasından asılı olmayaraq o, vətənini təmsil etməyi bacarmalı, özünü vətəninin bir hissəsi hesab edərək tələbat və maraqları, dünyagörüşü və siyasi baxışları ilə bu istiqamətə köklənmiş olsun. Hər bir gəncin Azərbaycan dövlətinin mənafeyi mövqeyindən çıxış etməsi zəmanəmizin tələbidir. Eyni zamanda hər bir gənc müxtəlif mədəniyyətlərin, sivilizasiyaların xüsusiyyətlərini, tarixini,



sosial-mədəni inkişaf yolunu bilmədən birgə yaşaya bilməz. Ölkəmizdə hər kəsin milli kimliyi onun özünü azərbaycanlı kimi hiss etməyinə heç bir maneə törətmir. Hər kəs öz dilində danışa və yaza bilər. Azərbaycan Respublikasının Konstitusiyasının 45-ci maddəsində göstərilir ki, "... hər kəsin ana dilindən istifadə etmək hüququ, hər kəsin istədiyi dildə tərbiyə və təhsil almaq, yaradıcılıqla məşğul olmaq hüququ vardır. Heç kəs ana dilindən istifadə hüququndan məhrum edilə bilməz". Bu gün dinlərarası dözümlülük, qarşılıqlı hörmət və əməkdaşlıq vacib şərtlərdəndir, əks halda bütün bunların yoxluğu dini münaqişələrə, fobiyaya, millətlərarası qarşıdurmalara gətirib çıxara bilər.

Hazırda Azərbaycan çoxmillətli dövlət olsa da, özünün tarixən formalaşmış multikultural dəyərlərə sahib, sabit yaşamaq təcrübəsi olan cəmiyyətdir. Onun mənəvi inkişaf imkanına, müstəqillik təcrübəsinə malik tarixi keçmişi vardır. Bu gün qloballaşan dünyada milli-mənəvi dəyərləri qorumaqla qlobal dünya dövlətləri ilə münasibətlər qurmaq heç də asan deyil. Belə bir dövrdə yeni insan tərbiyəsi lazımdır. Elə bir insan ki, həm tarixi köklərinə bağlı olsun, həm də bəşəri dəyərləri mənimsəmiş olsun: fəal, təşəbbüskar, dünyada gedən proseslərə həssas, eyni zamanda mədəni və tolerant, multikultural dəyərlərə sahib şəxsiyyətlərin formalaşması müasir təhsilin qarşısında duran ən mühüm vəzifələrdəndir. Çünki gələcəyin fəal qurucusu təhsil sistemində yetişir. Qlobal aləmdə rəqabətədavamlı dövlətin mövcudluğu bu cür vətəndaşdan, onun multikultural dünyagörüşündən başlanır. Sürətli qloballaşma, inteqrasiya, beynəlxalq miqrasiya prosesləri insandan multikultural dəyərlərə sahib olmağı tələb edir.

Multikulturalizm nədir? Latıncadan tərcümədə "çoxmədəniyyətli" mənasını ifadə edən multikulturalizm kəlməsi müxtəlif millətlərə, dinlərə və məzhəblərə, mədəniyyətlərə mənsub olan xalqların birgə yaşayışı, sivilizasiyalararası dialoq, zənginləşmə, dostluq, müxtəlif dinlərə hörmət və

qarşılıqlı anlaşma, müxtəlif millətlərə, dinlərə qarşı mədəni müxtəlifliklərin qorunması, inteqrasiyası və tolerantlıq yönündə gedən prosesləri özündə cəmləşdirir.

Multikulturalizm (ingilis dilindən tərcümədə "çoxlu mədəniyyətlər" deməkdir) sosial-mədəni davranışın və müvafiq siyasi strategiyanın modeli kimi də nəzərdən keçirilir. Azərbaycanın tarixən əlverişli coğrafi mühiti, insanlar arasında xoş ünsiyyət, mehribanlığın olması bəzi qrupların ölkəmizdə yaşamasına gətirib çıxarmışdır. Bu gün Azərbaycan əhalisinin çox hissəsini azərbaycanlılar təşkil etsə də, əhalinin ümumi sayında müxtəlif millətlərin, azsaylı etnik və dini qrupların nümayəndələrinin də payı vardır. Azərbaycan müxtəlif millətlərin, etnik qrupların məskunlaşdığı bir məkandır. Lakin bu, onların birgə yaşamasına, mehriban qonşuluq əlaqələrinə, bir-birinin dillərinə qarşılıqlı hörmət etmələrinə heç bir əngəl yaratmır. Azərbaycanda multikulturalizmin banisi Ulu Öndər Heydər Əliyev demişdir ki, Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi vətənidir. Ərazimizdə yaşayan azərbaycanlı da, ləzgi də, avar da, kürd də, talış da, udin də, kumık da, başqası da - bütünlükdə hamısı azərbaycanlıdır.

Heydər Əliyev Azərbaycanın dövlətçilik tarixində və dünya siyasətində böyük əhəmiyyət kəsb edən bir şəxsiyyətdir. Onun irsi, xüsusən də multikulturalizmi dəstəkləməsi və bu prosesə pedaqoji yanaşmaları bu gün də Azərbaycan cəmiyyətinin inkişafına mühüm təsir göstərir. Doğrudan da, dərindən analiz etdikdə Ulu Öndərin multukultural siyasətində bir pedaqoji yanaşma vardır. Bu özünü nədə göstərir?

Multikulturalizm- insanların, millətlərin, xalqların bir-birinə yaxınlaşmasıdır- insan kiməsə yaxınlaşanda birinci özünə diqqət göstərir, özünə tənqidi yanaşır, öz üzərində işləyir. Bir sözlə, özünə nəzarət etmək vərdişlərinə yiyələnir, bir növ özünü tərbiyə edir. Belə bir tərbiyə milli və bəşəri



dəyərlərə söykənən və müasir texnologiyalara əsaslanan təhsil prosesində həyata keçə bilər.

- Multikulturalizm- birgəyaşam tərzidir. İnsan həmişə münasibətdə olduğu tərəfin bütün cəhətlərini öyrənməyə çalışır- onun ənənəsini, adətini, xarakterini və s. Bu zaman o, əhatəsi haqqında dəqiq təsəvvürlərə malik olur, həmçinin də öz "Mən"ini "Qeyri-"Mən"ə qarşı qoya bilir, müqayisəli təhlil apararaq özünə tənqidi yanaşır və özünü inkişaf etdirir, qarşılıqlı anlaşma yollarını tapır və ya əksinə. Bütün bunlar onu deməyə əsas verir ki, nə qədər ki, elm inkişaf etməmişdi insanlararası münasibətlər də bəsit idi. Elmi nailiyyətlər artdıqca o, insanlararsı münasibətləri daha da mürəkkəbləşdirərək münasibətlərə yeni forma verdi. Başqa xalqlara və millətlərə qiymət vermək üçün birinci növbədə insan öz milli-mənəvi dəyərlərini tanımalı, onu qiymətləndirməyi bacarmalıdır. Bəşəri dəyərlərə sahib olmaq üçün birinci azərbaycançılıq ruhunda tərbiyə mühüm şərtdir. Belə bir vətəndaşın yetişməsi ailədən başlasa da bu proses təhsildə sistemli şəkildə davam etdirilir. Təhsilin ən mühüm vəzifəsi insan yetişdirməkdir. Ulu Öndər dönə-dönə bildirirdi ki, gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, milli-mənəvi dəyərlərimiz əsasında tərbiyələnməlidir, tariximizi, dilimizi, milli ənənələrimizi, milli dəyərlərimizi yaxşı bilməlidir. Mənəviyyat olmayan yerdə heç bir şey ola bilməz...Bu gün mənəvi tərbiyə bəlkə də keçmiş illərdən daha çox lazımdır (3,357-358).

Milli- mənəvi dəyərlərin qorunub saxlanılması və inkişafına H.Əliyevin irəli sürdüyü konseptual baxışla yanaşsaq müəyyən etmək olar ki, milli ruhun inkişafı üçün, milli-mənəvi dəyərlərin, adət-ənənələrin yeni nəslə çatdırılması və davam etdirilməsi üçün bir neçə şərtlərin olması vacibdir. Fikrimizcə, bu şərtləri belə qruplaşdırmaq olar:

1. Milli dövlətçiliyin qorunması və ona məhəbbət.
2. Ana dilinin qorunması və onun təbliği.

3. Hüquqi dövlətin Əsas Qanunu, onun Bayrağı, Himni, Gerbi və başqa atributlarına hörmət, onların qorunması.
4. Milli sərvətlərin qorunması və onlara qayğı.
5. Dini dəyərlərə hörmət.
Bunları araşdıraq:
1. Hər bir xalqın özünü təsdiqi üçün onun müstəqilliyini, azad, demokratik bir mühitdə yaşamasını təsdiq və təmin edə biləcək güclü dövləti, bu dövlətin rəmzi olan atributları, onun fəaliyyətini tənzimləyəcək Əsas Qanunu, dili, dini dəyərləri olmalıdır. Yalnız güclü, qüdrətli dövlət xalqın azad yaşamasının təminatçısı ola bilər, xalqını maddi və mənəvi sərvətlərinin əsl sahibi edə bilər, onun dilini, milli-mənəvi dəyərlərini yaşada bilər. Məhz belə bir azad, demokratik bir dövlətin qurucusu olan Heydər Əliyev hər bir Azərbaycan gəncinə bildirirdi: "Hər bir Azərbaycan gənci öz həyat yolunu müstəqil Azərbaycan Respublikasının gələcək yolu kimi qəbul etməlidir. Gənclərin əsas vəzifəsi özünü Azərbaycan respublikasının yaşamasına və əbədi olmasına həsr etməkdən ibarət olmalıdır.Vətənini, torpağını, dövlətini, müstəqil Azərbaycanı qorumaq öz ata-anasını qorumaq deməkdir, evini qorumaq deməkdir " (4,15).
2. Millliklə dil sıx bağlıdır. H.Əliyev dili millətin milliliyinin saxlanılması şərti hesab edirdi. O, deyirdi: "Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini, mədəniyyətini yaşadan, inkişaf etdirən onun dilidir. Azərbaycan dilinin dövlət dili kimi yaşaması, möhkəmlənməsi, inkişaf etməsi də bizim ən böyük nailiyyətlərimizdən biridir. Bu, təkcə dil məsələsi deyil, həm də azərbaycançılıq məsələsidir". (4,13-18).
Ulu Öndər 6 noyabr 1996-cı ildə Türk dünyasının Yazıçılarının III Qrultayındakı nitqində demişdir: "Türkdilli xalqlar qədim, çoxəsirlik tarixi boyu Avrasiya qitəsinin böyük hissəsində yaşayaraq dünya, bəşər mədəniyyətinə böyük töhfələr vermiş, onu zənginləşdirmişlər. Qədim tarix boyu türkdilli xalqların həyatı cürbəcür, vətən xalqların varlığını



təhlükə altına alan müharibələrlə, döyüşlərlə, təcavüzlərlə rastlaşmışlar. Ancaq xalqlarımızın dərin kökləri, bir-birinə mənəvi bağlılığı onları bütün bu mərhələlərdən, imtahanlardan, sınaqlardan çıxmış və bugünkü günlərə gətirib çıxarmışdır. Biz öz tarixi köklərimizlə, milli köklərimzlə, mənəvi dəyərlərimizlə, milli-mənəvi ənənələrimizlə, böyük tariximizlə fəxr edə bilərik ( "H.Əliyev irsi" Beynəlxalq Elektron Kitabxana ).
Dövlətçilik, milli müstəqillik, ana dilinin mövqelərinin möhkəmləndirilməsi, dini və milli dəyərlərə hörmət, milli sərvətləri qorumaq kimi məsələlər Heydər Əliyev irsində azərbaycançılıq prinsiplərinin əsasını təşkil edir. O, bildirirdi: "Keçmiş dövrlərdə, keçmiş əsrlərdə Azərbaycanın dövlətləri daha da geniş ərazidə olmuşlar. İndi bizim Azərbaycandan savayı, dünyanın çox ölkələrində azərbaycanlılar yaşayır. Onlar da azərbaycanlıdırlar, onlarda da azərbaycançılıq hissləri yaşamalıdır" (6, 360).
Doğrudan da, dilin ümumiliyi fikirlərin, siyasi təfəkkürün, həmin dildə yaşadılmış mədəni sərvətlərin də ümumiliyinə, bədii-estetik düşüncənin də birliyinə gətirib çıxarır.
Xüsusilə millətlərin bir-birinə inteqrasiyasının gücləndiyi indiki dövrdə milli mənəviyyatımızın daha da zənginləşməsi və təbliği yolunda dünyada yaşayan azərbaycanlıların qüvvəsindən istifadə etməyin gərəkli olduğunu hiss edən Ulu Öndər 2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsini təşkil etdi. Bununla kifayətlənməyən dahi qurucu 2002-ci ildə "Xaricdə yaşayan Azərbaycanlılarla İş Üzrə Dövlət komitəsinin yaradılması barədə" fərman imzaladı ki, bu da tək xaricdə yaşayan azərbaycanlıların bir-birilə əlaqəsini deyil, həm də xaricdəki Azərbaycan cəmiyyətlərinin, birliklərinin və dərnəklərinin fəaliyyətinin vahid mərkəzdən əlaqələndirilməsinə, həm də onların dövlət qayğısı ilə əhatə olunmasına geniş imkanlar açdı.
Heydər Əliyev irsində maraq doğuran cəhətlərdən biri də milli mənəviyyatımızın zənginləşməsində ümumbəşəri

dəyərlərə inteqrasiyanı əsas cəhət kimi götürməsi idi. Ulu Öndər qarşıya belə bir vəzifə qoyurdu ki, öz milli və mənəvi kökünə sadiq olan hər bir gənc, həm də ümumbəşəri, dünyəvi dəyərlərdən səmərəli istifadə etməyi, onları öz mənəvi dəyərlərimizə birləşdirərək xalqımızın mənəviyyatını daha da zənginləşdirməyi bacarmalıdır. O, məsələnin ikinci tərəfini də açaraq qeyd edirdi ki, milli-mənəvi dəyərlərimizin dünyaya inteqrasiyası həm də ümumbəşəri dəyərlərə öz töhfəsini verə bilər.

3. Ulu Öndər Heydər Əliyev dövlətçilik atributlarını Azərbaycan milli idealogiyasının tərkib hissələrindən biri kimi dəyərləndirirdi. Gənc nəslin dövlətin Əsas Qanununa, onun Bayrağına, Gerbinə, Himninə hörmət ruhunda tərbiyə edilməsini əsas vəzifə hesab edən Ulu Öndər bu sahədə təhsil müəssisələrinin üzərinə böyük məsuliyyət qoyurdu. Təhsili millətin gələcəyi hesab edən Ulu Öndər onun əsas məqsədini demokratik ruhlu, azad düşüncəli Azərbaycan vətəndaşları hazırlamaqda görürdü. O, deyirdi: "Mən hesab edirəm ki, məktəblərdə Azərbaycanın müstəqilliyinin atributları yaxşı təbliğ olunmalıdır. Azərbaycanın dövlət müstəqilliyini təmsil edən Azərbaycanın bayrağına münasibət, onun müqəddəsliyinə hörmət hər bir uşaqda, yeniyetmədə daxilən olmalıdır. Azərbaycanın bayrağı sadəcə bayraq deyil, o, bizim dövlətçiliyimizin, müstəqilliyimizin rəmzidir" (6, 22 ). O, bu fikirləri Əsas Qanun, Gerb, Himn haqqında da demişdir. Bu fikirlərlə kifayətlənməyərək Ulu Öndər "Azərbaycan Respublikası dövlət atributları işinin gücləndirilməsi haqqında" 13mart 1998-ci il tarixli sərəncamı ilə Dövlət Bayrağının, Dövlət Gerbinin, Dövlət Himninin ölkə vətəndaşlarına, o cümlədən məktəblilərə öyrədilməsini ön plana çəkmişdir. Məhz bu sərəncamdan sonra "Azərbaycan Respublikasının dövlət rəmzləri" adlı ilk əsər nəşr olunur. Kitabda ilk dəfə müstəqil Azərbaycanın dövlət rəmzlərinin yaradılması tarixi sistemli işlənilir, milli rəmzlərin bərpası və qəbulu uğrunda



H.Əliyevin rolu qeyd olunur, dövlət atributlarının mənası elmi şəkildə araşdırılır.

4. Xalqın öz milli-mənəvi, dini dəyərlərinə hörmət ruhunda tərbiyəsi onun mənəvi aləminin inkişafında mühüm məna kəsb edir. Əsrlər boyu Azərbaycan xalqı öz inam və inanclarına sadiq olmuşlar. Hələ sovet dövründə belə xalqımız öz dini inamlarından uzaqlaşmamış, əksinə, ondan mənbə kimi istifadə edərək mənəvi dəyərlərini zənginləşdirmişlər. Azərbaycan xalqının müstəqillik əldə etməsi həm də onun mənəvi, milli, və mədəni ənənələrinin bərpasına şərait yaratmışdır.

26 avqust 1994-cü ildə Mövlud bayramı münasibətilə Bakıda Təzəpir məscidində təntənəli mərasimdəki çıxışında Ulu Öndər demişdir: "Son illər dinimizə qayıtmağımız, müstəqil Azərbaycan Respublikasında İslam dininin öz yerini tutması tarixi hadisədir. Əsrlər boyu xalqımız bu dinə bağlı olaraq, ondan bəhrələnərək yaşayıb-yaratmışdır... Güman edirəm ki, biz azərbaycanlılara- bu, sonradan gələcək bütün nəsillərə də tövsiyyə olunur- heç vaxt inamımızdan, dinimizdən uzaqlaşmayacaq və bu mənəvi mənbələrimizdən istifadə edərək gələcəyimizi quracağıq" (5,144).

Hazırda Azərbaycan bir çox sahələrdə olduğu kimi təhsil sahəsində də nailiyyətlər qazanır. Bu proses həm də Azərbaycan mənəviyyatını zənginləşdirməklə yanaşı milli-mənəvi dəyərlərimizə daha çox bağlı olmağı tələb edir. Heydər Əliyevin irsində təhsilin məzmununun müstəqil Azərbaycanın dövlətçiliyi prinsipləri əsasında qurulması ideyasının ön planda durmasını görə bilərik.

Düzdür, Heydər Əliyev xalqımızın mənəviyyatının zənginləşdirilməsinin bir yolu kimi ümumbəşəri və dünyəvi dəyərlərdən səmərəli istifadə etməklə, onları öz mənəvi dəyərlərimizə sintez etməkdə görürdü və bunu gələcək üçün strateji yol hesab edirdi. Lakin Ulu Öndər təhsilin məzmunca milli idealogiyaya uyğun, müstəqillik prinsiplərinə müvafiq qurulmasını dönə- dönə bildirirdi. O, təhsilin məzmununun

müstəqil Azərbaycanın dövlətçilik prinsipləri əsasında qurulması ideyasından çıxış edərək deyirdi: "Dövlət müstəqilliyinin xalqımıza bəxş etdiyi nemətlərdən biri də odur ki, biz artıq təhsil sistemimizi xalqımızın, tarixinə, mənəviyyatına, ənənələrinə uyğun qururuq... Doğrudur, bu proses çox mürəkkəb prosesdir. Bu proses qısa müddətdə başa çata bilməyəcəkdir. Bu gün təhsil sahəsində çalışan bütün vətəndaşlara, müəllimlərə, təhsil müəssisələrinin rəhbərlərinə müraciət edərək xahiş edirəm ki, onlar tezliklə təhsil sistemində işlərin müstəqil Azərbaycanın prinsipləri əsasında qurulmasına nail olsunlar" (4). Ulu Öndər çıxış yollarından biri kimi dərsliklərin dəyişilməsi, yeni dərsliklərin yaranması, təhsilin məzmunca milli müstəqilliyimizin prinsiplərinə uyğunlaşdırılmasında humanitar fənlər, xüsusən, tarix, dil və ədəbiyyatın tədrisinin ilk növbədə məzmunca yeniləşdirilməsində görürdü. O, deyirdi: " Milli idealogiyamızı hər yerdə tətbiq etmək üçün məktəblərdə Azərbaycan xalqının tarixinin tədrisinə çox ciddi fikir vermək lazımdır... Gənclərimiz öz tarixini, öz tarixi keçmişini gərək yaxşı bilsinlər. Çünki mənəviyyatımız, gənclərin bugünkü və gələcək mənəviyyatı bununla bağlıdır" (6).

Ulu Öndərin uzaqgörən siyasəti bu gün öz nəticələrini verdi. Azərbaycan tarixinə qızıl hərflərlə yazılacaq 44 günlük Vətən müharibəsinin şanlı qələbəsini bu uğurlu siyasətin nəticəsi hesab etmək olar. Heydər Əliyev irsininin layiqli davamçısı olan Hörmətli Prezident İlham Əliyev öz çıxışlarında müəllimlərə tövsiyyə edir ki, dərslərinizin 10-15 dəqiqəsini milli mənəviyyata həsr edin. Çünki bizi möhtəşəm qələbəyə milli mənəviyyata sahib oğullarımız çatdırdı.

Təhsilin milli zəmində inkişaf etməsini, milli kadr potensialımızın günü-gündən artmasını tövsiyə edən Ulu Öndər məhz müstəqil dövlətimizin idarə olunmasını və inkişafını yüksək savada, biliyə, ixtisasa, elmə malik insanların olmasında, özü də onların cəmiyyətdə çoxluq təşkil etməsində görürdü. Çünki özünü tanımayan, özünə hörmət qoymayan



başqasına hörmətlə yanaşarmı? Yalnız yüksək insani münasibətlərə malik, milli-mənəvi dəyərlərinə sahib, tarixi keçmişini unutmayan, gələcəyini bu əsasda quran insan başqa millətlərə hörmətlə yanaşa bilər.

Belə qənaətə gəlmək olar ki, ölkəmizin təhsil siyasətində multikultural dəyərlər nəzərə alınmalıdır. Müasir təhsilin konseptual problemlərindən biri təhsilin inkişafetdirici və tərbiyəedici mahiyyətini dəyərləndirməkdir. Belə ki, müasir təhsil konsepsiyasında sərbəst düşüncə tərzinə malik, müstəqil, azad, demokratik baxışlı Azərbaycan vətəndaşlarının milli ruhda tərbiyəsi mühüm məna kəsb edir. Düzdür, gənc dövlətimizdə hələ də milli tərbiyə konsepsiyası tam mənasında işlənməmişdir. Lakin qədim tarixi, zəngin milli-mənəvi dəyərləri olan xalqımızın deyimləri, duyumları, milli mədəniyyət abidələri, incəsənəti ilə yanaşı milli ruhu özündə yaşadan bir çox mənbələr vardır. Doğrudan da Heydər Əliyev irsi ilə tanış olan hər kəs burada müstəqil Azərbaycanın inkişaf edib dünyada tanınması yollarını görə bilər. Ulu Öndər cəmiyyətin gələcək tərəqqisini gənclərimizin mükəmməl təhsil almasında görürdü. O, deyirdi : "Cəmiyyətin gələcək tərəqqisi bir çox cəhətdən indi gənclərimizə nəyi və necə öyrətməyimizdən asılı olacaqdır. Əlbəttə, bu da təhsil sistemimizin qabaqcıl dünya dövlətlərinin təhsil sisteminə inteqrasiyası, təhsilin modernləşdirilməsi yolu ilə həyata keçə bilər. Müstəqil dövlətimizi möhkəmləndirmək üçün müasir gəncliyə elmi-texniki biliklər vermək, praktik vərdişlər mənimsətmək bacarıqları ilə yanaşı milli-mənəvi dəyərlərə malik olmaq, milli xüsusiyyətlərinə hörmətlə yanaşmaqla bərabər multukultural dəyərləri də aşılamaq lazımdır.

Heydər Əliyev multikulturalizmi yalnız bir ideologiya kimi deyil, həm də bir həyat tərzi və dövlət siyasətinin əsas prinsipi olaraq qəbul edirdi. Heydər Əliyev Azərbaycanın müxtəlif etnik qruplarının birgə yaşaması və mədəni müxtəlifliyin qorunması məsələsini daim önə çəkmişdir. O,

Azərbaycanın zəngin multikultural ənənələrini inkişaf etdirərək, bütün xalqların bərabər hüquqlara malik olması prinsipini irəli sürmüşdür. Bu yanaşma, həmçinin, Azərbaycanın sosial və mədəni inkişafına böyük təsir etmişdir. Heydər Əliyevin multikulturalizmi müdafiə etməsinin əsas prinsiplərini belə qruplaşdırmaq olar:

1. Dini və milli tolerantlıq: Ulu Öndər dövlətçilik sahəsindəki siyasəti dövründə Azərbaycanda bütün dini və milli azlıqların birgə yaşama hüquqlarını dəstəkləmişdir. Bu, cəmiyyətin müxtəlif qruplarının qarşılıqlı hörmət və anlaşma üzərində qurulmuş birgə həyatda yaşamasına imkan yaratdı.
2. Bərabərlik və ədalət: o, bütün etnik və dini qruplara bərabər hüquqların tanınması, bu baxımdan ayrı-seçkiliyin aradan qaldırılması və mütləq ədalət prinsiplərinin təmin edilməsi üçün müvafiq siyasətlər yürütmüşdür.
3. Mədəni müxtəlifliyin dəstəklənməsi: Heydər Əliyev Azərbaycanın mədəni müxtəlifliyinin zənginliyini hər zaman vurğulayıb və bu zənginliyi qorumaq məqsədilə bir sıra addımlar atmışdır. Azərbaycan dilinin, ədəbiyyatının, musiqisinin və adət-ənənələrinin qorunması üçün ciddi siyasətlər həyata keçirmişdir.
4. Dünya ilə inteqrasiya: Ulu Öndər həmçinin Azərbaycanın beynəlxalq aləmdə tanınmasını təmin etmək və multikulturalizm ideyasını digər ölkələrə də təbliğ etmək üçün böyük işlər görmüşdür. Heydər Əliyev yalnız daxili siyasətdə deyil, beynəlxalq arenada da Azərbaycanın multikulturalizm modelini təbliğ etmişdir. O, Azərbaycanın Avropa və Asiya arasında bir körpü olaraq rolunu gücləndirmək və dünya birliyindəki yerini möhkəmləndirmək üçün müxtəlif ölkələrlə əlaqələrini inkişaf etdirmişdir. Bu baxımdan, Heydər Əliyevin multikulturalizm yanaşması yalnız dövlət daxilində deyil, bütün dünyada qəbul edilən bir siyasət halına gəlmişdir.



Heydər Əliyevin multikulturalizm prinsipləri, təkcə dövlət siyasəti ilə məhdudlaşmayıb, həm də təhsil sahəsində geniş şəkildə tətbiq olunur. Bu prinsiplər, xüsusən də ümumtəhsil məktəblərində və universitetlərdə yeniyetmələr və gənclər arasında müxtəlif mədəniyyətlərə və dəyərlərə hörmətin aşılanmasına yönəlmişdir.

Bunları aşağıdakı kimi qruplaşdırmaq olar:

1.Təhsildə multikultural yanaşma: Heydər Əliyev, Azərbaycan məktəblərində və universitetlərində fərqli etnik və dini qruplara aid uşaqların birgə təhsil almalarını təqdir etmişdir. Bu yanaşma, gənclər arasında qarşılıqlı hörmət və anlaşmanın inkişafına şərait yaratmışdır. Hələ Soverlər dönəmində Ulu Öndər tərəfindən yüzlərlə xarici tələbələrin Azərbaycanda təhsil almaları təşkil edilmiş, eyni zamanda neçə-neçə azərbaycanlı gənclərin xaricdə təhsil almalarına şərait yaradılmışdır. Uzaqgörən siyasətçi Ulu Öndərin təhsildə multikultural siyasəti ölkəmizdə gələcəkdə quracağı müstəqil dövlətimizin milli kadr potensialının bazasını hazırlamış oldu.

2. Müxtəlif millətlərdən olan gənclərin təhsilə cəlb olunması ilə ölkələrarası dil və mədəniyyətin qorunması prosesinin baş verməsi: Heydər Əliyev Azərbaycan dilinin qorunması ilə yanaşı, digər dillərin və mədəniyyətlərin də təhsil sistemində yer almasını dəstəkləmişdir. Bu, müxtəlif etnik və dini qrupların öz mədəniyyətlərini və dillərini ana dilində tədris etmələri üçün imkan yaratmışdır. Hazırda Heydər Əliyevin bu siyasəti bu gün də davam etdirilir. Ölkəmiz üçün pedaqoji kadrlar hazırlayan iri universitetlərindən olan ADPU-da azərbaycanlılarla yanaşı başqa millətlərdən olan tələbələr də təhsil alır və onların müxtəlif dillərdə təhsil almaları üçün şərait yaradılmışdır.

3. İnteqrasiya və sosiallaşma: pedaqoji prosesdə multikultural yanaşmanın tətbiqi, gənclərin müxtəlif mədəniyyətlər

və həyat tərzləri ilə tanış olmasını və bununla da daha tolerant və humanist bir cəmiyyətin formalaşmasını təmin etmişdir. Bu yanaşma, təhsil müəssisələrində qarşılıqlı anlaşma və əməkdaşlıq ruhunun yaradılmasına yönəlmişdir. Məhz əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş inteqrasiya və sosiallaşma 30 illik işğalın Böyük Zəfərlə sona çatmasına vəsilə oldu. Belə ki, torpaqlarımızı işğal etmiş, "Böyük Ermənistan" iddaları ilə yaşayan qonşularımız ölkələrarası dinc yanaş yaşamaq prinsiplərini pozmaqla bərabər, qonşu xalqlarla sosiallaşmaqdan imtina etmiş, ölkəsində bir milləti belə saxlamamaış, ali irqə mənsub olduqlarını irəli sürərək çürük iddaları ilə özünü əhatəsindən təcrid etmişdir. Belə bir siyasət Ermənistanın məğlubiyyəti ilə nəticələndi. Ermənistan üzərində tarixi qələbənin ən böyük əhəmiyyəti təkcə siyasi mahiyyət daşımır. Həm də bu dövlətin başqa xalqlara və dinlərə insanlıqdan kənar, vandal münasibəti də üzə çıxdı. İşğal olunmuş, 30 ildən çox əsarətdə saxlanılmış ərazilərimidə tarixən mövcud olmuş dini-mənəvi dəyərlərimiz olan məscidlər, pirlər dağıdılmış, məhv edilmiş, təhqir edilmiş, Azrbaycanın dünya şöhrətli tarixi şəxsiyyətlərinin cansız büstləri, heykəlləri belə güllələnmiş, adi insanların qəbirdaşları yerləyeksan edilmiş, təhqir olunmuşdur. Erməni dövlətinin belə vandal siyasəti onun bir dövlət kimi gələcəyini şübhə altına qoyur. Multukultural dəyərlərə söykənən Azərbaycan dövləti Ermənistandan fərqli olaraq öz ərazisində olan heç bir kilsəni, sneqoqu, bütü dağıtmamış, əksinə, onların təmir olunmasına şərait yaratmış, ən kiçik etnik qrupun dini-mənəvi dəyərlərinə hörmətlə yanaşmışdır.

4.Fərqliliyin qəbul edilməsi və dəstəklənməsi: pedaqoji prosesdə Heydər Əliyevin multikulturalizmi nəzərə alaraq, müəllimlərə və şagirdlərə fərqli mədəniyyətlərə, dillərə və ənənələrə qarşı daha açıq fikirli olmaq öyrədilməlidir. Bu, həmçinin, gənclərin daha geniş dünyagörüşə sahib olmalarına kömək edə bilər.



Heydər Əliyevin multikultural dəyərlərə dərin və elmi yanaşmaları Azərbaycanın pedaqoji prosesinə müsbət təsir göstərmiş, ölkə daxilində və eləcə də xarici siyasət sahəsində sülhün və qarşılıqlı hörmətin təməlini qoymuşdur. Bu ideyaların təhsil sisteminə daxil edilməsi, gənc nəsilin daha tolerant, fərqli mədəniyyətləri qəbul edən və anlayan bir şəxsiyyət kimi yetişməsinə zəmin yaratmışdır. Bu, həmçinin Azərbaycanın dünyada müsbət imicini möhkəmləndirərək, multikulturalizm ideyalarının qlobal səviyyədə yayılmasına xidmət etmişdir.

Heydər Əliyev, Azərbaycanın çoxsaylı mədəniyyətlərin bir arada və qarşılıqlı hörmət içində yaşamasını təqdir və təbliğ edirdi. Onun zamanında Azərbaycan mədəniyyətinin zənginliyi yalnız milli dəyərlərlə deyil, həm də digər xalqların mədəni irsi ilə də əhatə olunmuşdur. Azərbaycanın müxtəlif bölgələrində yaşayan etnik qrupların öz mədəniyyətlərini yaşaması və inkişaf etdirməsi üçün dövlət tərəfindən bir çox layihələr həyata keçirilmişdir. Onun rəhbərliyi altında Azərbaycanın milli kimliyinin qorunması, müxtəlif etnik və dini qrupların birgə yaşamasının təmin edilməsi və multikulturalizmin dəstəklənməsi əsas prioritetlərdən biri olub. Heydər Əliyevin ideyaları yalnız dövrünün ehtiyaclarına cavab vermək məqsədini daşımayıb, eyni zamanda, Azərbaycanın gələcək inkişafını da formalaşdırmışdır. Bu baxımdan, onun irsindəki multikulturalizm və təhsildəki yanaşmaları böyük əhəmiyyət kəsb edir.

Belə bir uğurlu siyasət bu gün də inamla davam etdirilir. Bunun nəticəsidir ki, dövlətimiz 30 il müharibə şəraitində yaşasa belə, heç bir beynəlxalq səviyyəli tədbirlərdən kənarlaşdırılmayıb, əksinə, ölkəmiz ən nüfuzlu beynəlxalq tədbirlərə ev sahibliyi etmişdir. Bu yaxınlarda 11–22 noyabr 2024-cü il tarixlərində BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı və ya COP-29 tədbirinin məhz ölkəmizdə keçirilməsi Azərbaycanın toleyrant

bir dövlət olmasının və bunun dünyanın da təsdiq etməsinin bir sübutudur. Bu böyük tədbirin özü Ulu Öndərin vaxtilə irəli sürdüyü multukulturalizm siyasətinin, hörmətli prezident İlham Əliyevin "..multukulturalizmin alternativi yoxdur, onun alternativi müharibələrdir"- ideyasının təntənəsidir. Multukultural ideyalardan imtina etmək istəyən Avropa dünyanı qlobal istiləşmədən və müxtəlif fəlakətlərdən xilas etmək üçün niyə irqindən, dinindən, milliyətindən asılı olmayaraq hamının bir olmasını təbliğ edir? Hər bir dövlət ayrı-ayrılıqda bu fəlakətlərin qarşısını ala bilməzmi? Əlbəttə, yox. Dünya bizim evimizdir. Bir halda ki, bu ev hamımızındır, deməli, hamı bu evin bərabərhüquqlu sahibi kimi qarşılıqlı hörmətə əsaslanaraq dinc yanaşı yaşaya bilər. Hörmətli Prezidentimiz İlham Əliyevin dediyi kimi, dinc yanaşı yaşamaq isə regionda sabitlik, bəşəriyyəti qorumaq, ona töhfə vermək deməkdir. Heydər Əliyev Azərbaycanın dövlətçilik tarixində və beynəlxalq münasibətlərdə əvəzsiz bir şəxsiyyətdir. Deməli, xalqımızın böyük oğlu, Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı üçün qoyub getdiyi bu qiymətli irs mənəvi tərbiyəni, eləcə də milli mənəviyyatımızı zənginləşdirə biləcək dəyərli mənbədir. Prof. Ə.Ağayev haqlı olaraq qeyd edirdi: "Heydər Əliyev cənablarının çıxışları, nitqləri və məruzələrində irəli sürülən tərbiyəvi baxımdan qiymətli fikirlər tərbiyə işinin həm məzmununu, həm də həyata keçirilmə yollarını müəyyənləşdirir, milli tərbiyə konsepsiyasının müddəalarını ortaya qoyur" (1, 205).

Müasir dövrdə bu siyasəti Ulu Öndərin davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev böyük uğurla davam etdirir. Məhz bu siyasi xəttin nəticəsi kimi Azərbaycan Respublikasının 2009-cu il 26 noyabr tarixli Qanunu ilə Azərbaycan Respublikasını "Mədəni özünüifadə formalarının müxtəlifliyinin qorunması və təşviqinə dair "UNESCO" Konvensiyasına qoşulmasını göstərmək olar.Prezident İlham Əliyevin multikulturalizm siyasətinin



növbəti əhəmiyyətli addımı Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılmasına dair 15 may 2014-cü il tarixində imzaladığı Fərman oldu. Bu mərkəzin yaradılmasının əsas məqsədi ölkəmizdə əsrlər boyu formalaşmış tolerantlığın, etnikmədəni, dini müxtəlifliyin qorunmasını və çiçəklənməsini təmin etmək, habelə Azərbaycan dünyada multikulturalizm mərkəzi kimi tanıtmaq və mövcud multikultural modellərini tədqiq və təşviq etməkdir.(2)

Prezident İlham Əliyev 2016cı ili ölkəmizdə "Multikulturalizm ili" elan etdi. Azərbaycanda multikulturalizmin ən yüksək inkişaf səviyyəsinə çatması fonunda, multikultural dəyərlərin formalaşması sayəsində yürütdüyü siyasət ölkədə hüquqi, sivil, dünyəvi dövlət quruculuğunu davam etdirilir, demokratikləşmə siyasəti dərinləşir. Prezident İlham Əliyev multikulturalizmin Azərbaycan modeli ilə bağlı qeyd edərək göstərmişdir ki, multikulturalizm Azərbaycanın dövlət siyasəti və həyat tərzidir... hərçənd Avropa bu ideyadan əl çəkmək istəyir, ancaq biz əl çəkə bilmərik. Azərbaycan çoxmillətli ölkədir, bu ideyadan imtina müharibələr deməkdir. Multikulturalizm modeli dedikdə, bir dövlətin sərhədləri daxilində müxtəlif etnomədəni tərəflərin dinc yanaşı yaşaması və öz mədəni xüsusiyyətlərini, həyat tərzini rəsmən ifadə etmək və qoruyub saxlamaq hüququna malik olması nəzərdə tutulur. Multikulturalizm mədəniyyətlərin və sivilizasiyaların dialoqunun zəruri alətidir. Bütün insanlar qədimdən ortaq cəhətlərə malikdir. Bu ortaq cəhətlər insan toplusu yaranan gündən bu günümüzə qədər davam edir, bundan sonra da davam edəcəkdir. Deməli, multikulturalizm Prezidentimizin dediyi kimi həyat tərzidir. Bəzən multukulturalizm dövlət idealogiyasının tərkib hissəsi kimi qəbul edilmədikdə, o, ictimai şüurda möhkəmlənmədikdə, cəmiyyətin həyat tərzinə çevrilmədikdə ölkədə olan etnik, irqi, dini və mədəni müxtəlifliklər ciddi problemlərlə üzləşə bilir. Bu zaman milli azlıqların mədəni-etik dəyərlərini qoruması çox çətindir.

Zaman-zaman ölkəmiz fars, ərəb, rus istilasına məruz qalmış, lakin milli kimliyini qorumuşlar. Hazırda müxtəlif fərqli etnosların eyni cəmiyyətdə etnik-mədəni dəyərlərinin bir-birinə inteqrasiyası baş verir. Ölkəmizdə bu inteqrasiya bərabərliyə, humanizmə və qarşılıqlı hörmətə əsaslanır.

Multikultural dəyərlərin təhsildə nəzərə alınması, yalnız bir cəmiyyətin inkişafı üçün deyil, həm də dünya səviyyəsində sülhün, qarşılıqlı anlaşmanın və əməkdaşlığın qurulması üçün əsas təməl prinsiplərdən biridir. Təhsilin multikulturalizmə yönəlməsi, fərqlilikləri qəbul etmək, onları anlamaq və birgə inkişaf etmək üçün ən vacib vasitədir. Təhsil, gənc nəslə mədəniyyətlərarası əlaqələri öyrətməklə, onları tolerant, açıq fikirli və qlobal dünyada uğurla fəaliyyət göstərə bilən insanlar kimi yetişdirir.

Tarixi keçmişə söykənən milli-mənəvi dəyərləri yaşadan xalq olsa da onu qoruyub gələcəyə aparan gənclərdir. Dünyaya inteqrasiya etdiyimiz indiki dövrdə gənclərimizin milli-mənəvi dəyərlərinə sahib vətəndaş kimi tərbiyə olunmasında müasir texnalogiyalara əsaslanan təhsilin imkanları genişdir. Müasir insan pedaqoji prosesdə yetişir. Pedaqoji fəaliyyətin düzgün təşkili, bu sahədə mili-mənəvi və bəşəri dəyərlərə söykənən dərsliklərin, dərs vəsaitləri və metodik ədəbiyyatın hazırlanması çox əhəmiyyətlidir. Uğurlu haldır ki, hazırda 30-dan çoz Azərbaycan universitetlərində "Multukulturalizm" fənni tədris olunur. Təhsildə multikulturalizm prinsiplərinin tətbiqi ölkəmizin gələcəyini quracaq gənc nəslin vətəndaşlıq tərbiyəsində müstəsna rol oynamaqla yanaşı, fərqli xalqların və mədəniyyətlərin bir-birinə yaxınlaşmasına, anlaşmasına və qarşılıqlı hörmətin artırılmasına şərait yarada bilər. Bundan ötrü elmi mənbə kimi Heydər Əliyev irsindən istifadə olunmalı və dönə-dönə bu irsə müraciət edilməlidir.



## ƏDƏBİYYAT


3. Ağayev Ə.Ə. Seçilmiş Pedaqoji Əsərləri. Bakı, "Mütərcim", 2011.
4. Azərbaycanda multukulturalizm. Bibloqrafiya. Bakı, 2016.
5. "Azərbaycan müəllimi" qəzeti, 1997, 4 sentyabr.
6. Heydər Əliyev "Müstəqilliyimiz əbədidir" /çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, müraciətlər, fərmanları / - Bakı, Azərnəşr,1998.
7. Qəndilov S., Cəfərov N., Əhmədov H. H. Əliyev Azərbaycan məktəblilərinin gözü ilə. Bakı, Gənclik, 1998.
8. Müstəqil Azərbaycan Respublikası gənclərinin birinci forumunda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi, "Xalq qəzeti", 6 fevral, 1996.
9. Təhsil millətin gələcəyidir. (M.Mərdanov və Ə.Quliyevin redaktəsi ilə) Bakı, "Təhsil", 2012.

**Ülviyyə Əfəndiyeva**

*Psixologiya üzrə fəlsəfə doktoru, dosent*

## HEYDƏR ƏLİYEV – SİYASİ LİDERİN PSİXOLOJİ PORTRETİ

Dünya miqyasında baş verən sosial-siyasi proseslərin mürəkkəbliyi və gərginliyi, dövlətlərarası və regionlararası münaqişələrin coğrafiyası nəzərə alınarsa, siyasi liderlərin istər dövlət daxilində, istərsə də dövlətlərarası münasibətlərdə mühüm rol oynadığının, bəzi hallarda isə bütöv xalqların taleyi üçün müəyyənləşdirici amil olduğunun şahidi olarıq.

Siyasi lider problemi bütövlükdə sosial münasibətlərin bütün səviyyələrində daha geniş problem olan liderliyin tərkib hissəsidir. Siyasi liderlik problemi müasir sosial psixologiyada fundamental məsələlərdən biri kimi qəbul olunur. Siyasi lider elə bir şəxsiyyətdir ki, o, sosial hərəkata, bu və ya digər partiyaya, birliyə və s. başçılıq etmək məsuliyyətini öz üzərinə götürür.

Tarixdə şəxsiyyətin rolundan danışarkən iki cəhəti nəzərə almaq lazımdır. Birincisi, şərait və onun tələbini, ikincisi, şəxsiyyəti və onun şəxsi keyfiyyətlərini. Liderin şəxsi keyfiyyətləri həm bütövlükdə, həm də yaranmış siyasi şərait kontekstində vətəndaşlar tərəfindən qavranılan siyasi lider üçün çeviklik ən mühüm keyfiyyətlərdir (1, səh. 5).

Siyasi lider cəmiyyətin, qrupun, təşkilatın elə bir növüdür ki, şəxsi nüfuzu ona siyasi proseslərdə mühüm rol oynamağa imkan yaradır. Siyasi liderlərə böyük sosial qrupların maraqlarına cavab verən aydın siyasi proqramın olması, iti və çevik zəka, güclü iradə, siyasi intizam, hazırcavablıq, ekstremal vəziyyətlərdə özünü itirməmək, soyuqqanlılıq, özünəgüvənmə, gələcəyi qurmağa yönəlmiş zaman hissi, qarşıda qoyulan məqsədlərə nail olmaq üçün təşəbbüs, taktika və



strategiyanın seçilməsində onların siyasi fəaliyyətini müsbət şəkildə korrelyasiya edən ünsiyyət istedadı və çalışqanlıq, təşkilatçılıq, natiqlik qabiliyyəti, çeviklik kimi keyfiyyətlər xasdır.

Elə tarixi şəxsiyyətlər vardır ki, onların siyasi fəaliyyəti və psixoloji xarakteristikası yalnız milli, konkret şovinist şəraitlə bağlıdır və nəticə etibarilə onların fəaliyyəti müəyyən zaman və məkanla məhdudlaşır, eyni zamanda onların fəaliyyəti tənqid obyektinə çevrilir, unudulur və nəhayət xalqın gözündən düşürlər. Onlar ümummilli liderə çevrilə bilmirlər. Həmçinin siyasi liderlərin fəaliyyətində, siyasi iradəsində elə fenomenal məqamlar özünü göstərir ki, onların fəaliyyəti və siyasi təfəkkürü ayrı-ayrı xalqlar, siyasi liderlər üçün əsas olur, nümunəyə çevrilirlər. Bu baxımdan ümummilli lider Heydər Əliyev öz psixoloji keyfiyyətləri və siyasi təfəkkürü ilə siyasi liderlər arasında müstəsna bir yer tutur. İlk növbədə ona görə ki, onun psixoloji keyfiyyətlərini onun siyasi fəaliyyəti tamamlayır, fəaliyyətinin nəticələri ümumbəşəri əhəmiyyət kəsb edir. M.Veberin sözləri ilə desək, o, xarizmatik tipli liderlərdəndir. Siyasi liderin psixoloji keyfiyyətlərini qiymətləndirərkən və onun psixoloji portretini yaratmağa cəhd göstərərkən hər bir halda, onun siyasi fəaliyyətini, həmin fəaliyyətin nəticələrini təhlil etmək gərəkdir. Məhz siyasi davranış, fəaliyyətin məqsədə müvafiqliyi, müxtəlif situasiyalarda özünü göstərən qərar qəbulu bizə siyasi liderin psixoloji portretini yaratmağa imkan verir.

Siyasi liderin psixoloji portretini yaratmağa cəhd edərkən, onun intellektual keyfiyyətləri, o cümlədən işgüzarlığı və iş qabiliyyəti xüsusi təhlil olunmalıdır. Psixoloji tədqiqatlar göstərir ki, insanın nitq qabiliyyəti, onun təfəkkürü ilə sıx bağlıdır. Nitqin aydınlığı, məntiqiliyi, zənginliyi öz məziyyətləri ilə fenomenal təfəkkürün göstəricisidir. Bəzi dövlət xadimləri silah gücünə, xarici qüvvələrin himayədarlığı ilə hakimiyyətə gəldiyi və hətta bunların da hesabına haki-

miyyətlərini qoruya bilmədikləri bir şəraitdə Heydər Əliyev sözlə milyonları öz ətrafında səfərbər etmiş, məntiqlə düşmənləri susdurmuş, böyük natiqlik istedadı ilə xalqı sıx birləşdirə bilmişdir. Çünki, söz Heydər Əliyevin ən böyük silahı idi.

Siyasi liderin psixoloji keyfiyyətləri yalnız onun davranış tərzində, siyasi iradəsində, mühakimə qabiliyyətində özünü göstərməyib, həm də dövlət quruculuğunda, dövləti idarəetmə mexanizmində, özünün taktika və strategiyasında da göstərir.

Burada mühüm məqama da diqqət yetirmək zəruridir. Belə ki, bu insanın şəxsi-psixoloji keyfiyyətləri pozitiv istiqamətdə formalaşa, onun intellektual qabiliyyətlərində, yaradıcılığında təzahür edə bilər. Lakin bütün bunlar insanın öz şəxsi ambisiyalarını qurmağa, özünügerçəkləşdirməyə, şan-şöhrətə, şəxsi mənafenin yüksəldilməsinə xidmət edirsə, o, dahiyə çevrilə bilmir, orta və ya yüksək inkişaf etmiş intellektual şəxsiyyət kimi qalır.

Güclü iradəyə malik siyasi xadim isə niyyət və əməllərinin qətiliyi, siyasi mübarizə vasitələrinin seçimində yüksək müstəqilliyi ilə fərqlənir. O, qarşıya qoyulmuş məqsədə çatmaq üçün israrlı və əzmlidir. Əksinə, hətta geniş erudisiyalı və müxtəlif qabiliyyətlərə malik, lakin iradəsiz siyasətçi öz fəaliyyət sahəsində praktik olaraq az effektlidir. İnsan xüsusi, o cümlədən, son dərəcə tamahkar meyllərə əsaslanaraq güclü fərdi iradəyə malik ola bilər və siyasətdə özü üçün əhəmiyyətli qərarlar verə bilər. Lakin tarixi təcrübənin göstərdiyi kimi, siyasətdə o insanlar daha çox təsir qüvvəsinə malik olublar ki, onların siyasi iradələri öz ictimai, siyasi, dini və ya digər missiyalarına fanatikcəsinə müvafiq olan ideyalarından doğub. Belə liderlərin əhaliyə təsir etməsinin başlıca amili rolunda onların öz həqiqətlərinə tərəddüd etmədən inanmaları çıxış edir. Bu isə onların ətrafında olanları, bu təntənəli sözlərin arxasında



nə isə vacib, müqəddəs bir şeyin gizləndiyinə inanmağa məcbur edirdi.

Azərbaycanın dövlətçilik tarixinin ən böyük şəxsiyyətlərindən biri olan, xalqı qarşısında misilsiz xidmətlər göstərən, bütün ictimai-siyasi fəaliyyətini doğma xalqının yüksəlişinə və tərəqqisinə, ana vətəninin çiçəklənməsinə və qüdrətlənməsinə həsr edən, bu yolda böyük qələbələr qazanan, ümummilli lider Heydər Əliyevin uğur fenomeni dünyanın bir çox məşhur siyasi xadimləri, politoloqları və filosofları tərəfindən təqdir edilən, tədqiq olunan və uzun müddət öyrəniləcək bir hadisədir.

Dünya siyasət tarixində öz xalqının və ölkəsinin, eləcə də regionun və hətta dünyanın taleyini dəyişmək qüdrətinə malik hökmdarlar, dövlət xadimləri çox olmuşdur. Lakin bu xadimlərin, demək olar ki, hamısı güclü dövlətə, hərbi gücə və müasir silaha malik böyük ölkələrin və xalqların nümayəndələri olmuşlar. Bütün bu şəxsiyyətlərdən fərqli olaraq Heydər Əliyev iki bir-birinə zidd ictimai-iqtisadi formasiyada - sosializm və bazar iqtisadiyyatı zamanında, iki bir-birinə antaqonist məkanda - Sovet Azərbaycanında və müstəqilliyini elan etmiş, lakin onu qura bilməmiş, siyasi-iqtisadi, hərbi xaos içərisində olan bir ölkədə rəhbər kimi uğurlar qazanmışdı, bütün daxili və xarici basqıları dəf edərək dünyanın qəbul etdiyi dövlət xadiminə və milli liderə çevrilə bilmişdi.

Ümummilli liderin dövlət quruculuğunda rolunu hərtərəfli tədqiq edən AMEA-nın müxbir üzvü, professor Bəxtiyar Əliyev yazır: "Qısa bir müddət ərzində ilk dəfə olaraq Şərqlə Avropanın qovuşacağında demokratik dünyəvi dövlət quruculuğuna başlandı. Təssüf ki, milli dəyərlərə demokratik prinsiplərə söykənən yeni bəşəri dövlətin qurulmasına o dövrdəki daxili və xarici qüvvələr imkan vermədi. Bunun səbəbləri bu gün tarixçilər, politoloqlar və digər mütəxəssislər tərəfindən araşdırılır. Yəqin ki, burada çox səbəblər ola bilər. Lakin onlardan biri, bəlkə də ən birincisi, sosial-psixoloji

baxımdan həqiqi ümummilli liderin, siyasi iradəyə malik liderin olmaması idi. Çünki, həlledici tarixi məqamlarda məhz şəxsiyyət tarixin inkişaf istiqamətlərini müəyyən edir. Tarixlə şəxsiyyətin dialektik vəhdəti özünü həlledici məqamlarda büruzə verir"(2, səh. 7).

1969-cu ildə Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin birinci katibi seçilən və 1982-ci ilə kimi - 13 il bu vəzifədə çalışan Heydər Əliyev Azərbaycanı SSRİ məkanında 1920-ci ildən bu yana nail olmadığı ən yüksək mərtəbəyə qaldırdı. SSRİ-nin aqrar xammal bazası olan, kasıb, mədəniyyəti və elmi tənəzzül edən, bütün göstəricilərinə görə 15 respublika arasında 13-cü yerdə gedən bir ölkəni inkişaf etmiş sənaye mərkəzinə, müasir texnologiyanı tətbiq edərək yüksək göstəricilər əldə edən aqrosənaye kompleksinə malik kənd təsərrüfatı respublikasına, yüksək mədəniyyəti və biliyi ilə seçilən tanınmış ziyalıları olan xalqın yaşadığı ölkəyə çevirdi.

Heç də təsadüfi deyildi ki, SSRİ-nin iqtisadiyyatı durğunluq keçirən bir vaxtda Heydər Əliyevin sayəsində Azərbaycan sosial-iqtisadi, mədəni-elmi, ictimai həyatının bütün sahələrində böyük nailiyyətlər əldə etmişdi. Heydər Əliyev 1982-ci ildə SSRİ tarixində ilk türk olaraq bu nəhəng dövlətin ali rəhbərliyinə gətirildi. Siyasi Büro üzvü seçildi və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin olundu. SSRİ-də əsrin tikintisi sayılan Baykal Amur Magistralının tikintisinə rəhbərlik etmək Heydər Əliyevə həvalə olunmuşdu və onun səyləri nəticəsində bu nəhəng magistral vaxtında və keyfiyyətlə istifadəyə verildi.

1993-cü ilin iyununda Azərbaycan çətin bir vəziyyət qarşısında qalanda, bütün xalq, o cümlədən dövlət başçısı Əbülfəz Elçibəy üzünü Naxçıvana tutaraq Heydər Əliyevi - tarixi xilaskarı respublika rəhbərliyinə dəvət etdi.

Bugünkü dövlət quruluşu modelinin banisi, ona əbədi həyat bəxş edən ümumimilli liderimiz Heydər Əliyevdir.



Əlbəttə, istənilən formada dövlət qurmaq olardı. Bunun üçün Heydər Əliyev dünyanın super dövlətlərinin modellərindən Azərbaycan mentalitetinə uyğun atributların sintezini seçdi. Model nədən ibarətdir? Dünyanın nəhəng inkişaf etmiş demokratik dövlətlərində olduğu kimi, hakimiyyətin düzgün bölüşdürülməsi prinsipini Heydər Əliyev çox həssaslıqla, uzaqgörənliklə, nəzəri, praktik və hüquqi cəhətdən əsaslı hazırlayırdı. Azərbaycanda dövlət quruculuğu hakimiyyətinin üç sütun üzərində qurulması prinsipi: Qanunvericilik hakimiyyəti, İcra hakimiyyətinin Prezidentə mənsubiyyəti və Məhkəmə hakimiyyəti sisteminin yaradılması modelini Heydər Əliyev müasir dövlət atributları ilə zənginləşdirdi. Yəni hansı model Azərbaycan xalqının mənəviyyatına, varlığına, siyasətinə, iqtisadi dirçəlişinə uyğun gəldisə, o modeli də seçdi. Beləliklə, 1995-ci il müstəqil Azərbaycanın taleyində müasir dövlət quruculuğu ili kimi tarixin yaddaşına həkk olunmuşdur. 1995-ci ildə Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində bir qrup silahlı qüvvələrin dövlət çevirilişi cəhdi tamamilə zərərsizləşdirildi. "Əsrin müqaviləsi"-istiqamətində gərgin işlər davam edirdi. Ölkədə demək olar ki, siyasi sabitlik yaranmışdı. Qarşıda çox məsul bir vəzifə: Müstəqil Azərbaycanın dövlət quruculuğu ilə bağlı mühüm proqramın həyata keçirilməsi dururdu. Heydər Əliyevin sərənmcamı ilə 1995-ci il iyilun 5-də Milli Konstitusiya layihəsinin hazırlanması, o cümlədən yeni parlament seçkilərinin keçirilməsi ilə bağlı komissiya yaradıldı. Doğrudur, müstəqil Azərbaycanın ilk parlamentinin formalaşması üçün hüquqi zəmin yaradılsa da, qarşıda daha məsul bir vəzifə-Milli Konstitusiyanın qəbulu ilə bağlı gərgin təhlillər, diskussiyalar, araşdırmalar dururdu. Milli Liderimizin dediyi kimi, "...Qəbul edəcəyimiz Konstitusiya-ilk müstəqil Azərbaycan dövlətinin Konstitusiyası, eyni zamanda uzun-ömürlü olmalıdır..." Konstitusiya layihəsinin bir neçə variant mətbuatda dərc olunur, insan hüquqları, azadlıqları haqqında maddələr müəyyən qədər dəqiqləşdirilir, konretləşdirilir və

təkmilləşdirilirdi. Amma Konstitusiya layihəsində bir məsələ - dövlət dili ilə bağlı maddənin müzakirəsi çox gərgin və emosional keçdi. Bu da təbiidir. Çünki dövlət dili xalqın milli-mənəvi sərvətidir. Geniş müzakirələrdən sonar dövlət dili kimi Azərbaycan dili qəbul olundu. Türk dilinin dövlət dili qəbul olunması, şübhəsiz azsaylı xalqların həm heysiyyatına toxunur, həm də onların hüquqlarını pozur, bunun nəticəsində də cəmiyyətdə qarşıdurma, parçalanma kimi qorxulu proseslər baş qaldırırdı. Təbii ki, Ulu Öndər türk dilini qardaş, dost ölkənin dili bilir, ona dogma münasibət bəsləməyi özünün vətəndaşlıq borcu sayırdı. Lakin müstəqil Azərbaycanın qəbul olunacaq ilk Konstitusiyasında vətəndaşların bütün hüquq və azadlıqları qanun çərçivəsində qorunmalıdır. Heydər Əliyev Azərbaycan dövlətinin müstəqilliyinin yenilməz və əbədi olacağını Azərbaycanda yaşayan, Azərbaycanı özünə dogma Vətən hesab edən, Azərbaycan təfəkkürü ilə boya başa çatan vətəndaşların hüquq və azadlıqlarının qorunmasında görürdü (6, s.175-177).

Həyatda bütün təsadüflər zərurətə bağlıdır. Hətta bizim ən böyük təsadüf saydığımız hadisələr də, görmədiyimiz, lakin bizim qavrayış və iradəmizin xaricində olan zərurətin mövcudluğundan doğur. Varlığı yaradan, yaşadan, dünyanı idarə edən sirli qüvvə bəlli zamanda, bəlli fenomenləri yaradır və müəyyən missiyanı həyata keçirməyi ona həvalə edir. Peyğəmbərlər, dahilər, müdriklər - tarixdə müəyyən missiya ilə yer üzərinə göndərilən, insanları bəlalardan xilas edən, xalqlara xoşbəxtlik gətirən bu seçilmiş insanlar haqqında zaman - zaman müxtəlif sirlərin daşıyıcısı, xarizmatik lider, "Allahın sevimli bəndələri" kimi fikirlər səslənmiş belə liderlərin xüsusiyyətlərinin araşdırılması cəhdləri olmuşdur və bu gün də liderlik fenomeninin konkret izahı yoxdur.

"Xarizmatik lider" fenomenini din, Allah vergisi kimi izah .edir. Elə "xarizma" sözününün özü də qədim yunan dilindəki "xarita" sözündən götürülüb "özünə diqqəti cəlb edən", "cazibədar" anlamı verir. Qədim yunan mifologiyasına



görə gözəllik və zəriflik ilahəsi də Xarita adlanırdı. Qədim yunanlar xarizmatik keyfiyyətlərə malik insanları Allahın sevimliləri sayır və müəyyən uğurlar əldə etmək üçün seçilmiş insanlar hesab edirdilər. Təbii ki, xarizmatik liderin bir çox keyfiyyətləri - dində "Allah vergisi" adlandırılan - istedad, ünsiyyətcillik, mehribanlıq, cazibədarlıq, intellekt, insanları inandırmaq və arxasınca apara bilmək bacarığı və s. onun anadangəlmə xüsusiyyətləri ilə bağlıdır.

Xarizmatik liderlik fenomeninin klassik tədqiqatçıları sayılan Maks Veber və Robert Haus bu keyfiyyətləri xarizmatik liderliyin anadangəlmə xüsusiyyətləri hesab edir və "anadangəlmə liderlik" nəzəriyyəsini irəli sürürlər.

Anadangəlmə keyfiyyətlərlə yanaşı, xarizmatik liderin formalaşmasında qazanılmış xüsusiyyətlər - onun xarakteri, həyat təcrübəsi nəticəsində əldə etdiyi digər keyfiyyətlər - təşəbbüskarlıq, özünə inam, məqsədyönlülük, geniş bilik sahəsi, yüksək intellekt, çalışqanlıq çox mühüm rol oynayır. Bu iki keyfiyyət - liderliyin anadangəlmə və qazanılma xüsusiyyətləri birlikdə xarizmatik liderliyin endogen nəzəriyyəsinin əsasını təşkil edir.

Bu nəzəriyyənin bütün komponentlərini ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətində aşkar izləmək mümkündür. Xarizmatik liderin xüsusiyyətlərini və fəaliyyət diapazonunu onun anadangəlmə keyfiyyətləri və həyat təcrübəsində əldə etdiyi idarəetmə bacarığının cəmi kimi izah edən endogen nəzəriyyə ilə yanaşı, liderin meydana çıxmasına səbəb olan mühiti, onun liderliyinə ehtiyacı olan ictimai - sosial toplumun varlığını vacib hesab edən ekzogen nəzəriyyə (C.Homans)də mövcuddur. Ekzogen nəzəriyyəyə görə, "idarə edən" sosial qrupdur, bu qrup elə şəxsi lider seçir ki, həmin lider qrupun gözləntilərini doğrultsun, onun maraqlarını və arzularını həyata keçirsin.

Sosial qrup kimi Azərbaycan xalqını nəzərdən keçirsək, liderliyə tələbatda bu nəzəriyyə də özünü doğruldur.1969-

1987-ci illərdə öz lideri kimi Heydər Əliyevi tanıyan Azərbaycan xalqı ekstremal situasiyada (1988-1993-cü illər) dövlətin başında dayanan hər bir şəxsdə Heydər Əliyevin liderlik keyfiyyətlərini axtardı, bu keyfiyyətləri görmədikdə isə həmin rəhbərləri lider kimi qəbul etmədi.

Xarizmatik lider fenomeninin izahında interaktiv yanaşmanın tərəfdarı olan Robert Hausa, görə xarizma lider və onun davamçılarının (tərəfdarlarının) arasındakı münasibətin xüsusi forması olaraq meydana çıxır. Davamçılar (geniş mənada Azərbaycan xalqı və dünya azərbaycanlıları) hesab edirlər ki,

1.Liderin ideyaları doğrudur;

2.Liderin rəhbərliyi birmənalı qəbul ediləndir;

3.Liderə inanır və ürəkdən bağlanırlar;

4.Öz qarşılarına böyük məqsədlər qoymuşlar;

5.Liderin rəhbərliyi altında əsas missiyalarını həyata keçirəcəklər.

Müstəqil Azərbaycan dövlətinin qurulması, vətəndaş müharibəsinin qarşısının alınması, dövlət çevrilişlərinə cəhdlərin yatırılması, iqtisadi, sosial, siyasi, hüquqi sahədə islahatların uğurla aparılması, neft kontraktlarının bağlanması, beynəlxalq siyasətdəki uğurlar və s. nailiyyətlərimiz Lider – sosial toplum, Heydər Əliyev – Azərbaycan xalqı birliyinin nəticəsində əldə olunmuşdur.

Xarizmatik lider kimi ümummilli lider 1969-cu ildən bu yana həmişə Azərbaycan cəmiyyətinin diqqəti mərkəzində olmuş, xalq onun hər müraciətini, hər çıxışını, hər sözünü nəfəs çəkmədən dinləmiş, ona ürəkdən bağlanmış, öz xilasını və işıqlı sabahını onda görmüşdür.

Xarizmatik liderliyin nəzəri tədqiqi ilə məşğul olan filosoflar aşağıdakıları xarizmatik keyfiyyətlərə aid edirlər:

1.Şəxsiyyətin maqnetik cəzbedici qüvvəsi;

2.Həyati-vacib məsələlərin həllindən ilham almaq, ruhlanmaq;



3.Yerinə yetirdiyi vəzifəsinə uyğun olmaq;

4.Öz gücünə inam və daxili harmoniya;

5.Diqqətini həlli vacib məsələnin üzərində cəmləşdirə bilmək;

6.Ünsiyyətcillik, hər kəslə uzun müddətli münasibət qura bilmək bacarığı;

7.Özünü və başqalarını hər hansı fəaliyyətə kökləyə bilmək;

8.Düzgün yanaşma;

9.Özünün və başqalarının qarşısındakı prioritetləri düzgün müəyyənləşdirmək;

10.Cazibədarlıq;

11.Fəallıq, tükənməz enerji və qərar qəbul etmək bacarığına malik olmaq;

12.Başqalarına nümunə olmaq və həyatsevərlik.

Ümummilli lider Heydər Əliyevin siyasi dühası bu keyfiyyətlərin hamısını özündə cəm etməklə yanaşı, böyük dövlət xadiminə, mübarizə qəhrəmanına, dahi filosofa, dünyagörmüş müdrikə xas olan bir sıra nadir xüsusiyyətlərə də malik idi ki, bu da onun qabiliyyətli zəfər yolunu daim nurlandırmışdır.

**Zamanında düzgün qərar vermək,** uğur əldə olunması təkcə qərar qəbul etməklə bağlı deyil, o qərarın hansı zamanda və məkanda qəbul edilməsindən çox asılıdır. Məsələn, 1992-ci ildə Əbülfəz Elçibəy hakimiyyətə gələn kimi latın qrafikalı əlifbaya keçidlə bağlı fərman verdi. Əslində, bu qərar olaraq doğru idi, lakin zamanı yetişməmişdi, xalq keçidə hazır deyildi. Heydər Əliyev isə hakimiyyətə gələndən yalnız 8 il sonra, 2001-ci ildə latın qrafikalı əlifbaya keçid qərarını verdi. Həmin müddət ərzində bu prosesin həm psixoloji, həm də nəzəri - texniki problemləri aradan qaldırıldı. 1994-cü ilin 20 sentyabrında əsrin müqaviləsi adlanan neft sazişlərinin imzalanması da zamanında verilmiş düzgün qərar idi.

**Cəsarətlilik.** Liderin uğurlu və qalibiyyətli fəaliyyəti üçün çox vacib olan bu keyfiyyət ümummilli lider Heydər Əliyevin həyat kredosu idi. Cəsarətlilik bütün həyatı boyu - istər Dövlət Təhlükəsizlik Komitəsində işləyəndə, istər Sovet dövründə, istərsə də müstəqillik illərində respublikaya rəhbərlik edəndə - Heydər Əliyevin uğurlarını şərtləndirən şəxsi, yüksək insani keyfiyyəti olmuşdur. Onun 1990-cı ilin 21 yanvarında Moskvada Azərbaycanın Daimi Nümayəndəliyinə getməsi və SSRİ hökumətini, Mixail Qorbaçovu ifşa edən çıxışı, 1991-ci il 17 iyulda Sov. İKP sıralarından istefa ərizəsi yazması, 1991-ci ilin mart referendumunun Naxçıvan MR-də keçirilməsinə qadağa qoyması, 1993-cü ilin iyununda Surət Hüseynovun kriminal ünsürlərlə dolu qiyamçı dəstəni zərərsizləşdirmək üçün Gəncəyə getməsi, 4 oktyabr 1994-cü ildə və 16 mart 1995-ci ildə dövlət çevrilişlərinə cəhdlərin qarşısını alması, 2000-ci ilin 25 noyabrında Bakıda baş verən güclü zəlzələdən sonra Prezident Aparatındakı kabinetinə gəlib fəaliyyətini davam etdirməsi, 2003-cü ilin 22 aprelində indi öz adını daşıyan saraydakı çıxışı zamanı iki dəfə huşunu itirməsinə, həkimlərin və yaxınlarının etirazlarına baxmayaraq, var qüvvəsini toplayıb yenidən tribunaya dönüb nitqini bitirməsi və s. dünya liderlik tarixində cəsarətliliyə dair ensiklopediyalara düşə biləcək nadir nümunələrdəndir.

**Uzaqgörənlik.** Uzaqgörənlik siyasi xadimlərdən daha çox dövlət xadimlərinə xas olan bilik və təcrübənin vəhdətindən yaranan düzgün proqnozlaşdırma, hadisələrin ətrafdakıların görə bilmədiyi inkişaf istiqamətinin öncədən müəyyənləşdirilməsidir. Uzaqgörən dövlət xadimi öz siyasətini bir seçki dövrü, bir inkişaf mərhələsi üçün deyil, bütöv epoxa, bəzən bir neçə nəsillər üçün müəyyənləşdirir. Ümummilli lider Heydər Əliyevin psixoloji portretində uzaqgörənlik cizgisi parlaq şəkildə nəzərə çarpır.

Sovet dövründə Azərbaycana rəhbərlik etdiyi dövrlərdə onun gördüyü böyük işlərin, demək olar ki, hamısı müstəqillik



illərində öz bəhrəsini vermiş və bu gün də verməkdədir. C.Naxçıvanski adına hərbi məktəbin yaranması, milli zabit kadrlarımızın hazırlanması Milli Ordumuzun təşkilində tarixi rol oynadı və bu gün milli generallarımızın tam əksəriyyəti bu məktəbi – Heydər Əliyev uzaqgörənliyinin müdavimləridir.

Heydər Əliyev Azərbaycanın gələcəyinin təhsilli və elmli insanlarla bağlı olduğunu nəzərə alaraq hər il minlərlə gənci Sovet İttifaqının aparıcı ali məktəblərinə, akademiyalarına təhsil və elm dalınca göndərirdi. Onların oxumasına maddi və mənəvi dəstək verdi. Bu gün qüdrətli dövlət olan Azərbaycanın qurulmasında və inkişafında həmin kadrların rolu danılmazdır.

1991-ci ilin martında SSRİ-nin saxlanılması ilə bağlı referendumun keçirilməsi ilə əlaqədar müzakirələr keçirilərkən Heydər Əliyev böyük uzaqgörənlik və siyasi qətiyyətlə söylədi ki, SSRİ-nin dağılması qaçılmazdır, tarixi zərurətdir. Zaman göstərdi ki, referenduma getmək əvəzinə, SSRİ-dən çıxmağı təklif edən, Azərbaycanın öz müstəqilliyini təmin etmək potensialının olduğunu uzaqgörənliklə söyləyən Heydər Əliyev nə qədər haqlı idi.

**Müdriklik.** Ümummilli lider Heydər Əliyevin psixoloji portretinin çox mühüm bir əlaməti onun müdriklik keyfiyyətidir. Müdrik qərar qəbul edərkən, eyni zamanda, daha çox parametrləri nəzərə alan, daha az səhv edən şəxsdir.

**Resursları səfərbər etmək və lazımi məcraya yönəltmək qabiliyyəti.** Heydər Əliyev dühasının misilsiz uğurlarını şərtləndirən keyfiyyətlərdən biri də bu xüsusiyyətdir. Bu qabiliyyəti ümummilli liderin bütün qərarlarında, fərman və sərəncamlarında görmək olar. Heydər Əliyev istənilən məsələnin həllinə kompleks yanaşır, aidiyyatı olan bütün qurumları problemin çözülməsi üçün cəlb edirdi.

**Yüksək təşkil olunma və təşkil etmə.** Bu keyfiyyət Heydər Əliyevin bir dövlət xadimi kimi müvəffəqiyyətinin əsasında dayanan çox qiymətli xüsusiyyətidir. Heydər Əliyev heç bir tədbirə, çıxışa, görüşə, fəaliyyətə ikinci dərəcəli iş kimi

baxmırdı. O heç bir tədbirə hazırlıqsız getmirdi, onun geyimi, səliqə - sahmanı, nitqi, davranışı, hətta səsinin tembri də qarşıya qoyulan məqsədə çatmağa xidmət edirdi.

Fenomenal yaddaş, dərin zəka, yüksək savad, böyük intellekt, təkrarolunmaz natiqlik qabiliyyəti Heydər Əliyevin psixoloji portretinin bənzərsiz ifadələridir. Onun uca boy-buxunu, işıqlı gözləri, iti baxışı, şux yerişi, dəqiq jestləri, valeh edici nurlu siması hamını məftun edirdi.

Azərbaycan Yazıçılar Birliyinin sədri Xalq yazıçısı Anarın publisistik düşüncələrində şəxsiyyətin miqyası Heydər Əliyevin vətəndaşlıq siyasəti müstəvisində milli şüurun oyanması, genofondumuzun qorunması axarında təhlil edilir. O göstərmişdir: "Heydər Əliyevin vətəndaşlığının gücü, şəxsiyyətinin miqyası bir tərəfdən onun zamanda gördüyü işlərin, yaratdıqlarının, etdiklərinin, dediklərinin, həyata keçirdiklərinin təsir dairəsi ilə ölçülürsə, digər tərəfdən bu fəaliyyətin tarixdə əks sədası ilə ölçülür. Hər iki meyarla Heydər Əliyev dünyada tanınan və böyük hörməti anılan bir şəxsiyyətdir. Bu danılmaz həqiqəti onu sevənlər də, sevməyənlər də, onu tərəfdaşları olanlar da, ona qarşı olanlar da təsdiq etməyə bilməzlər" (4, s.21-22).

Ulu öndərin o dövrdə apardığı siyasətin psixoloji nəticəsidir ki, bu gün Azərbaycan dövləti "Xalq – Ordu - Prezident" birliyi sayəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyilə "Dəmir yumruq" əməliyyatı keçirdi, tarixi qələbə qazandı. 30 ildən artıq düşmənlərin zəbt etdiyi ərazilərimizə, nəhayət ki, doğma sakinləri geri dönüb öz yuvalarına sahib çıxa bildilər. Deməк, Vətən müharibəsində qazanılmış tarixi Zəfər, hər şeydən öncə, Heydər Əliyev ideologiyasının parlaq təcəssümüdür.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Şəhidlər xiyabanından xalqa etdiyi müraciətdə demişdir: "Mən bu gün ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam



ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!" (6).

Beləliklə, dövlətimizin müstəqillik illərində əldə etdiyi uğurlar məhz Heydər Əliyevin təcrübəsi ilə bilavasitə bağlıdır. Ulu Öndərimizin yarımçıq qalmış arzularının həyata keçirilməsində milləti bir yumruq altında birləşdirməyə nail olmuş Prezident İlham Əliyevin rəhbərliyi altında çoxşaxəli islahatlar daha da yeni və möhtəşəm formada zənginləşdirilir.

**Ədəbiyyat:**

1. Əliyev B.H. Siyasi psixologiyada ümummilli lider problemi // Psixologiya jurnalı, 2004, №1, s.3-11.
2. Əliyev B.H. Milli lider dövlətçiliyin və demokratik inkişafın təzahürü kimi // Psixologiya jurnalı, 2003, №2, s. 3-20
3. Əliyeva V. Ümummilli lider Heydər Əliyev şəxsiyyətinin ali keyfiyyətlərinin psixoloji portreti. Ümummilli lider heydər əliyev şəxsiyyətinin ali keyfiyyətlərinin psixoloji portreti, respublika elmi konfransinin materiallari, Bakı, 2023, s.48-50.
4. Hüseynli B. Heydər Əliyev: yaşanan və yaşadan ömür. "Azərnəşr", 2028.
5. Mirzəyeva S.S., Salamova K.B., Məmmədov C.H.. Siyasi psixologiya. Dərslik, Sumqayıt: SDU-nun redaksiya və nəşr işləri şöbəsi, 2022.
6. https://report.az/c/7056e9f/

**Qəribə Rəhimova**

*Psixologiya üzrə fəlsəfə doktoru, dosent*

## MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİMİZİN QORUNMASINDA HEYDƏR ƏLİYEVİN XİDMƏTLƏRİ

Azərbaycanda dövlət, din münasibətlərinin unikal modelinin formalaşmasında, milli-mənəvi dəyərlərin qorunub saxlanmasında ümummilli lider Heydər Əliyevin xidmətləri əvəzsizdir. Onun milli-dini dəyərlərimizin qorunmasında, İslam dininə ehtiramın nümayiş etdirilməsində, xalqımızın dini etiqadının daha da möhkəmlənməsində, ölkədə vicdan azadlığının bərqərar olunmasında, tolerant və multikultural ənənələrimizin təbliğində və təşviqində misilsiz rolu olmuşdur.

"Biz azərbaycanlılar tariximizlə, milli-mənəvi dəyərlərimizlə fəxr edirik, ana dilimizlə fəxr edirik. Bütün bunlar bizim milli mənəviyyatımızdır, milli-mənəvi dəyərlərimizdir. Ona görə də biz həm də İslam dininə, İslam mədəniyyətinə mənsub olmağımızla fəxr edirik" deyən Ulu Öndər xalqın milli kimliyinin möhkəmləndirilməsi, eləcə də zəngin irsimizin, mədəniyyətimizin, incəsənətimizin, adət-ənənələrimizin qorunub saxlanılması istiqamətində çox mühüm tədbirlər həyata keçirmişdir. Adət-ənənələrimizi qoruyur, ana dilimizi inkişaf etdiririk. 1993-cü ildə Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə gənc dövlətin siyasi və iqtisadi əsasları yaradıldı, eyni zamanda, Azərbaycan xalqının milli-mənəvi irsini - azərbaycançılıq ideologiyasını özündə ehtiva edən ideya formalaşdı. Məhz Ulu Öndərin həyata keçirdiyi milli siyasət fonunda dövlət səviyyəsində xalqın keçmişinə, milli adət və ənənələrinə, dininə qayğı göstərilməyə başladı, milli-mənəvi dəyərlərə münasibət köklü şəkildə dəyişdi və bu dəyişikliklər fonunda ölkədə din və etiqad azadlığı bərqərar oldu. Vətəndaşların vicdan azadlığı Heydər Əliyevin müəllifi olduğu Konstitusiyamızın 48-ci maddəsində öz əksini tapmışdır.



Vaxtilə qadağan olunmuş və haram sayılan milli və dini bayramlar, adət və mərasimlər xalqa qaytarıldı. Heydər Əliyev hər il qədim milli bayramımız olan Novruzu əhali ilə birlikdə qeyd etməyə çıxıb, azad və müstəqil xalqımızın Novruz sevincindən xüsusi həzz alırdı. O, bu tədbirləri təkcə Azərbaycanda deyil, bütün türk dünyasında keçirib. O, ümumi türk mədəniyyətinin və mənəviyyatının tədrisi və təbliği, keçmişdən gələcəyə ötürülməsi sahəsində müstəsna xidmətlər göstərmişdir. Qırğız dastanı "Manas"ın 1000 illik yubileyində iştirak və çıxış etməklə bütün türk dünyası üçün əvəzolunmaz müdrik şəxsiyyət olduğunu bir daha sübut etdi.

Heydər Əliyev İslam dini ilə bağlı mərasimlərin və adətlərin düzgün aparılması üçün hər cür şərait yaratmışdır. Onun 1994-cü ildə Səudiyyə Ərəbistanına rəsmi səfəri zamanı müqəddəs Kəbəni ziyarət etməsi, Mirmövsüm ağa ziyarətgahında din xadimləri və dindarlarla görüşü, Bibiheybət məscidi kompleksinin yenidən qurulmasına xeyir-dua verməsi Ulu Öndərin ümummilli liderimizə sadiqliyinin əsl təsdiqi oldu.

Qloballaşan dünyada o, əxlaqi dəyərlərin böyük təhlükə altında olduğu bir vaxtda həlledici lider kimi mövqeyini nümayiş etdirdi. Onun milli-mənəvi dəyərlərin qorunması ilə bağlı 2001-ci il 13 avqust tarixli "Milli mənəvi dəyərlərin pozulması xalqımıza qarşı bağışlanmaz xəyanətdir" bəyanatı təkcə dövlət başçısının deyil, həm də müdrik ağsaqqalımızın mövqeyi idi. İnsanlar Ümummilli liderin "Biz milli mənəvi dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik" deyən maarifçi ideyaları bu gün də yaşayır və həyata keçirilir.

Heydər Əliyev milli-mənəvi dəyərlərimizin öyrənilməsini, qorunub saxlanmasını və inkişaf etdirilməsini əsas vəzifələrdən biri kimi qarşıya qoydu. Onlarsız millət olmaz.

Onları qoruyub saxlayan xalq isə həmişə müstəqillik yolu ilə getmək, müstəqilliyini qorumaq əzmindədir.

Heydər Əliyev deyirdi: "...Hər bir azərbaycanlı öz milli mənsubiyyəti ilə fəxr etməli, biz azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini qoruyub saxlamalıyıq".

Heydər Əliyev İslam dinini milli-mənəvi varlığımızın tərkib hissəsi hesab edirdi. "Bizim dinimiz mütərəqqi bir dindir. İslam dini nə qədər mütərəqqi və dünyəvi olduğunu onu tətbiq edən insanlara əsrlər boyu sübut etmiş və müsəlmanlara daimi xoşbəxtlik bəxş etmişdir. Dinimiz hər zaman müsəlmanlara həyatlarında qarşılaşdıqları çətinliklərdən xilas olmaq, düşmənlərlə mübarizədə qalib gəlmək, özünü, ölkəsini, dinini və peşəsini qoruyub saxlamağa kömək etmişdir. Şübhə yoxdur ki, İslam öz tarixində dünyaya nümayiş etdirdiyi əzəmət və qüdrətini daha da gücləndirəcək, İslamı qəbul edən bütün insanları səadətə və səadətə aparacaqdır" – bu sözlər onun dinə baxışını çox aydın şəkildə yekunlaşdırır. Ulu öndər inanırdı ki, dinimizin mənəvi dəyərlər sistemi kimi qəbul edilməsi gənclərin formalaşmasında müsbət rol oynayacaq, eyni zamanda Azərbaycan multikulturalizminin əsasını qoymuşdur. Azərbaycan xalqının təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə gələn ümummilli lider ölkədəki xaosa, özbaşınalığa son qoydu, ölkəmizi vətəndaş qarşıdurması kimi böyük bəladan xilas etdi. Belə bir dövrdə Azərbaycanda yaşayan bütün xalqların və dinlərin nümayəndələrinin ümumi dəyərlər ətrafında birləşməsinə ehtiyac var idi. O, azərbaycançılıq ideologiyasının prinsiplərini elan edərək, ölkəmizin parlaq inkişaf və tərəqqi yolunun əsasını qoydu. O, çıxışlarının birində demişdir: "Azərbaycanda qədim zamanlardan müxtəlif xalqların nümayəndələri yaşamış, bir çox xalqların dinləri olmuşdur. Azərbaycan və onun xalqı həmişə dini tolerantlığı ilə seçilib. Azərbaycanda heç vaxt dini zəmində qarşıdurmalar, toqquşmalar olmayıb. Ötən əsrin 80-ci illərinin sonu - 90-cı



illərin əvvəllərinin çətin dövründə də heç bir neqativ fakt qeydə alınmamışdı. Bu gün müstəqil Azərbaycanda hər bir insanın azadlığı, o cümlədən dini etiqad və vicdan azadlığı üçün hər cür şərait yaradılıb. Hər kəs mənsub olduğu dinə inanır. Lakin bu, insanların Azərbaycanda mehriban, qarşılıqlı anlaşma şəraitində yaşamasına mane olmur; milli və dini zəmində heç bir ayrı-seçkilik yoxdur. "Bu fikirlər böyük şəxsiyyətin uzaqgörən siyasətini ifadə etmək üçün kifayətdir. Ulu Öndər azərbaycançılıq məfkurəsi ilə dilindən, dinindən, milliyyətindən, irqindən və sosial mənsubiyyətindən asılı olmayaraq bütün ölkə vətəndaşlarını ortaq vətən naminə həmrəy olmağa səsləyib. Milliyyətindən, dinindən asılı olmayaraq hər bir vətəndaşın bu torpağa milli mənsubiyyət hissi keçirməsi tolerantlığın bariz təzahürünə çevrilib.

Milli-mənəvi, xüsusilə dini dəyərlər sisteminin sağlam səviyyədə inkişaf etdirilməsi və qorunması üçün güclü siyasi iradə, o cümlədən dövlət təcrübəsi tələb olunurdu. Heydər Əliyev bu xüsusiyyətləri özündə cəmləşdirən tarixi şəxsiyyət kimi bu vəzifənin öhdəsindən məharətlə gəlirdi. Ölkəmizdə dini təhlükəsizliyin təmin edilməsi üçün hüquqi və inzibati sahədə zəruri tədbirlərin görülməsi ilə yanaşı, məzhəbçilik, dini nifrət və ayrı-seçkiliyin bərqərar olmasının qarşısı qətiyyətlə alınıb. Azərbaycanın o dövrdə düşdüyü ağır vəziyyətdən çıxmasını istəməyən daxili və xarici qüvvələr hər cür vasitələrlə Heydər Əliyevə mane olmağa çalışsalar da, bu iyrənc təxribatlar uğursuzluqla nəticələndi. Azərbaycanın ən böyük ziyalısı çox çətin bir zamanda məsuliyyəti öz üzərinə götürərək xalqımızın dəyər sistemini məhv olmaq təhlükəsindən xilas etdi.

Ulu öndərimiz sovet dövründə olduğu kimi, Azərbaycanın müstəqillik illərində də milli dəyərlərimizin məsuliyyətini öz üzərinə götürüb. O, milli dövlətçiliyə milli ruhun qorunmasının, inkişafının və yeni nəsillərə çatdırılmasının ali forması kimi baxırdı. Bu gün milli dəyərlərimiz dövlətin

özünün himayəsi altında bütün xalq tərəfindən qorunur və inkişaf etdirilir. Dövlətçiliklə milliliyin vəhdəti bütün xalqların ən böyük arzusu və idealı idi. Bu gün biz təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş müstəqil dövlətimizdə milli birlik dövründə yaşayırıq. Milli birliyimizin gücü Vətən müharibəsində tarixi şöhrətimizin qazanılmasında özünü göstərdi. Müasir dövrdə milli dəyərlərin inkişafını ümumbəşəri dəyərlərdən ayrı təsəvvür etmək mümkün deyil. Ümummilli liderin fikrincə, milli dəyərlər öz milliliyini qoruyub saxlamalı və məzmununu ümumbəşəri dəyərlərlə zənginləşdirməli, dünya mədəniyyətinin nailiyyətlərindən bəhrələnməli və inkişaf etməlidir. Azərbaycan xalqının böyük oğlunun milli ideologiyanın ən mühüm istiqamətlərindən və tərkib hissələrindən biri hesab etdiyi milli dəyərlərin özü də mürəkkəb daxili quruluşa malikdir. Ulu öndərimiz milli dəyərlərin üç tərkib hissəsini xüsusi vurğulamış, dilin, adət-ənənənin, milli mentalitetin rolunu xüsusilə yüksək qiymətləndirmişdir.

Görkəmli dövlət xadimi bildirib ki, milli dövlət bir tərəfdən ərazinin, iqtisadi sərvətlərin qorunmasına xidmət etdiyi halda, digər tərəfdən də milli dəyərlərin qorunması və müstəqil inkişafını təmin etmək məqsədi daşıyır. O, milli dəyərlərimizi təkcə milli varlığımızın mühüm atributu kimi deyil, həm də siyasi varlığımızın mühüm atributu - dövlət quruculuğu prosesi kimi dəyərləndirib. Mənsub olduğu tarixi keçmişə, mədəni irsə, milli dəyərlər sisteminə sönməz məhəbbət hissləri ilə yanaşan Ulu Öndər demişdir: "Hamımızı birləşdirən, birləşdirən azərbaycançılıq ideyasıdır. Azərbaycançılıq öz milli varlığını, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək, hər bir insanın inkişafını təmin etmək deməkdir". Ümummilli liderimizin siyasi varisi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən milli dəyərlərə dövlət səviyyəsində böyük diqqət və qayğı göstərilir. Ulu öndərin milli dəyərlərin



qorunması, inkişafı və gələcək nəsillərə çatdırılması ilə bağlı ideyalarını hər bir məsələdə meyar kimi görən dövlətimizin başçısının siyasətini bu dövrdə də müasir dövrün reallıqları müəyyən edir.Bu gün dövlət milli dəyərlərimizin qarantına çevrilib. Dövlət başçısı xalqımızın milli dəyərlərinin təbliğinə, gənclərimizin bu ruhda tərbiyə olunmasına ciddi diqqət yetirir. Prezident İlham Əliyevin milli ideologiya ilə bağlı fikirləri onun siyasi portretinin əsas xüsusiyyətlərini təcəssüm etdirir. Heydər Əliyev Fondunun milli dəyərlərimizin qorunması və təbliği istiqamətində geniş fəaliyyətini xalqımız da böyük minnətdarlıq hissi ilə qarşılayır. Ulu öndərimizin milli dəyərlərin qorunub saxlanması istiqamətində siyasi fəaliyyəti həmişə aktualdır və bu siyasət Azərbaycan dövlətçiliyinin ən mühüm vəzifələrindən biridir. Hər bir xalqın, millətin varlığı onun ana dilinə, adət-ənənələrinə, mədəniyyətinə, ədəbiyyatına, tarixinə bağlılığından asılıdır. Azərbaycan xalqı məhz milli-mənəvi dəyərlərinə sədaqəti sayəsində öz varlığını, milli kimliyini bu günə kimi qoruyub saxlaya bilmişdir.

Bu gün biz müstəqil dövlətlərimizdə əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş milli birlik dövründə yaşayırıq. Milli birliyimizin gücü Vətən Müharibəsindəki tarixi Qələbəmizdə özünü göstərdi. Heydər Əliyevin dinə, milli-mənəvi dəyərlərimizə münasibəti həmişə dəyişməz olub və bu sahədə apardığı siyasətlə həm xalqına, bəşəriyyətinə, həm də mənsub olduğu dinə xidmət edib.

Ulu Öndərin ikinci dəfə hakimiyyətə qayıdışı xilasetmə missiyasının başlanğıcı oldu. Cəbhədə atəşkəs əldə olundu, "Əsrin müqaviləsi" imzalandı, yeni konstitusiyamız qəbul edildi, milli-mənəvi dəyərlərimizin qorunması konsepsiyasına uyğun olaraq Azərbaycanda dövlət quruculuğu prosesi başlandı. Sivilizasiyalar və dinlər, azərbaycançılığın hakim ideologiyaya çevrilməsi qaçılmaz oldu. Heydər Əliyevin siyasi iradəsi nəticəsində Azərbaycanda tarixən formalaşmış tolerantlıq və multikulturalizm ənənələri hüquqi-siyasi müs-

təvidə bərpa edilib. O, Azərbaycanın gələcək uğurlu inkişafı üçün aydın ideoloji məqsəd seçmiş və özünün uzaqgörən və müdrik siyasəti ilə çoxəsrlik multikulturalizm ənənəsini inkişaf etdirərək onu keyfiyyətcə yeni mərhələyə qaldırmışdır.

Görkəmli dövlət xadimi bildirdi ki, milli dövlət bir tərəfdən ərazisinin, iqtisadi sərvətinin qorunmasına xidmət edir, digər tərəfdən də milli dəyərlərin qorunmasına, müstəqil inkişafın təmin olunmasına çalışır.

O, milli dəyərlərimizi təkcə milli varlığımızın mühüm atributu kimi deyil, həm də siyasi varlığımızın mühüm atributu - dövlət quruculuğu prosesi kimi dəyərləndirib. Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə milli-mənəvi dəyərlərin qorunmasına və təbliğinə xüsusi diqqət yetirmişdir. Ulu Öndər bu dəyərləri yüksək qiymətləndirərək demişdir: “Biz milli-mənəvi dəyərlərimizlə fəxr etməliyik. Milli-mənəvi dəyərlərimiz əsrlər boyu xalqımızın həyat və fəaliyyətində, xalqımızın fəaliyyətində formalaşmışdır. Milli-mənəvi dəyərləri olmayan xalq əsl xalq, həqiqi xalq ola bilməz”.

Milli dəyərlərimizin dünyaya tanıdılmasında müstəsna rol oynayan Ulu Öndər xarici ölkələrə səfərləri zamanı soydaşlarımıza xalqımıza xas olan milli-mənəvi dəyərlərə, adət-ənənələrə sədaqətlərini qoruyub saxlamağı və təbliğ etməyi tövsiyə edib. Azərbaycanın mədəniyyət və incəsənət xadimlərinin Ulu Öndəri xarici səfərlərdə müşayiət etməsi artıq ənənə halını alıb. Qədim dövlətçilik tarixinə malik Azərbaycan xalqı öz milli dəyərlərinə daim sadiq qalmış, bu dəyərləri əsrlər boyu yaşatmış, inkişaf etdirmişdir. Milli dəyərlərimiz Azərbaycan xalqının formalaşmasına böyük təsir göstərdiyi kimi, milli dövlətçiliyimizin möhkəmlənməsində də xüsusi rol oynayır.

Yaxın keçmişdə milli dəyərlərimizin qorunması və inkişafı məhz ulu öndərin adı ilə bağlıdır. Onun Azərbaycana rəhbərlik etdiyi ilk dövrdə respublikamızın ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında uğurlu yeniliklər, dəyişikliklər



başlanmışdır. Ulu öndər Heydər Əliyev rəsmi tədbirlərdə Azərbaycan dilində çıxış etməklə 1978-ci ildə qəbul edilmiş Konstitusiyada Azərbaycan dilinin dövlət dili statusuna nail oldu. Ümummilli liderin 1969-cu ildən 1982-ci ilə qədərki siyasi fəaliyyət illərini öyrəndikdə onun dilimizə, tariximizə, mədəniyyətimizə, musiqimizə, ədəbiyyatımıza məhz dövlət maraqları baxımından yanaşdığını görürük. Onun məqsədi və missiyası Azərbaycanın iqtisadi inkişafı, xalqın milli dirçəlişi yolu ilə müstəqil dövlətimizin yaradılması, milli özünüdərkin oyanması idi. 1982-ci ildə Heydər Əliyevin SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə seçilməsi o zaman “Kremldə dalğalanan əzəmətli türk bayrağı” kimi qiymətləndirildi. Ulu öndər bu vəzifədə böyük məharətlə milli mənafeyə xidmət etməyi bacardı.

Ulu öndərimiz sovet dövründə olduğu kimi, Azərbaycanın müstəqillik illərində də milli dəyərlərimizin məsuliyyətini öz üzərinə götürdü. O, milli dövlətçiliyə milli ruhun qorunmasının, inkişafının və yeni nəsillərə çatdırılmasının ali forması kimi baxırdı. Bu gün milli dəyərlərimiz dövlətin özünün himayəsi altında bütün xalq tərəfindən qorunur və inkişaf etdirilir. Dövlətçilik və milliyyət birliyi bütün xalqların ən böyük arzusu və idealı idi. Bu gün biz təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş müstəqil dövlətimizdə milli birlik dövründə yaşayırıq. Müasir dövrdə milli dəyərlərin inkişafını ümumbəşəri dəyərlərdən ayrı təsəvvür etmək mümkün deyil.

Ümummilli lider milli dəyərlərimizi təkcə milli varlığımızın deyil, həm də siyasi varlığımızın, dövlət quruculuğu prosesinin mühüm atributu kimi dəyərləndirib. Mənsub olduğu xalqın tarixi keçmişinə, mədəni irsinə, milli dəyərlər sisteminə sönməz məhəbbət hissi keçirən Ulu Öndər demişdir: “Hamımızı birləşdirən azərbaycançılıq ideyasıdır. Azərbaycançılıq öz milli kimliyini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri

dəyərlərlə sintezindən və inteqrasiyasından bəhrələnmək, hər bir insanın inkişafını təmin etmək deməkdir".

Heydər Əliyev Fondunun milli dəyərlərimizin qorunması və təbliği istiqamətində geniş fəaliyyətini xalqımız da böyük minnətdarlıq hissi ilə qarşılayır. Ulu öndərimizin milli dəyərlərin qorunub saxlanması istiqamətində siyasi fəaliyyəti həmişə aktualdır və bu siyasət Azərbaycan dövlətçiliyinin ən mühüm vəzifələrindən biridir. Xalqımızın ən böyük sərvətlərindən biri onun zəngin milli, mənəvi, mədəni, maddi, ədəbi və dövlət irsidir. Bu zəngin mənəvi irs xalqımız tərəfindən əsrlər boyu yaradılmış və onun böyük hissəsi günümüzə qədər gəlib çatmışdır. Milli dövlətin formalaşmasında, onun davamlı və əbədi varlığında, mənəvi dayaqlarının milli dəyərlərlə uzlaşması böyük əhəmiyyət kəsb edir. Bu baxımdan ulu öndər Heydər Əliyev məktəbinin gənc nəslə aşılanması ən vacib məsələlərdən biridir. Hər bir xalqın, millətin varlığı onun ana dilinə, adət-ənənələrinə, mədəniyyətinə, ədəbiyyatına, tarixinə bağlılığından asılıdır. Azərbaycan xalqı məhz milli-mənəvi dəyərlərinə sədaqəti sayəsində öz varlığını, milli kimliyini bu günə kimi qoruyub saxlaya bilmişdir. Xalqımızın ən böyük sərvətlərindən biri onun zəngin milli, mənəvi, mədəni, maddi, ədəbi və dövlət irsidir. Bu zəngin mənəvi irs xalqımız tərəfindən əsrlər boyu yaradılmış və onun böyük hissəsi günümüzə qədər gəlib çatmışdır. Milli dövlət formalaşarkən onun mənəvi əsasları milli dəyərlərlə həmahəng olmalı, onu möhkəm və əbədi etməlidir. Bu baxımdan gənc nəslə Ulu Öndər Heydər Əliyev məktəbinin aşılanması ən vacib məsələlərdən biridir.

Sərhədsiz qürur hissi ilə dünyaya "Mən fəxr edirəm ki, azərbaycanlıyam" deyən bu böyük şəxsiyyət bütün varlığı ilə doğma xalqının milli-mənəvi dəyərlərinə bağlı olub. Ümumiyyətlə, milli-mənəvi dəyərlərimiz Heydər Əliyev dövlətçiliyinin və Heydər Əliyev siyasi kursunun əsas prioritetlərindən biri olub və bu gün bu xətt Azərbaycan Respublikasının



Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan tarixinin şanlı səhifələri böyük qəhrəmanlarla doludur. Heydər Əliyev ayrıca qəhrəmanlıq salnaməsidir. Azərbaycan hər səhifədə dirçəldi, böyüdü və gələcək nəsillər üçün, onun milli mədəniyyəti, dəyərləri, milli ideologiyası üçün əbədi bir işıq oldu. Nə gözəldir ki, Ulu Öndərin ənənələri bu gün yaşayır, inkişaf edir və uğurla davam etdirilir. Milli mədəniyyətimizin qorunub saxlanmasının, gələcək nəsillərə çatdırılmasının təminatçısı Azərbaycan Prezidenti İlham Əliyevdir. Heydər Əliyev Fondu əcdadlarımızdan miras qalmış mədəniyyət incilərinin qorunub saxlanılması, bu əvəzsiz sərvətin gələcək nəsillərə çatdırılması istiqamətində məqsədyönlü işlər həyata keçirir.

### Ədəbiyyat


1. İ.Hüseynova "Müstəqilliyimizin təminatçısı" Bakı – 2003. 504 səh
2. "Heydər Əliyev və azərbaycançılıq məfkurəsi"Bakı - 2002, 232 səh
3. R.Heydər "İlhamlı gələcək". (Qarabağ simfoniyası). Bakı – 2004, 268 səh
4. M.Yusifov "Milli Lider və müstəqil dövlətçilik". Bakı - 2005, 210 səh.
5. "Heydər Əliyev. Müstəqilliyimiz əbədidir". 2cild. Bakı - 2013, 752 səh.

**Tamella Ağayeva**
*Psixologiya üzrə fəlsəfə doktoru, dosent*

## XALQA HƏSR OLUNMUŞ ÖMÜR

Hər bir xalqın milli azadlıq və istiqlaliyyət tarixində xilaskar rolunu oynayan dahi insanları olmuşdur. Bu dahilər oz qətiyyətləri ilə mənsub olduqları xalqı arxasınca aparıb, ən taleyüklü məqamlarda qalib rolu oynamışlar.

Azərbaycan xalqının Umummilli lideri Heydər Əlirza oğlu Əliyev müasir dünya tarixində parlaq və silinməz iz qoymuş böyük şəxsiyyət, qeyri-adi zəka, fitri istedad sahibi, müdrik dövlət xadimi kimi düşmüşdür.

Heydər Əliyev bütün həyatını xalqa sədaqətlə xidmətə həsr etmiş, öz fəaliyyətində həmişə xalqa arxalanmış, ən çətin anlarda ona müraciət etmiş, Azərbaycan xalqı da öz növbəsində öz sevgi və dəstəyini ondan heç vaxt əsirgəməmişdir. Onun həyat yolu yüksək insani-əxlaqi keyfiyyətləri özündə təcəssüm etdirən nümunə məktəbidir.

Tarixə öz adını əbədi həkk etmiş nadir şəxsiyyət, qüdrətli siyasi xadim Heydər Əliyevin həyat və fəaliyyəti hər bir Azərbaycan vətəndaşının qürur mənbəyidir.

Heydər Əliyev 1944-cu ildən təhlükəsizlik orqanları sistemində çalışmış, 1964-cü ildən Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsi sədri nin müavini, 1967-ci ildə general-mayor rütbəsinə qədər yüksəlmiş və Dövlət Təhlü kəsizliyi Komitəsi sədri vəzifəsində işləmişdir. 1969-cu ildə o, Azərbaycan SSR Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi, 1982-ci ildən 1987-ci ilə qədər SSRİ-nin rəhbərlərindən biri - Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Burosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci muavini vəzi fəsində çalışmışdı.



Heydər Əliyev 1991-ci ilin iyulunda Dağlıq Qarabağda yaranmış kəskin münaqişəli vəziyyətlə bağlı SSRİ rəhbərliyinin ermənipərəst siyasətinə, Sovet İttifaqı Kommunist Partiyasının baş katibi Mixail Qorbacovun yeritdiyi daxili və xarici siyasətə etiraz edərək Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk etmiş və tutduğu vəzifələrdən istefa vermişdir.

Heydər Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qətliyamala bağlı Azərbaycanın Moskvadakı nümayəndəliyində bəyanatla çıxış edib, Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalan dırılmasını tələb etmişdir. Həmin dövrdə Azərbaycana qayıdan Heydər Əliyev ermənilər tərəfindən blokadaya alınmış Naxçıvana gəlmiş və Naxçıvanın Muxtar Respublikası Ali Məclisinin sədri kimi fəaliyyət göstərib Naxçıvan əhalisini aclıq və səfalətdən xilas etmişdir. 1991-1993-cü illərdə ölkədə xaos, hərcimərcilik, anarxiya baş alıb gedirdi, xalq cəbhəsi - müsavat cütlüyündə hakimiyyət davası, daxili çəkişmələr özünün pik həddinə çatmışdı. Bundan istifadə edən erməni faşistləri Azərbaycanın əzəli, tarixi torpaqlarını bir -birinin ardınca işğal edib, kənd, qəsəbə və şəhərləri xarabazara çevirir, oradakı insanları öz ev-eşiyindən qovur, onlara divan tuturdu.

Xalq Azərbaycanda vətəndaş müharibəsi, ölkənin parçalanması və müstəqilliyin əldən getməsi təhlükəsini görərək 1993-cü ildə Azərbaycan dövlətini xilas etmək üçün Ümummilli lider Heydər Əliye və üz tutdu. O zamankı ölkənin üzdəniraq "rəhbərləri"də Azərbaycanı məruz qoyduqları təhlükədən xilas etmək üçün Ulu öndər Heydər Əliyevin Bakıya gəlməsini yeganə çıxış yolu olduğunu dərk etdilər.

Beləlikləxalqın təkidi, tələb və xahişi ilə yenidən hakimiyyətə qayıdan böyük şəxsiyyət Heydər Əliyev Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini olaraq, ilk Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata

keçirməyə başladı və ölkənin başının üstünü almış bütün bəlalardan hifz edib qorudu.

3 oktyabr 1993-cü il tarixində Ulu öndər Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsindən sonra həyata keçirilən siyasi kurs dövlətin əsl müstəqil liyini təmin etdi 1993 -1998-ci illərdə umumxalq səsverməsi nəticəsində Azərbaycan Respublikasının Prezidenti seçildi.

Ulu öndər Heydər Əliyevin gərgin fəaliyyəti və səyləri sayəsində respublikada ictimai - siyasi sabitlik təmin edildi, vətəndaş qarşıdurması aradan qaldırdı, ölkə parçalanmaq təhlükəsindən xilas oldu, milli qurtuluşu təmin edildi, xalqın sosial-iqtisadi vəziyyəti yaxşılaşdırıldı. Ölkə demokratiya, hüquqi dövlət quruculuğu yolu ilə irəlilədi və dövlət - xalq birliyi yarandı.

1994-cü il mayın 12-də cəbhədə atəşkəsin əldə edilməsindən sonra dövlətçiliyin möhkəmləndirilməsi, nizami ordu quruculuğu, eləcə də ölkə həyatının bütün sahələrində dinamik inkişafın təmin edilməsi baxımından zəruri addımlar atıldı. Reallaşdırılan ardıcıl və sistemli tədbirlərin nəticəsi kimi, ölkədə əmin-amanlıq yarandı, sabitlik bərqərar oldu, azad bazar iqtisadiyyatına keçidlə bağlı özəlləşdirməyə geniş meydan verildi, genişmiqyaslı islahatlara başlandı.

Böyük öndər, ümummilli lider Heydər Əliyevin işləyib reallaşdırdığı milli neft strate giyası: "Əsrin müqaviləsi" Azərbaycana böyük siyasi-iqtisadi fayda gətirdi. Bu, ölkə üçün böyük strateji əhəmiyyət daşıyan sahələrinin inkişafına, bütün digər sahələr də də genişmiqyaslı islahatların aparılmasına böyük imkanlar açmış oldu. Hazırda Azərbaycan xalqı bu möhtəşəm strategiyanın real nəticələrini görür. "Əsrin müqaviləsi" çərçivəsində Bakı-Tbilisi-Ceyhan neft boru kəməri Azərbaycanın bir çox Qərb ölkələri ilə sıx əməkdaşlıq etməsinə şərait yaradır.

Azərbaycan dövlətinin iri beynəlxalq layihələrdə iştirakı, Böyük İpək Yolunun bərpası TRASEKA nəqliyyat



dəhlizinin həyata vəsiqə alması məhz, ulu öndərin ən böyük xidmətlərindəndir.

1995-ci ilin noyabrında Heydər Əliyevin rəhbərliyi altında hazırlanmış və ümumxalq səs verməsi ilə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiya ölkənin gələcək inkişaf yollarını müəyyənləşdirməklə yanaşı, həm də insan hüquq və azadlıqlarının təminatçısı olaraq qiymətləndirildi.

Kütləvi informasiya vasitələri üzərində senzura aradan qaldırıldı, insan və vətəndaş hüquq və azadlıqları yüksək səviyyədə təmin edildi. Öz fəaliyyətini Azərbaycanın hərtərəfli inkişafına həsr edən Heydər Əliyev, eyni zamanda, dövlətin hüquqi bazasının möhkəmləndirilməsi istiqamətində çox vacib addımlar atdı. Məhkəmə islahatlarının həyata keçirilməsi, Konstitusiya Məhkəməsinin və digər mühüm təsisatların yaradılması ölkədə demokratikləşmə prosesinin irəliyə aparılmasında mühüm rol oynadı. Azərbaycanda hüquqi, demokratik və dünyəvi dövlət quruldu, vətəndaş cəmiyyətinin bərqərar edilməsi istiqamətində ciddi addımlar atıldı. Ölkədə Ombudsman təsisatının yaradılması, ölüm hökmünün ləğv edilməsi və s. bu kimi qanunlar qəbul edildi. Onun milli maraqlara əsaslanan uğurlu xarici siyasəti nəticəsində Azərbaycanın beynəlxalq mövqeyi daha da möhkəmləndi və dünya ölkələri arasında etibarlı tərəfdaş kimi tanınmağa başladı. Beləliklə də, onun ölkəmizə rəhbərlik etdiyi illər tariximizə intibah, milli tərəqqi, milli oyanış , nəhayət, müstəqil dövlət quruculuğu dövrü kimi daxil oldu. Bütün varlığı ilə Azərbaycana, öz vətəni və xalqına bağlı olan böyük şəxsiyyət və dövlət xadimi Heydər Əliyev öz həyatını, zəngin dövlətçilik təcrübəsini ölkənin xoşbəxt gələcəyinə, onun inkişaf etmiş sivil dövlətlər səviyyəsinə yüksəldilməsinə həsr etmişdir.

Heydər Əliyevin xalqa göstərdiyi yüksək diqqət və qayğısı onun imzaladığı fərman və sərəncamlarda, keçirdiyi

çoxsaylı görüşlərdə, söylədiyi dərin məzmunlu nitqlərin də öz əksini tapmışdır. Uzaqgörən sərkərdə dövlətin müdafiəsi, milli - siyasi istiqamətlərini formalaşdırmış, ölkədə dövlət quruculuğu iqtisadi müstəqillik, ordu quruculuğu strategiyalarını zərgər dəqiqliyi işləmişdir. Məhz, onun bu siyasəti nəticəsində müharibədən sarsılmış, 2 milyona yaxın qaçqını, köçkünü olan Azərbaycan dövlətinə yeni nəfəs verərək, xalqın maddi rifahını yüksəltmiş və öz haqq səsini Dünya siyasi kürsülərində eşidilməsinə nail olmuşdur.

Azərbaycançılığı milli bir ideologiya kimi irəli sürən H.Əliyevə milli-mənəvi dəyərləri bu ideologiyanın ən mühüm istiqamət və tərkib hissələrindən biri kimi qiymətləndirirdi. Onun bütün dünya azərbaycanlıları üçün həmişə bir fəaliyyət devizi olan: "Hər bir azərbaycanlı mənsubiyyətinə görə qürur keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini yaşatmalıyıq" fikri milli mənsubiyyətin, milli-mənəvi dəyərlərin qorunub saxlanması, həmçinin onların ümum bəşəri dəyərlərlə səsləşməsi və inteqrasiyası deməkdir.

Heydər Əliyev qürur hissi ilə deyirdi: "Mən həmişə fəxr etmişəm, indi də fəxr edirəm ki, mən azərbaycanlıyam...". Bu gün Azərbaycan xalq fəxr edir ki, onun Heydər Əliyev kimi bir övladı var. Qəlbi həmişə Azərbaycanla döyünən Heydər Əliyevin parlaq xatirəsi daim anılacaq və seviləcəkdir. Ölkəmizdə ictimai-siyasi sabitliyin qorunmasının, mövcud iqtisadi inkişafın, hərtərəfli tərəqqinin təməlində Ümummilli lider Heydər Əliyevin inkişaf strategiyası, Onun müəyyənləşdirdiyi daxili və xarici siyasət xətti dayanır. Ümummilli liderin xalq qarşısında ən böyük və tarixi xidmətlərindən biri də Azərbaycanı cəsarətlə idarə etməyə qadir olan layiqli davamçını hazırlamasıdır. MüasirAzərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın istər daxili, istərsə də xarici siyasətdə əldə etdiyi hər bir uğur Dahi Öndər Heydər



Əliyev irsinin parlaq təcəssümü, əmanət qoyub getdiyi ideyaların təntənəsidir.

Heydər Əlirza oğlu Əliyevin siyasətini bu gün də uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin iqtisadi - siyasi - hərbi fəaliyyəti: Vətən muharibəsindəki möhtəşəm qələbəsi, Azərbaycanın dövlətçiliyi və milli maraqlarının qətiyyətlə müdafiə etməsi, onun öz xalqına, dövlətinin süverenliyinə nə qədər bağlı olduğunu əyani şəkildə özünü göstərdi.

44 günlük müharibə və qondarma Dağlıq Qarabağ separatçılarının işğal olunmuş ərazilərdən qovulması, informasiya müharibəsində Azərbaycanın haqq səsini məharətlə ucaltması cənab İlham Əliyevin müzəffər sərkərdə, diplomatika sahəsində isə böyük strateq olduğunu bütün dünyaya bir daha nümayiş etdirdi. Bütün təzyiqlərə cəsarətlə sinə gərib, o, xalqı ilə vəhdətdə olan lider kimi mübarizlik, müdriklik rəmzinə çevrildi. Bu gün Azərbaycan Prezidenti cənab İlham Əliyev dünyada zəngin dövlətçilik məktəbi olan H.Əliyevdən dərs almış, təcrübəli diplomat, ən islahatçı dövlət başçılarından biri kimi qəbul edilir.

Onun düşünülmüş siyasət nəticəsində Azərbaycan dünyanı bürüyən maliyyə böhranı zamanı da ən az zərər çəkən ölkə olmuşdur. Sevindirici haldır ki, ümummilli liderimizin siyasi xətti bu gün Prezident İlham Əliyev tərəfindən qloballaşan dünyanın tələbinə uyğun olaraq yeni məzmun və keyfiyyətdə uğurla davam etdirir. Bəli,Azərbaycanın bugünkü sürətli və irimiqyaslı inkişafının təməlini böyük şəxsiy yət dahi insan Heydər Əliyev yaradıb. Dövlətinmiz onun yaratdığı fundamental tə məl üzərində ucalır, dünyanın inkişaf etmiş ölkələri sırasına çıxaraq zəngin dövlətçi lik və darəçilik təcrübəsi qazanmış, müasir təfəkkürlü, praqramtik lider İlham Əliyevin rəhbərliyi ilə inamla irəliləyir. Azərbaycanda dövlətçilik ənənələrinin XX əsrin sonlarında bərpa edilib zənginləşdirilməsində, Azərbaycanın müstəqilliyinin möhkəm-

ləndirilməsində, onun əbədi, dönməz xarakter almasında, ölkənin dinamik iqtisadi inkişaf yolu ilə inamla irəliləməsində, onun beynəlxalq nüfuzunun sürətlə artmasında Heydər Əliyevin misilsiz xidmətlərini xalq heç vaxt unutmayacaq, ümummilli lideri, müdrik rəhbər və dahi şəxsiyyət Heydər Əliyevin əziz xatirəsini oz qəlbində əbədi yaşadacaqdır.

### Ədəbiyyat


1.Qasımlı M. C. Heydər Əliyev — istiqlala gedən yol (1969–1987-ci illər). Bakı, Bakı Universiteti nəşriyyatı, 2006. səh. 68.

2.Ирада Гусейнова. Гейдар Алиев — от политического руководителя к общенациональному лидеру. Баку, "Тахсил", 2005

3.Rəfiqə Kamal qızı Liderlik zirvəsini fəth edən dahi Heydər Əliyevin həyat yolu - TƏHLİL Səs qəzeti 8 may 2024/ https://sesqazeti.az/news/politics/1154236.html

Azərbaycan xalqı nə qədər varsa, Heydər Əliyev o ... *https://modern.az*





**Qulam Əzizov**

*Pedaqogika üzrə fəlsəfə doktoru, dosent*


## AZƏRBAYCANDA MULTİKULTURALİZM VƏ TOLERANT MÜNASİBƏTLƏRİN FORMALAŞMASINDA HEYDƏR ƏLİYEVİN XİDMƏTLƏRİ

Multikulturalizm anlayışı XX əsrin 40-cı illərindən mövcud olsa da, öz aktuallığını 60-cı illərdə göstərmişdir. 1970-ci ildən multikulturalizm termini siyasi diskursda öz yerini tapmışdır. Azərbaycandakı multikultural mühit ölkənin müstəqillik illərində daha da yaxşılaşdı. 18 oktyabr 1991-ci ildə Azərbaycanda dövlət müstəqilliyinin bərpa olunması, xüsusilə, Ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqının istəyilə ikinci dəfə hakimiyyətə gəlişi ölkədə multikultural mühiti əsaslı şəkildə yaxşılaşdırdı. Ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışının nəticəsində əldə olunan tarixi tolerantlıq ənənələrinin qorunması və inkişafı üçün real şərait yaradıldı, etnik-mədəni müxtəlifliyin qorunması istiqamətində mühüm işlər görüldü.

Azərbaycanda sosial hadisə kimi meydana gələn multi-kulturalizm özünün sonrakı inkişaf mərhələlərində dövlətin siyasi müstəvisinə daxil edilmişdir. Məlum olduğu kimi, Azərbaycan Respublikası multikulturalizmi dövlət siyasəti kimi qəbul edən nadir dövlətlərdəndir. Multikulturalizm Azərbaycanda əsrlərdən bəri formalaşan, eyni zamanda ictimai-siyasi, psixoloji-mənəvi müstəvidən kənara çıxmayan dəyərlər toplusu kimi, xüsusilə sovet ideologiyasının hökmranlıq etdiyi illərdə belə kifayət qədər sistemli mahiyyət daşıyırdı. Tolerantlıq və mənəvi potensial, milli psixoloji və bəşəri dəyərlərə açıqlıq Azərbaycanı multikultural bir ölkə kimi tanıtdırırdı. Bunun fonunda həllini tapası yalnız bir əsas məsələ

qalırdı: hüquqi və siyasi müstəvidə multikulturalizmin yerini müəyyən etmək. Bunu Ulu öndər Heydər Əliyev etdi. O, Azərbaycanın gələcək uğurlu inkişafı üçün dəqiq ideoloji hədəf seçdi və bu uzaqgörən, müdrik siyasəti ilə əsrlər boyu formalaşmış çox mədəniyyətlilik ənənəsini inkişaf etdirərək onu keyfiyyətcə yeni mərhələyə qaldırdı. Bu mərhələ siyasi mərhələ idi.

Ulu öndər Heydər Əliyev bununla ilk növbədə multikulturalizmin siyasi modelinin assimilyasiya və izolyasiya kimi digər mümkün siyasi modellərdən üstün olduğunu bütün dünyaya nümayiş etdirdi. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında etnik və dini mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlara vahid Azərbaycan dövlətinə mənsub olmalarının əsasında birlik hissi aşılanmağa başladı. Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür. Biz bunu qiymətəndiririk və qoruyub saxlayacağıq. Ulu Öndər bütün sonrakı siyası fəaliyyətini bu sərvətin əbədi olması istiqamətinə yönəltdi.

Azarbaycanın multikultural ənənələrinin dövlət tərəfindən qorunması işində ən vacib olanı Ümummilli lider Heydər Əliyevin təşəbbüsü və göstərişi ilə bu məsələnin hüquqi sənədlərdə, o cümlədən Azərbaycan Respublikasının Kontitusiyasnda əks olunmasıdır. Belə ki, multikulturalizm siyasətinin əsasını təşkil edən tolerantlıq prinsipi Azərbaycan Respublikası Konstitusiyasının bir sıra maddələrində aydın şəkildə təsbit edilmişdir. Ulu öndər haqlı olaraq multikulturalizm siyasətini ölkənin demokratik inkişafının tərkib hissəsi hesab edirdi. O, Azərbaycan ərazisində yaşayan milli azlıqların hüquq və azadlıqlarının, o cümlədən etnik-mədəni, dini dəyərlərinin qorunmasını demokratiyanın mühüm prinsipi olan əsas insan hüquq və azadlıqları kontekstində görürdü. Ulu öndərin rəhbərliyi ilə, nəhayət ki, dönüşü olmayan demokratik inkişaf yoluna çıxmış Azərbaycan Respublikası, onun qeyd etdiyi kimi dinindən, dilindən,



irqindən asılı olmayaraq Azərbaycanın bütün vətəndaşlarının eyni hüquqlara malik olmalarını təmin etməli idi.

Ulu öndər etnik millətçiliyə alternativ kimi bütövlükdə Azərbaycan xalqının və cəmiyyətinin, eyni zamanda Azərbaycan dövlətçiliyinin yüksəlişini şərtləndirən və multikulturalizmin əsas mənəvi bazası olan Azərbaycançılıq prinsipini milli ideologiya kimi irəli sürürdü. O, qeyd edirdi ki, etnik millətçilik, nəhayət etibarilə, etnik separatizmə, xalqlar arasında münaqişəyə gətirib çıxarır. Azərbaycançılıq ideologiyası isə dinindən, dilindən, irqindən asılı olmadan ölkədə yaşayan bütün vətəndaşları birləşdirir. Ulu öndərin dediyi kimi, həqiqətən də Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi vətənidir. Ərazimizdə yaşayan azərbaycanlı da, ləzgi də, avar da, kürd də, talış da, udin də bütünlükdə hamısı azərbaycanlıdır.

Müasir dünyada multikulturalizm siyasətində ikili baxış, iki qütb forsalaşmışdır: bədbin və nikbin. Bədbin qütbü Kameron, nikbin qütbü isə Ulu öndər Heydər Əliyev formalaşdırmışdır. Ulu öndər Heydər Əliyev Kameronun bədbin nəticəsinə qarşı duran optimist baxışı və siyasi iradəni nümayiş etdirirdi. O, Azərbaycan xalqının çoxəsrlik multikultural dəyərlərə malk olması ideyasına arxalanaraq belə bir siyasi bəyanatla çıxış edirdi: "Bu gün multikulturalizmin dünyada alternativi yoxdur."

Müasir dövrdə Qərb ölkələrində multikulturalizm siyasətinin iflasa uğraması və bununla yanaşı, Azərbaycanda bu siyasətin yaşaması hansı səbəblərdən irəli gəlir? Bunun həm obyektiv, həm də subyektiv səbəbləri var. Obyektiv səbəblər hansılardır? Bəzi ölkələr tarixən ən qədim zamanlardan bəri hər hansı müxtəlifliklərlə üzləşmədən digər mədəniyyətlərlə təmas nöqtəsinə monoetnik bir birlik kimi gəlib çıxmışdır. Buradakı müxtəlif mədəniyyətliliyi sonrakı müxtəliflik kimi ayıra bilərik. Bəzi ölkələrdə isə müxtəliflik ilkin xarakterli olmuşdur. Birinci ilə bağlı real sosial nəticə odur ki, gəlmə multikultural

dəyərlər formalaşmış ölkədə özünə asanlıqla yer eləmir. Belə bir ölkədə yeni dəyərlərin calağı istər-istəməz süni alınır. Onun üçün də bəzi Avropa ölkələrində bu modelin iflasa uğramasının obyektiv səbəbləri yox deyil. Bəzi ölkələrdə isə xalqın tarixində müxtəliflik ilkin çağdan başlayır və müxtəlif xalqlar ən qədim zamanlardan etibarən bir-birini formalaşdıra-formalaşdıra müasir dövrə qədəm qoyurlar. İlkin müxtəliflik və sonrakı müxtəlifliyi bir-birindən ayırmasaq bugünkü dünyada hansısa ölkədə multikulturalizmin iflasının sirrini öyrənə bilmərik.

Azərbaycanda normal multikultural əhvalının olması müxtəlif etnik birliklərin dostluq və mehribançılıq şəraitində yaşaması yenə də tarixin qədim dövrlərindən qidalanır. "İlkin müxtəliflik" Azərbaycan ərazisində özünü göstərən nadir xüsusiyyətlərdəndir və bu hal sonrakı müxtəliflikdən kəskin şəkildə fərqlənir. Məhz "ilkin müxtəliflik" bu gün Azərbaycan ərazisində özünü qoruyub saxlamış sistemli münasibət modeli formalaşdırmışdır. Nəticədə isə əsrlərdən bəri şair, yazıçı və alimlərin bədii ədəbiyyatda, elmi traktatlarda özünü göstərən müxtəlifliyə münasibət möhkəmlənərək Azərbaycanda, özü də müstəqillik dövründə yeni bir siyasi ahəng qazana bildi. Ona görə də təəccüblü deyil ki, bir sıra Qərb ölkələrində multikulturalizmin iflasa uğramasının bəyan edildiyi dövrdə Azərbaycan Respublikasında multikulturalizm dövlət siyasəti kimi ortaya çıxır və Azərbaycan Prezidenti bu siyasətin davamlı olması üçün real və optimal fəaliyyət göstərir.

Şübhəsiz, Qərbi Avropa ölkələri ilə müqayisədə Azərbaycanın demokratik inkişaf sahəsində real təcrübəsi azdır. Amma mənəvi təcrübəsi böyükdür. Azərbaycan xalqının dastanlarından, nağıllarından, klassik ədəbi nümunələrindən qədim demokratik prinsiplərlə bağlı yetərincə misal və nümunələr göstərmək olar. Tarix boyu Azərbaycan mənəvi həyatında tolerantlıqdan xeyli danışmaq mümkündür. Bunlar,



təbii ki, multikultural tərzin Azərbaycan cəmiyyətinə öncədən xas olmasına bir sübutdur.

Azərbaycanda illərdir yaşayıb fəaliyyət göstərən etnik qruplardan ləzgi, avar, udin və talışlar Azərbaycan cəmiyyətinin tam hüquqlu üzvləridir, adət ənənələrini qoruyub saxlayaraq, ayrı-seçkilik hiss etmədən mövcudluğunu saxlayırlar. Ölkə üçün öz töhvələrini verir, ölkənin beynəlxalq aləmdə tanınmasında öz fəaliyyətlərini əsirgəmirlər. Dinindan asılı olmayaraq hər bir dinin nümayəndələri öz dini mərasimlərini təşkil etməkdə azaddırlar və həmişə böyük hörmət və ehtiramla qarşılanıblar.

Bu danılmaz həqiqətdir ki, ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkəmizdə, bütün başqa sahələrdə olduğu kimi, milli azlıqlara münasibətdə keçmiş köhnə ittifaq respublikalarından fərqli olaraq, tamamilə yeni bir istiqamətdə inkişaf etməyə başladı. Müxtəlif millətlərin və xalqların əsrlərlə qarşılıqlı anlaşma şəraitində yaşadığı Azarbaycan, çoxmillətli bir ölkə, bir dövlət kimi, öz uzaqgörən siyasətçisini və etibarlı liderini xalqın iradəsi ilə 1993-cü ildə yenidən hakimiyyətə gətirdikdən sonra müstəqil Azərbaycan və onun memarı Heydər Əliyev Azərbaycan türklərinin taleyinə göstərdiyi diqqət və qayğını milli azlıqların, azsaylı xalqların, etniklərin ictimai-siyasi, sosial-mədəni inkişafına da göstərirdi. Azərbaycanda yenidən multikultural dəyərlər xüsusi vüsət almağa başladı. Ölkənin müxtəlif bölgələrindəki ədəbi-mədəni mühitin müasir inkişafı, dövlət səviyyəsində azsaylı xalqların mədəniyyətinə həsr olunmuş tədbirlər, tanınmış şəxsiyyətlərin adlarına küçələrin verilməsi, abidələrin açılması məhz həmin illərdən başlayaraq günümüzədək davam edir. Təsadüfi deyil ki, həmən dövrü və onun iqtisadi-siyasi çətinliyini dəyərləndirən beynəlxalq və yerli siyasətçilər, Heydər Əliyevi "Qafqazın atası və xilaskarı" adlandırırdılar.

1993-cü ildən sonrakı illər bu qəbildən olan milli məsələlərdə irəliyə doğru əsl dönüş dövrü oldu. Təsadüfi deyil

ki, həmən dövrü və onun iqtisadi-siyasi çətinliyini dəyərləndirən beynəlxalq və yerli siyasətçilər, çətinliklər içərisində yaşayan Azərbaycanda dövlət səviyyəsində kompleks və müntəzəm qayğı göstərmək ənənəyə çevrildi.

Məhz Heydər Əliyevin təşəbbüsü və göstərişi ilə milli azlıqların ədəbiyyat, mədəniyyət, dil, tarix, adət-ənənə və s. qorunub saxlanmasına, inkişaf etdirilməsinə qanuni zəmin yaradıldı. Bu məqsədlə onlara maliyyə yardımları göstərildi. Milli azlıqların mədəni mərkəzləri kommunal xərclər, kirayə haqqı ödənilmədən yerlə təmin olundular. Onların əlifbaları, doğma dillərində dərslikləri hazırlandı, kitablarının, qəzetlərinin nəşri üçün dövlət büdcəsindən vəsait ayrıldı, respublika radiosunda, yerli özəl televiziya və qəzetlərdə doğma dillərində veriliş və materiallar hazırlanmasına şərait yaradıldı, sərbəst və azad fəaliyyət göstərməsinə tam hüquqi təminat verildi.

Müstəqil Azərbaycanda milli məsələlərlə bağlı bütün fəaliyyəti boyunca Heydər Əliyev beynəlmiləlçilik ruhunu və milli azlıqlara, o cümlədən, azsaylı xalqlara diqqəti daim ön plana çəkir, buna xüsusi fikir verirdi. Məhz buna görə də Azərbaycanda etnomühit və ona milli barışıq münasibəti başqa ittifaq ölkələrinin postsovet məkanlarından fərqli olaraq, Kremlin diqtəsi ilə deyil, sülhsevər xalqın və onun liderinin insanpərvər, multikultural dəyərləri ilə formalaşır, inkişaf və davam edirdi. Yəni bizim toplumda bir azərbaycanlıya, türk soylu insana münasibət və yanaşma necədirsə, bir etnikə münasibət də eynidir. Mədəni və etnik birliyə nail olmayan dövlət, tolerantlıq olmadan sabitliyini təmin və normal inkişaf edə bilməz.

Multikulturalizm siyasətinin rəhbər tutulması müxtəlif din nümayəndələrinin və etnik azlıqlarının da rəğbətinin qazanılmasına imkan yaradır. Əgər ölkə çoxmillətlidirsə bu zaman siyasətçinin nitqinin multikultural ifadələrlə zəngin olması etnik azlıqların diqqətini özünə cəlb etmək və bununla da onların da ölkənin siyasi fəaliyyətində rolunun artırılmasına



nail olmaq deməkdir. Multikultural ifadələr dedikdə multikulturalizm anlayışı ilə bağlı olan etnik tolerantlıq dini tolerantlaq, milli dözümlülük, multikulturalizm kimi ifadələr nəzərdə tutulur. Azərbaycan respublikanın prezidenti Heydər Əliyev xüsusilə xarici ölkələrdə çıxışlarında Azərbaycanın multikultural dövlət olduğunu və bu siyasəti dövlət siyasəti səviyyəsinə çatdırıldığını vurğulamaq məqsədilə zəngin nitqlər təqdim edirdi. Heydər Əliyevin xüsusilə ölkə sərhədlərindən kənarda təqdim etdiyi çıxışlarında ölkəmizdə multikulturalizm siyasətinin yüksək səviyyədə həyata keçirildiyini vurğulaması mexaniki xarakter daşımırdı, müəyyən prinsiplərə əsaslanırdı. Bununla Heydər Əliyev Azərbaycanın dinindən, dilindən asılı olmayaraq hamıya açıq olduğunu, Azərbaycana təşrif buyuran hər bir vətəndaş üçün təhlükəsiz şəraitin olduğunu dünyaya çatdırmaq məqsədi güdürdü. Bundan əlavə, xarici investorların Azərbaycanda fəaliyyəti üçün azad şəraitin mövcud olduğunun mesajını göndərmiş olurdu.

Ulu öndər Heydər Əliyev qeyd edirdi ki, dini cəmiyyətlər və müxtəlif millətlər Azərbaycanda sülh və dözümlülük şəraitində yaşayırlar, dominant xalq kimi bütün hüquqlara malikdirlər. Bununla əlaqədar olaraq xarici vətəndaşlar üçün yaşamaq və fəaliyyət göstərmək üçün ən münasib ölkə Azərbaycandır. Onun bütün xarici ölkələrdə çıxışlarında Azərbaycanın dini və milli tolerantlığın ocağı olduğunu qeyd edərək xarici investorlarda maraq oyatmağa və ölkəni beynəlxalq aləmdə nüfuzunu artırmağa çalışırdı.

Tolerantlıq, həqiqətən də, multikulturalizmin əsas təməllərindən biridir. YUNESKO-ya üzv dövlətlər hələ 1995-ci il noyabrın 16-da tolerantlıq prinsipləri haqqında bəyannamə qəbul etmişlar. Azərbaycan isə əsrlərdir ki, bu prinsiplərlə yaşayıb, XX əsrdə öz müstəqilliyini yenidən qazandıqdan sonra Heydər Əliyevin bilavasitə dəstəyi ilə bu dəyərləri daha da zənginləşdirmişdir.

1995-ci ildən Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinə əsasən irqindən, milliyyətindən, dilindən, dinindan, mənşəyindən asılı olmayaraq, hər kəsin bərabər hüquq və azadlıqlarına təminat verilən ölkəmizdə milli azlıqların mədəni irsinə ehtiramla yanaşıldığından, Azərbaycandakı azsaylı xalqların ədəbi irsi XX-XXI əsrlərdə nəzərə çarpacaq dərəcədə inkişaf edib.

2010-cu ildə "Heydər Əliyev" fondunun "Azərbaycan-tolerantlığın ünvanı" adlı layihəsi çərçivəsində Bakıda yaşayan azsaylı xalqların uşaqları üçün 450 yerlik təhsil mərkəzi inşa edildi. Bu gün Azərbaycan neçə azsaylı xalqın, etnik qrupun əmin, dinc yaşadığı ölkədir.

Ötən əsrin sonunda Azərbaycan öz müstəqilliyinə yenidən qovuşduqdan sonra ərazisində yaşayan bütün milli azlıqların mədəni kimliyinə təminat verdi. Belə ki, yeni Konstitusiyada eləcə də, "Mədəniyyət haqqında" qanunun 11-ci maddəsində milli mədəniyyətin inkişafına və qorunub saxlanmasına diqqət və yardım nəzərdə tutulur. Bu, təkcə Azərbaycan türklərinin milli-mədəniyyətinin inkişafına və qorunub saxlanmasına deyil, həmçinin burada yaşayan bürün azsaylı xalqların mədəniyyətlərinə şamil olunur.

Müstəqil Azərbaycan dövlətinin milli siyasətinin əsas istiqamətlərindən olan, bu ölkədə yaşayan bütün milli azlıqların dil və mədəniyyətinə yetərincə dəstəyin göstərilməsi istiqamətində hələ müstəqilliyin ilk illərindən əməli işlər görüldü. Azsaylı xalqların məskunlaşdığı bölgələrdə kollec, litsey, eləcə də, ali təhsil ocaqlarının filiallarının açılması, həmin bölgələrdə etniklərin dilində qəzet və jurnalların çap olurumması, ölkənin radio və televiziya kanallarında bu dillərdə verilişlərin yayımlanması kimi ənənələrin əsası qoyuldu.

Azərbaycan Milli Elmlər Akademiyasında milli azlıqların dil, mədəniyyət tarix və etnoqrafiyasının öyrənilməsi, inkişafı üçün xüsusi şöbə yaradıldı ki, bu da öz növbəsində həmin xalqlara olan xüsusi diqqət və ehtiramın göstəricisidir.



Azərbaycanda əsrlər boyu məscidlərlə yanaşı, kilsələrin, sinaqoqların azad fəaliyyəti bu ölkədəki din azadlığının multi-kultural təminatının təntənəsi olmaqla, beynəlxalq qurumlar tərəfindən də hər zaman müsbət qarşılanaraq, başqa ölkələrə nümunə göstərilir.

2001-ci ilin noyabr ayının 1-də Prezident Heydər Əliyev Avropa Şurasının "Milli azlıqların müdafiəsi haqqında" çərçivə Konvensiyasına uyğun olaraq, Azərbaycanın qəbul etdiyi öhdəliklərin yerinə yetirilməsi ilə bağlı ilkin hesabatın hazırlanması və təqdim edilməsi barədə sərəncam imzaladı. Bu sərəncama əsasən, Avropa Şurasının "Milli azlıqların müdafısi haqqında" çərçivə Konvensiyasına uyğun olaraq, Azərbaycanın öz öhdəliklərinin yerinə yetirilməsi ilə bağlı həyata keçirdiyi tədbirlər barədə ilkin hesabatın hazırlanması üçün işçi qrupu yaradıldı.

Heydər Əliyevin sərəncamı ilə hazırlanan və beynəlxalq quruma təqdim olunan "Milli azlıqların hüquqlarının qorunması üzrə Azərbaycan hökumətinin hesabatı" Avropa Şurasının rəsmiləri Azərbaycanda milli azlıqların hüquqlarının qorunması sahəsində heç bir problemin olmadığını birmənalı şəkildə qeyd etdilər.

Bu isə o illər idi ki, Azərbaycanın o zamana 10 ildən artıq məruz qaldığı təcavüz nəticəsində əraziləri işğal edilmiş, azərbaycanlılar öz torpaqlarında qaçqınlıq və didərginlik taleyi ilə üzləşmişdi. Ermənistanın xəyanətkar siyasəti, vandalizmi dəfələrlə beynəlxalq qurumlar və Avropa Şurası qarşısında qaldırılsa da, dünya hələ də bu haqsızlığa, Ermənistanın işğalçılıq və soyqırım əməllərinə biganəlik nümayiş etdirirdi.

2002-ci ilin oktyabrında Strasburqda Avropa Şurasının baş katibi Valter Şvimmerin iştirakı ilə Azərbaycanda milli azlıqlarla bağlı dövlət siyasəti məsələsinə həsr olunmuş ayrıca müzakirələr aparıldı. Muzakirələrin nəticəsində Azərbaycanın milli siyasətini bəyənən və müsbət qiymətləndirən Avropa Şurası, bu səpkidə müzakirələrin digər dövlətlərin də iştirakı ilə

aparılması qərarına gəldi. Hətta Azarbaycanın milli azlıqlarla bağlı yürütdüyü siyasətin və bu sahədə əldə olunan təcrübənin başqa dövlətlər üçün də gərəkliliyi vurğulandı. Avropa Şurasının Azərbaycan üzrə əməkdaşı Inkeri Aarnio Lvoff, 2002-ci ildə "Etnik qruplar arasında dialoq" mövzusunda Zuğulbada keçirilən tədbirdə çıxış edərkən, respublikada milli azlıqlar arasında dialoqun inkişafı və genişləndirilməsi üçün müvafiq işlər görüldüyünü nəzərə çatdırdı.

Dünya birliyinin Azərbaycanda həyata keçirilən milli siyasətə münasibəti ölkəmizin Avropa Şurasındakı nümayəndəliyinin təşəbbüsü ilə təşkil olunmuş Dəyirmi masa zamanı da qabarıq şəkilda biruzə verdi. 2002-ci il sentyabrın 13-də "Azərbaycanda milli azlıqlar: gerçəkliklər va perspektivlər" mövzusunda keçirilən tədbirin məqsədi də Azərbaycan gerçəkliklərinin Avropa Şurasında dərindən öyrənilməsi olu. Məhz bu gerçəkliklər Avropa Şurası mütəxəsislərinin diqqətini çoxdan cəlb edirdi. Elə buna görə də tədbirin keçirilməsi Avrupa Şurası tərəfindən böyük razılıqla qarşılandı və rəhbərlik bunu "ilk qaranqus" adlandırdı. Mədəni müxtəlifliyin, tolerantlığın, dinlər və mədəniyyətlərarası dialoqun bir ölkənin həyatında çox ahəngdar şəkildə bərqərar olması hansısa təbliğatlar, çağırışlar, rəsmi qərarlarla baş tutan iş deyil. Azarbaycanda azsaylı xalqların həyatının uzun əsrlərə sığan tarixi yolu bunun aşkar göstəricisidir. Etnik xalqların və onların mədəni irsinin Azərbaycandakı uğurlu qisməti etnik, dini və mədəni müxtəlifliyin yanaşı və qarşılıqlı əlaqədə qardaşlığın mövcudluğunun parlaq örnəyi sayıla bilar.

Bu gün dünya Azərbaycandakı azlıqların mədəni irsinə nümunəvi münasibət modelini ayrı-ayrı ölkələrdə yayıb təbliğ etməklə bu yöndə daha çox uğur əldə edə bilər. İllərlə uzanan ermani işğalı, vəhşiliyi və özbaşınalığını pisləyən etnik xalqın nümayəndələri dönə-dönə Avropa Şurasına, eləcə də, müxtəlif beynəlxalq qurumlara müraciətlər yönləndirərkən də daim xalqımızın və dövlətimizin yanında olub. Misal üçün, 2006-cı



ildə Xocalı soyqırımının 24-cü ildönümü münasibətilə yayılan müraciətdə Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr Işein, Dağ Yahudiləri Dini İcmasının Rəhbəri Milix Yevdayev, Qafqaz Müsəlmanları Idarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə, Azərbaycandakı digər dini icmaların rəhbərləri, 1992-ci ildə Xocalıda dinc sakinlərə qarşı törədilmiş cinayəti pisləyərək, Avropa İnsan Hüquqları Məhkəməsinə, Xocalı faciəsinin soyqırımı kimi tanıması üçün müraciət ediblər. Dini icmaların rəhbərləri təəssüf hissi ilə qeyd edirdilər ki, 24 ildən çox vaxt keçməsinə baxmayaraq, Xocalı cinayətini törədənlər hələ dəcəzalandırılmayıb. BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələrinə məhəl qoyulmur. Bu cür cəzasızlıq mühiti gələcəkdə oxşar cinayətlərin törədilməsinə zəmin yaradır.

Ümumilli Lider Heydər Əliyev, milli azlıqların nümayəndələri ilə keçirdiyi görüşlərdə tez-tez onu da vurğulayırdı ki, Azərbaycanın sərvəti təkcə onun gözəl təbiəti, yeratlı və yerüstü xəzinələriylə ölçülmür. Bizim ən böyük sərvətimiz əsrlərdən bəri bu torpaqlarda yaşayan, öz taleyini, öz həyatını bu torpağa bağlayan, müxtəlif millətlərdən olan və müxtəlif dinlərə etiqad edən adamlar Azərbaycan vətəndaşlarıdır. Heydər Əliyev Azərbaycanın etnik azlıqların vətəni olduğunu və ölkənin yüksək dözümlülüyü ilə seçildiyini qeyd edirdi. O, həmişə ifadələrin əsaslandırma və sübut etmə tərəfinə diqqətləri yönəltməyə çalışırdı. Bu cür yanaşma dinləyən tərəfə psixoloji təsir gücünə malik olduğunu göstərir.

Azərbaycan multikulturalizminin siyasi banisi kimi Ümummili lider Heydər Əliyev multikulturalizm siyasətinin həyata keçirilməsində BMT, ATƏT, Avropa Şurası, Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı və digər nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlığa xüsusi əhəmiyyət verirdi. Ulu öndər daima Azərbaycanın yuxarıda adları sadalanan təşkilatlar

tərəfindən qəbul edilən milli azlıqların hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı konvensiyalara qoşulmasının vacibliyini qeyd edirdi. Onun rəhbərliyi altında Azərbaycan hökuməti insan haqları, o cümlədən milli azlıqların müdafiəsi sahəsində bu təşkilatlarla işgüzar əməkdaşlıq əlaqələrinin yaradılmasına müvəffəq olmuşdur. Ölkəmiz insan haqları və milli azlıqların müdafiəsi ilə bağlı bir çox beynəlxalq konvensiyalara qoşulmuşdur.

Beləliklə, Ulu öndər Heydər Əliyev multikulturalizmi Azərbaycançılıq idrologiyasının tərkib hissəsi kimi təqdim etməklə ölkədə multikulturalizm siyasətinin əsasını qoymuş və Azərbaycan multikulturalizminin siyasi banisi olmuşdur. Ulu öndərin multikulturalizm sahəsində həyata keçirdiyi bu böyük iş müasir dövrdə onun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adı ilə bağlıdır.

### Ədəbiyyat


1. Abdulla K., Nəcəfov E., Məmmədov A. Azərbaycan multikulturalizmi. Bakı: - 2017.
2. Abdullayev Ə., Abdulla K., Nəcəfov E. Mutikulturalizmə giriş. Bakı:-2019.
3. Nəcəfov E., Abdulla K. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mutikulturalizm Azərbaycan modeli haqqında. Bakı:-2017.
4. Niftiyev N. Heydər Əliyev və Azərbaycanda milli azlıqlar. Bakı: - 2016.
5. Nəcəfov E., Abdulla K., Məmmədov A. Azərbaycanda multikulturalizminin elmi-fəlsəfi və publisistik qaynaqları. Bakı: - 2021.
6. Orucov H. Heydər Əliyev və Azərbaycada milli siyasət. Bakı: -2001





**Gülnarə Əlixanova**

psixologiya üzrə fəlsəfə doktoru


## MÜDRİKLİK SİMVOLUMUZ - DAHİ LİDER HEYDƏR ƏLİYEV

Dünya xalqlarının, dövlətlərin tarixində görkəmli şəxsiyyətlərin və siyasi liderlərin rolu əvəzsizdir. Qədim, zəngin tarixə malik olan xalqımız da zaman-zaman parlaq simalar, görkəmli sərkərdələr və ictimai-siyasi xadimlər yetişdirmişdir. Bəşər sivilizasiyasına böyük töhfələr vermiş xalqımız həyatının mənasını nəcib və xeyirxah əməllərdə axtaran, onun maariflənməsinə, dünyada özünə layiqli yer tutmasına çalışan şəxsiyyətləri ilə bu gün də böyük iftixar hissi keşirir. Xalqımızın milli qürur mənbəyinə çevrilmiş belə insanlar çətin tarixi dönəmlərdə öz xalqına arxa, dayaq olmuş, tələb edilən anlarda xilaskarlıq missiyasını öz üzərlərinə götürərək şərəfli ömür .yaşamışlar. Bu zaman ilk növbədə, dərin zəka sahibi, xalqımızın ümummilli lideri Heydər Əliyevin hamımıza örnək olan ömür yolu və müdrik siyasi fəaliyyəti gözümüz önündə canlanır. Azərbaycanın çoxəsrlik tarixinə nəzər saldıqda bir daha şahidi oluruq ki, Azərbaycan dövləti və xalqı üçün misilsiz işlər görmüş ümummilli lider Heydər Əliyev tanrının bizə bəxş etdiyi xilaskardır.

Azərbaycanın tarixdə müdrik dövlət adamları sırasında Heydər Əliyev ayrıca və misilsiz mövqe tutur. Bu mövqe tarixin bu böyük şəxsiyyətin öhdəsinə qoyduğu missiya və vəzifələrin mürəkkəbliyi ilə seçilirdi: müstəqil Azərbaycan dövlətini yaratmaq! Tariximizdə Heydər Əliyev epoxasının təyinatı belə idi. Taleyinə Azərbaycanın müstəqilliyini bərpa etmək, sonra isə onu dönməzliyə ucaltmaq missiyası yazılmışdı. Ulu ndərimiz 50-ci illərdən ömrünün sonuna kimi

bu missiya ilə məşğul oldu. Heydər Əliyevin bütün ömrü seçdiyi missiyaya doğru yoxuş və yüksəliş yolu idi. Dahi rəhbər bu yoxuşu yorulmadan qalxmışdı, özünü, doğma xalqını, eyni zamanda dövlətini bu missiya üçün hazırlamışdı. Bu, ağılagəlməz dərəcədə çox çətin bir vəzifə idi.

Müdrik rəhbərin inamı Vətəninin müstəqillik yoluna çıxmasında misilsiz rol oynayaraq xalqı həmin yola hazırladı. XX əsrin sonlarında Azərbaycanı başının üstünü almış bütün bəlalardan mətinliklə qorudu, onun dövlət müstəqilliyini saxlaya və möhkəmləndirə bildi.

Böyük vətənpərvər Heydər Əliyev 1969-cu ildə hakimiyyətə gəldiyi ilk günlərdən respublika rəhbəri kimi bütün fəaliyyətini Azərbaycanı sürətli iqtisadi inkişafına, onun maddi-texniki potensialının gücləndirməsinə, əhalinin güzəranının yaxşılaşdırılmasına yönəltmişdi. Azərbaycanı dünyanın yüksək tərəqqi etmiş ölkələri ilə bir sırada görmək istəyən müdrik rəhbərimiz uzun illər ərzində bu sahədə genişmiqyaslı və fundamental işlər görmüşdür.

Heydər Əliyevin müdrikliklə başladığı torpaq islahatının mövcud uğurlu nəticəsi isə ulu öndərin Azərbaycan tarixində, eyni zamanda hər bir vətəndaşın şəxsi taleyində yaratdığı şərəfli səhifələr əyani göstəricidir.

Ümummilli lider Heydər Əliyevin "Heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm" tarixi kəlamı yaddaşımıza həkk olunub. Ulu öndərin həyat manifesti bizdə ölçüyə gəlməz qürur hissi yaradır.

Hər bir xalqın yaşadığı torpaq onun ruhi beşiyidir, çünki vətən hissi özündə millətin mənəvi-əxlaqi dəyərlərini əks etdirir. Bu gün insanlarımızda olan vətənpərvərlik hissi, onların öz doğma yurduna olan məhəbbəti yeni dünyagörüşünün təməlini təşkil edir. Ulu öndər millətin mənəvi və əxlaqi dayağı kimi tarixin ən yüksək rolunu vətənpərvərliyin,



vətən amalının formalaşmasında görürdü. "Bizim tariximiz bizə ibrət dərsi verməlidir" kəlamında Heydər Əliyevin əxlaqi və dünyagörüşü öz ifadəsini tapmışdır. Çünki, milli tariximizi və əldə etdiklərimizin qədrini bilmədən özündə vətənpərvərlik duyğusunu tərbiyə etmək, ulu babalarımızın pak adını və nəcib işlərini təhriflərdən və qarayaxanlardan qorumaq mümkün deyildir.

Azərbaycan dövlətçiliyinin müasir tarixinə öz adını əbədi həkk etmiş bu nadir tarixi şəxsiyyətin, fenomenal siyasi xadimin ölkəmizə rəhbərlik etdiyi illər müstəqil dövlət quruculuğu dövrü kimi qəbul edilir. Müdrik rəhbər Heydər Əliyevin siyasi və dövlət fəaliyyətinin ən böyük nəticəsi quruculuğuna bilavasitə rəhbərlik etdiyi və xalqımıza bəxş etdiyi mükəmməl milli dövlət, müstəqil Azərbaycan Respublikasıdır.

Ulu öndər Heydər Əliyevin siyasi uzaqgörənliyinin, prinsipiallığının və siyasi iradə nümayişinin məntiqi nəticəsi olaraq 1994-cü ildə "Əsrin müqaviləsi"nin əfsanədən reallığa çevrilmişdir. Ölkənin bütün strateji əhəmiyyətli sahələrinin inkişafına təkan verməklə, Azərbaycanda hüquqi islahatların yeni mərhələdə aparılmasına geniş imkanlar açmışdır. 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycanın İlk Konstitusiyası ölkənin gələcək inkişafını müəyyənləşdirmişdir.

Məşhur klassik Viktor Hüqo yazmışdır: "Həqiqi dövlət xadimlərinin üstün keyfiyyəti ondadır ki, hər bir zərurətdən fayda götürməyi bacarsın, hətta şəraitin ən qorxunc axarını belə dövlətin xeyrinə dəyişə bilsin". Heydər Əliyev rəhbər olduğu bütün işlərində bunu bacarmış və həyata keçirməyə nail olmuşdur.

Böyük dövlət xadimi Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi ilk dövrdə gördüyü işlərin miqyasına və əhəmiyyətinə dərindən nüfuz edəndə qənaətə gəlmək olar ki, böyük düşüncə, güclü məntiq, möhkəm iradə sahibi olan

müdrik şəxsuiyyət qabaqcadan Azərbaycanın müstəqilliyini və azadlığını görürdü: "Bəli, mən istəyirdim ki, Azərbaycan müstəqil olsun, hər şeydən əvvəl iqtisadi cəhətdən. Çünki, istənilən müstəqilliyin əsasında iqtisadiyyat durur. Məsələn, mən burada çoxlu elektrik stansiyaları tikdirirdim. Məndən soruşurdular ki, bunlar sənin nəyinə lazımdır? Mən onlara demirdim nə üçün bu lazımdır.... Mən istəyirdim mənim ölkəm, mənim xalqım istənilən şəraitdə müstəqil yaşaya bilsin".

Heydər Əliyev yüksək mənəvi dəyərləri özündə birləşdirən şəxsiyyətdir. Siyasi iradəsinin gücü onun müdrik dünyagörüşünü tamamlayırdı. Ədalətsizliyi qəbul etməyən Heydər Əliyev mərdi-mərdanə mübarizə apardı. Tanrı onu qorudu, qorudu ki, yenidən yüksəltsin, ucaltsın, layiq olduğu zirvəyə qaldırsın, xalqına əbədi müstəqillik və xoşbəxtlik bəxş etsin.

Platona görə, "dünya o vaxt xoşbəxt ola bilər ki, dövlət başçıları müdrik olsunlar və ya müdriklər dövlət başçısı olsunlar". Heydər Əliyev də Azərbaycan dövlətinə ömrünün sonunadək müdrikcəsinə rəhbərlik etdi.

Tarixən bir çox nüfuzlu liderlərin siyasətdə uğur qazanması, öz xalqını fəlakət və faciələrdən hifz etməsi məhz iti uzaqgörənliyinin nəticəsi olmuşdur. Bu reallığa əsasən qətiyyətlə demək olar ki, ümummilli lider Heydər Əliyev də məhz belə uzaqgörən, siyasi proseslərin inkişaf trayektoriyasını əvvəlcədən duyan, hadisələrə pozitiv təsir göstərə bilən şəxsiyyət kimi xalqımızın qəlbində yaşayır və onun nurlu xatirəsi daim dərin ehtiramla anılır.

Əminliklə demək olar ki, Heydər Əliyevin hələ sağlığında əfsanəvi, xarizmatik liderə çevrilməsində həyatı üçün heç bir riskdən çəkinməməsi, sözünü məqamında deməsi, milli ideallar uğrunda mübarizədə yüksək qətiyyəti kimi xarakterik xüsusiyyətləri əhəmiyyətli rol oynamışdır. Ulu öndər, harada olursa-olsun, hadisələri dərk edib idarəçilik qabiliyyətini reallaşdıra bilmişdir. Liderlik onun xarakteri, dünyagörüşü, yaradıcılıq enerjisi və qurub-yaratmaq həvəsindən mayalanmışdır. Böyük siyasətdə qarşıya qoyduğu məqsədlərin əksəriyyətində uğur qazanması, rəhbərlik etdiyi xalqı dəhşətli fəlakət və faciələrdən hifz etməsi isə dahi Heydər Əliyevin müdrikliyinin və uzaqgörənliyinin nəticəsi idi. Siyasi lider daim öz cəsarəti, çevik və rasional qərarları, ən çətin situasiyalardan optimal çıxış yolu tapmaq məharəti ilə seçilən və hər zaman haqqa, ədalətə söykənən parlaq şəxsiyyətdir. O, yalnız enerjisi, natiqlik məharəti ilə deyil, həm də çevrəsində olan insanların tələbat və ehtiyaclarını ifadə etmək bacarığı ilə fərqlənirdi. Zamanın nəbzini tutmağı, hadisələrə real qiymət verməyi, siyasi potensialını düzgün dəyərləndirməyi bacaran lider cəmiyyətdəki prosesləri düzgün istiqamətləndirməyə nail olaraq milli inkişafın əsasına çevrilən proqram və konsepsiyaların müəllifidir.

Bu gün tam inamla deyə bilərik ki, ulu öndərimizin ümummilli və ümumbəşəri ideyaları daima xalqımızın, millətimizin yoluna işıq saçacaq və müstəqil dövlətimizin daha da güclənməsində böyük əhəmiyyətli rol oynayacaqdır.

Azərbaycan tarixinin ən yaddaqalan müdrik siması olan Heydər Əliyevin qeyri-adi irsi olduqca zəngin və çoxşaxəlidir. İllər, keçdikcə artıq bəşəri sərvətə çevrilən bu irsin əhəmiyyəti daha çox dərk edilir. Doğma vətəni necə sevmək, xalqa necə xidmət etmək nümunəsi olan şəxsi həyatı və fəaliyyəti bir örnək kimi qəbul edilir. Dəmir iradəsi, yorulmazlığı, qeyri-adi müdrikliyi, dövlət siyasətindən professional səviyyədə bilməsi Heydər Əliyevi Azərbaycanın dövlət təhlükəsizliyi sistemində ən böyük nüfuz sahibinə çevirmişdi.

Heydər Əliyev qalib idi. O, bütün döyüşlərdən qalib kimi çıxıb, heç kim ona qalib gələ bilməmişdir. 1987-ci, 1990-cı və 1991-ci illərdəki müvəqqəti məğlubiyyət uğursuzluq deyildi. Əslində, o, yeni güclə, yeni enerji ilə siyasi mübarizəyə qoşuldu, yenidən qələbə qazandı və tarixdə qalib kimi qaldı. Heç kim və heç nə milli liderə qalib gələ bilmədi. Heydər

Əliyev bütün həyatını canı qədər sevdiyi Azərbaycana, onun tərəqqisinə, inkişafına, müstəqilliyinə, təhlükəsizliyinə, əmin-amanlığına yüksək dərəcədə sədaqətlə həsr etmişdir.

Ulu öndər Heydər Əliyevin ən uca ali məqsədi, böyük amalı müstəqil, azad və firavan Azərbaycan dövlətini qurmaq olmuşdur. Bu məqsəd və amal bütün həyatı boyu onu mübarizəyə, çevik siyasi gedişlərə məcbur etmişdir. Bu gün şəxsiyyəti və fəaliyyəti dövlətimizin atributu, simvolu səviyyəsinə yüksəlmiş Heydər Əliyevin irsi – vətənə, xalqa sədaqətlə xidmət etmək, müstəqilliyimizi qorumaq və bu yolda canından belə keçmək kimi müqəddəs dəyərləri bütün vətəndaşlarımız üçün əsl həyat məktəbidir.

Türkdilli xalqların mədəni əlaqələrinin inkişafında Türksoyun fəaliyyətinin ulu öndər Heydər Əliyev tərəfindən dəstəklənməsi də türkdilli xalqların tarixən formalaşmış ortaq mənəvi dəyərlərinin qorunması sahəsində onun uzaqgörənliyi kimi dəyərləndirilir.

Heydər Əliyev bizim dahi müasirimizdir. Bu faktın özü hər bir azərbaycanlı üçün qürur və güclü iftixar mənbəyidir. Çünki, müstəqil Azərbaycan dövlətinin qurucusu kimi milli dövlətçiliyimizin ideya əsasını məhz Heydər Əliyev yaratmışdır.

Vətənimizdə gedən prosesləri diqqətindən qoymayaraq, parçalanma, qarşıdurma təhlükəsinin baş verə biləcəyi anında xalqın, Vətənin imdadına yetişən ulu öndər dövlətçilik təcrübəsinin bütün variantlarından istifadə etmişdir. O, öz zəkasının ziyası ilə məmləkətimizi zülmətdən aydınlığa çıxarmağa müvəffəq olmuşdur. Ümumiyyətlə, Azərbaycanın müstəqillik yolu ilə inamla addımlaması, uğurları ilə zənginləşməsi dahi Heydər Əliyevin şəxsiyyət bütövlüyünün, əqidəcə saflığının birbaşa nəticəsi idi.

Azərbaycan Respublikasının müstəqillik tarixinə, iqtisadi inkişaf dinamikasına, ölkədə inkişaf edən sosial-iqtisadi və siyasi proseslərin xronologiyasına nəzər saldıqda mövcud



inkişaf modelini, inamla – HEYDƏR ƏLİYEV MODELİ adlandırmaq olar. Çünki, əldə edilən bütün uğurlarımızın əsas səbəbi xalqımızın dahi oğlu Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrə təsadüf edir. Qazanılmış uğurlar, məhz bu müdrik insanın əvəzsiz zəhməti və təşəbbüsü ilə reallaşdırılan beynəlxalq müqavilələrin, sosial-iqtisadi və siyasətdə yüksək iradə və qətiyyətlə həyata keçirilən islahatların nəticələridir. Bu gün inamla həyata keçirilən uzaqgörən Heydər Əliyev strategiyasının nəticəsi kimi Azərbaycan Respublikası müstəqilliyin möhkəmləndirilməsi, ölkədə daimi inkişafın təzahürü istiqamətində atılan addımlar və analoqu olmayan iqtisadi uğurlar ilə beynəlxalq aləmdə nüfuzlu söz sahibinə çevrilmişdir.

Bütün həyatını öz xalqına sədaqətlə xidmətə həsr etmiş Heydər Əliyev öz müdirk fəaliyyətində həmişə xalqa arxalanmış, ən çətin anlarda xalqına müraciət etmişdir. Xalqın Heydər Əliyevə göstərdiyi böyük etimad və ehtiram hissləri müdrik rəhbərin dəfn mərasimində də bir daha bütün dünyaya əyani şəkildə nümayiş etdirildi. Bu, milyonlarla insanın öz sevimli rəhbərinə bəslədiyi səmimi hisslərin misli görünməmiş təzahürünün göstəricisi idi.

Müdrik insan və siyasət nəhəngi Heydər Əliyevin xalqı qarşısında əvəzedilməz xidmətlərindən biri də müstəqil dövlətimizin özünü müdafiə qüdrətinin mütəmadi olaraq möhkəmləndirməsi idi. O, hələ Sovet imperiyası dövründə milli zabit kadrlarının gələcək dövlətçilik baxımından vacibliyini nəzərə alaraq, onların yetişdirilməsi istiqamətində məqsədyönlü addımlar atmağa nail olmuşdu.

Heydər Əliyevin həyatının müxtəlif dövrləri bir-biri ilə sıx bağlıdır. "Mən həyatımın heç bir səhifəsindən imtina etməmişəm" ifadəsini deyən ümummilli lider bütün həyatı boyu qəti və aydın şəkildə müəyyənləşdirdiyi yüksək prinsipləri və amalları, mənəvi dəyərləri rəhbər tutmuşdur. Bütövlük, tamlıq, ardıcıllıq, ədalətlilik və prinsipiallıq onun

xarakterinin mühüm cəhətlərinui ifadə edirdi. Ona görə də ümummilli lider həyatının bütün mərhələlərində, ömrünün sonunadək öz ali məqsədini – mənsub olduğu xalqa və cəmiyyətə sədaqət, vicdanlı və əzmkar xidmət prinsiplərini rəhbər tutmuş və bu yoldan heç vaxt dönməmişdir. Heydər Əliyev qarşısına qoyduğu bu yüksək amala yetişmək üçün məqsədyönlü və ardıcıl surətdə çalışmış, istənilən situasiyada öz prinsiplərini qoruyub saxlamış və bununla haqlı olaraq fəxr etmişdir.

Heydər Əliyev bütün dünyada ensiklopedik biliyə malik, məlumatlı şəxsiyyət kimi tanınmışdır. Onun siyasət və dövlət xadimləri, elm, sənət adamları, təsərrüfat işçiləri ilə söhbətlərində müsahiblər Heydər Əliyevin geniş məlumatlılığına, problemləri dərindən bilmək qabiliyyətinə heyran olur, ondan yeni cəsarətli ideya və təkliflər eşidirdilər. Məhz bu dərin və ətraflı biliklər ona əsaslandırılmış və bitkin qərarlar qəbul etməyə imkan verirdi. Heydər Əliyev fitri liderlik istedadı, fenomenal hafizəsi, incə hissetmə və duyma qabiliyyəti, nüfuzedici natiqlik bacarığı ilə insanların beyninə və qəlbinə asanlıqla yol tapırdı. Bu xarakterik xüsusiyyətlər isə ona geniş xalq kütlələri ilə istənilən səviyyədə geniş ünsiyyət qurmağa və onları öz arxasınca aparmağa imkan verirdi.

Heydər Əliyevin siyasi irsi, idarəçilik təcrübəsi, siyasi elmə gətirdiyi yeniliklər zaman keçdikcə dünyanın analitik mərkəzləri tərəfindən daha diqqətlə və dərindən öyrəniləcək, müasir siyasi idarəçilikdə geniş tətbiq ediləcəkdir. Müdrik lider Heydər Əliyev öz ölümü ilə ölməzliyə qovuşdu, xalqın taleyində liderlik missiyasını davam etdirdi və cəmiyyətimizi ölməz ideyaları ətrafında daha sıx birləşdirdi. Onun ideyaları və səmərəli əməli fəaliyyəti dövlət quruculuğunun, sosial-iqtisadi və mədəni-mənəvi inkişafımızın bütün istiqamətlərində yolumuza daima işıq salaraq, bu gün də, sabah da Azərbaycanı firavan gələcəyə istiqamətləndirəcəkdir.



Bu gün respublikamızda Heydər Əliyev siyasəti uğurla davam edir. Ölkədə əvəzsiz dəyişikliklər baş verir, paytaxt yeniləşir, arxitektura görkəmi tam yenlənir. İnsanların yaşayış rifahı, yeni iş yerlərinin artırılması, iqtisadi layihələrin gerçəkləşdirilməsi ölkə rəhbərinin həmişə diqqət mərkəzindədir. Prezident İlham Əliyev dünya maliyyə böhranının ölkəmizə daha az ziyan vurması üçün lazımi olan bütün tədbirləri görür, ölkə vətəndaşlarının rifahı naminə hər şeyi edir.

Bu gün Prezidentin həyata keçirdiyi Heydər Əliyev siyasi kursu özünün dönməzliyi, perspektivləri və əbədiliyi ilə alternativsizdir. Əsrlər, nəsillər keçəcək, həyat daha da irəliyə doğru gedəcək, amma ulu öndərimizin əzəmətli, gur, qətiyyətli səsi daim eşidiləcək, bu milləti, vətəni və insanlığı sevən hər kəsə müqəddəs bir nümunə olacaqdır: "Mən Azərbaycanlı kimi dünyaya gəldiyimə, Azərbaycan dilində danışdığıma, Azərbaycan kimi vətənim olduğuna, Azərbaycanı təmsil etdiyimə görə özümü xoşbəxt saymışam".

Bu gün Azərbaycanın Avropanın nəqliyyat-kommunikasiya, yükdaşımaları və enerji təhlükəsizliyində mühüm rol oynadığı artıq hamı tərəfindən qəbul olunur. Ümummilli lider Heydər Əliyevin yeni neft, nəqliyyat-kommunikasiya və enerji dəhlizlərinə dair strategiyasını uğurla davam etdirən Prezident İlham Əliyevin səmərəli diplomatik səyləri nəticəsində Azərbaycan regionda heç kimdən enerji asılılığı olmayan, öz tələbatını özü ödəməyə qadir yeganə ölkə qismində tanınır.

Eyni zamanda ölkə başçısının yüksək diplomatik məharətlə həyata keçirdiyi balanslaşdırılmış daxili və xarici siyasət Azərbaycan Respublikasının milli təhlükəsizlik maraqlarının qorunmasına və ölkənin demokratik inkişafına məqsədyönlü xidmət edir. İqtisadi inkişaf göstəriciləri ilə dünyada inkişaf etmiş dövlətlər sırasında yer alan Azərbaycan Respublikasında əhalinin maddi-rifahının yaxşılaşdırılması istiqamətində çox sayda islahatlar həyata keçirilir. Prezident İlham Əliyev ümummilli liderin siyasi kursunu uğurla davam

etdirərək ölkəmizi dünya arenasında layiqincə tanıdır, özünün yüksək idarəçiliyi və təşkilatçılığı ilə ölkə vətəndaşlarının rifah halının daha da yüksəlməsinə çalışır. Bununla da, doğma Azərbaycanımız böyük həvəslə, qətiyyətlə, eləcə də bütün sahələrdə əldə etdiyi uğurları ilə parlaq gələcəyə doğru inamla irəliləyir.

"Əmin ola bilərsiniz ki, mən Heydər Əliyevin başladığı bütün işləri axıra çatdıracağam" – deyən Prezident İlham Əliyev ulu öndərimiz tərəfindən müəyyən edilmiş dövlətçilik kursunu davam etdirməklə, Azərbaycanımızı indiki qələbəli günlərə çatdırmış və gələcəyə, sabaha möhkəm təminat yaratmışdır.

Müdrik liderimiz Heydər Əliyev Azərbaycanın demokratik tərəqqisi üçün zəruri inkişaf kursunu irəli sürmüşdür. Bu kursun alternativsizliyini real addımlar və əməli nəticələrlə sübuta yetirməklə birgə, dövlətçilik irsinin əbədiliyini təmin edəcək qüdrətli varis və lider yetişdirmişdir. Ulu öndərin strategiyasını uğurla həyata keçirən Azərbaycan Prezidenti İlham Əliyevin öz xalqına və dövlətinə çox bağlı olduğunu aydınlıqla görürük. Onun reallığı düzgün qiymətləndirmək bacarığı, praqmatikliyi və işgüzarlığı, sadəliyi və səmimiliyi, təvazökarlığı, alicənablığı və insanlara təmənnasız münasibəti, xalqına, millətinə, Vətəninə sevgisi, nəcibliyi, ziyalılığı, qətiyyətliliyi və məqsədə doğru inamla irəliləməsi cənab İlham Əliyevə xalqın rəğbət hissini daha da artıran ən mühüm müsbət mənəvi keyfiyyətlərdir.

Azərbaycan Respublikası beynəlxalq aləmə sürətlə inteqrasiya edən, özünün dinamik iqtisadi inkişafını və siyasi stabilliyini təmin etmiş müstəqil bir dövlətdir. Artıq Azərbaycan çox mötəbər kürsülərdən öz sözünü deməyə, öz haqlı mövqeyini bildirərək qorumağa qadir olan, zəngin iqtisadi potensiala malik bir dövlətdir.

Azərbaycan dövlətinin uğurlu daxili və xarici siyasəti Prezident İlham Əliyevin rəhbərliyi ilə yüksək səviyyədə



davam və inkişaf etdirilir. Bunun nəticəsində Azərbaycan dinamik inkişaf yolunda inamla irəliləyir, vətəndaş rifahının təminatı istiqamətində mühüm addımlar atır, dünya birliyində nüfuzlu mövqeyə malik olan bir ölkəyə çevrilmişdir.

2020-ci ildə Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun Vətən müharibəsində möhtəşəm Zəfər əldə etməsi, 30 ilə yaxın Ermənistanın işğalı altında qalmış torpaqlarımızın azad edilməsi isə tariximizin ən şanlı səhifəsidir. Qarabağın işğaldan azad edilməsi bu torpaqda yaşayan hər kəsin arzusu və amalıdır. Doğma Qarabağın geri qaytarılması məramı xalqımızı Azərbaycan dövlətinin və Prezidentinin ətrafında sıx birləşdirən başlıca dəyərə, milli birliyə və vətəndaş həmrəyliyinə çevrilmişdir. Qarabağda aparılan nəhəng quruculuq işləri bunun əyani və əməli sübutudur. Qüdrətli orduya malik Azərbaycan bu gün, eyni zamanda, sosial dövlət olaraq güclü sosial siyasətə malikdir. Ölkədə əhalinin sosial müdafiəsi və aktiv məşğulluq proqramları ildən-ilə genişlənir.

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP 29-un Azərbaycanda keçirilməsi BMT səviyyəsində ölkəmizdə siyasi və iqtisadi sabitliyin tanınması deməkdir. COP 29-a ev sahibliyi etmək bizim dövlətimiz, xalqımız üçün həqiqətən böyük şərəfdir. Bu beynəlxalq ictimaiyyətin Azərbaycana və ölkəmizdə görülən işlərə, o cümlədən yaşıl enerji sahəsindəki fəaliyyətin bəhrəsidir.

Heydər Əliyev Fondunun fəaliyyət fəlsəfəsində insanlara yaxşılıq kimi mütərəqqi bir ideya, nəcib amal daim ön plandadır. Azərbaycan Respublikasının Birinci Vitse - prezidenti, Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyət Fondunun prezidenti, UNESCO və ISESCO - nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın özünün də söylədiyi kimi, başqalarına yaxşılıq, mərhəmət ömrü boyu onun üçün ümdə anlayışlara, ən ülvi insani keyfiyyətlərə çevrilmiş, bu mis-

siyasının kökündə təmənnasızlıq prinsipi dayanmışdır. İnsan amilinin yüksəlişinə xidmət edən qlobal layihələr Heydər Əliyev ideyalarına sədaqətin, Azərbaycan Prezidenti cənab İlham Əliyevin Vətən, xalq naminə apardığı məqsədyönlü siyasətə dəstək vermək istəyinin əməli müdriklik təzahürüdür.

Ulu öndər Heydər Əliyevin qurduğu və onun layiqli davamçısı Prezident İlham Əliyevin daha da inkişaf etməsi üçün yorulmadan fəaliyyət göstərdiyi müstəqil, demokratik, hüquqi, dünyəvi, sosial Azərbaycan dövləti məhz bu parametrlərə malik olub ölkənin gələcək və sürətli inkişafının mühüm başlanğıcını təşkil edir. Hamımız bu yolla gedirik. Bu yolda işıq var, həqiqət var, inkişaf var.

**Ədəbiyyat:**


1. "Azərbaycan" qəzeti .2009. 12 dekabr. № 276. s.13.
2. Cavad Heyət. Kamillik zirvəsi. Bakı: Vətənoğlu, 2014, 376 s.
3. Könül Bünyatzadə. *İnsan: kamilliyin arxitektonikası. Bakı*, Zerdabi LTD, *2014*, 496 s.
4. Hüseynova İ. Azərbaycan Qafqazda lider dövlətdir // Dirçəliş-XXI əsr, 2008, №118-119, s. 344-354.
5. Orucov H. Heydər Əliyev və Azərbaycanda milli siyasət. Bakı, 2001, 324 s.
6. Əliyev O. Heydər Əliyev və milli mentalitet fəlsəfəsi. Bakı: Zahid, 2003, 246 s.
7. "İki sahil"qəzeti. 2009. 2 may. №.81. s.3.
8. Xalq" qəzeti. 2010.1 may. № 93. s.4.
9. Səs" qəzeti. 2010.15 may. №.85. s.3.
10. https://eco.gov.az ›





*Nəşriyyatın direktoru:* *Hüseyn Hacıyev*
*Redaktor:* *Mustafa Şəfiyev*
*Korrektor:* *Sevinc Mamoyeva*
*Dizayn:* *Müşfiq Hacıyev*
*Cildçi:* *Elmar Mikayılov*

*Çapa imzalanmış 09.01.2026-cı il*
*Kağız formatı 60x84 1/16, çap vərəqi 10*
*Sifariş 14, sayı 100*

*ADPU-nun nəşriyyatı*
*Bakı, Ü.Hacıbəyli küçəsi, 68*
*Tel: (+912) 493-74-10*
*E-mail: poliqrafiya@mail.ru*